_________Milli Kitabxana_________

GÜLBƏNİZ ARİFQIZI
(BENİZ SPENCER)

# ƏSİRLİKDƏ QALAN KƏNDİM

"Avropa" -2008

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

_________Milli Kitabxana_________

Az-2
A -75

Redaktoru: Aybəniz Əhmədova

**A75. Gülbəniz Arifqızı (Beniz Spencer). Əsirlikdə qalan kəndim.** Bakı. "Avropa" nəşriyyatı, 2008. 144 səh+24 səh. illustr.

A $\frac{4702060102}{8032-2008}$ qrifli nəşr

Yığılmağa verilmişdir 14.01.2008
Çapa imzalanmışdır 15.05.2008.
Formatı 60×90 $^1/_{16}$, həcmi 10,5 ç.v.
Tirajı 300.
"Avropa" nəşriyyatı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Odlu yolların yolçusu və ya
# Vətən dərdindən yazmaq hər kəsin işi deyil...

Qarabağ müharibəsinin tüğyan etdiyi illlərdə qaynar nöqtələrdəki vəziyyəti, döyüşlərin ağırlığını yollardan da hiss etmək mümkün idi. Sanki bu ağrı-acıdan, qan-qadadan yollara da pay düşmüşdü. İçi hərbçilərlə dolu iri maşınların bağrı cadar-cadar olmuş yollarla iti sürətlə şütüməsi, göz işlədikcə sıralanan qaçqın çadırları, tüstüsü zəif kənd evləri, baxışlarından sonsuz intizar oxunan soydaşlarımız... Bu sönük, ürək göynədən mənzərə torpaqları işğal olunan, yağmalanan bir yurdun müharibə illərinin gerçəkliyi idi.

Ayaqlarımız altında çiçək bitirən, bizi xoş əməllərə qovuşduran yollar indi düşmənin ölümsaçan tanklarının tırtılları altında əzilir, xıncım-xıncım olurdu. Yüz qanlı qovğanın, iztirabın şahidi yollar elin hünərli oğul və qızlarından biri olan Gülbənizi də odlu cəbhələrə, səngərdən-səngərə aparırdı. Bu inadkar qızın mübarizə yolu hələ Qarabağ müharibəsinin ilk mərhələsindən başlamışdır. O, 1990-cı ilin qanlı yanvarından üzü bəri baş verən olaylarla, milli azadlıq mücadiləsinə qalxan xalqımızın istiqlal arzularının güllələrə tuş gəlməsi ilə heç cür barışa bilmirdi.

Gülbənizin doğulduğu, başı müsibətlər çəkmiş Füzuli mahalının səmasında qara buludlar görünəndə, doğma torpağın köksünə barıt qoxulu qurşunlar səpələnəndə, düşmənin iti caynaqları bu yurdun dinc günlərinə uzananda elcanlı övladlar qisas almaq üçün döyüşlərə atılıb, sinələrini güllələrə sipər etdilər. Son illərin hərb xronikasında tez-tez adı çəkilən bu yurd yeri neçə müddət idi ki, azğın düşmənin həmlələrinə sinə gərir, döyüşürdü. Füzuli bölgəsi qoçaq camaatına və bir də cəsur müdafiəçilərinə arxalanırdı.

Bakıda ali təhsilini başa vurub layihə institutunda işə başlayan Gülbəniz, (o ixtisasca memardı) tez-tez ata yurduna baş çəkir, həm valideynlərindən xəbər tutur, həm də Füzulidəki hərbi hissələrə, batalyonlara gedərək ön xətdəki vəziyyət barədə yazılar hazırlayırdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülbənizlə tanışlığım elə o odlu illərə təsadüf etmişdi. Döyüş bölgəsindən yenicə qayıdan bu fədakar qızla vaxtilə çalışdığım "Bakı" qəzeti redaksiyasında görüşdük. Onun ilk qələm nümunələri qəzetimizin səhifələrində dərc olundu. Sonralar ünsiyyətimiz daha da artdı, səmimi münasibətə çevrildi. Bu mehriban, sadə qızla hər görüş qəlbimdə silinməz izlər buraxıb. Odlu nöqtələrə can atan, əsgərlərlə görüşüb, onların qayğılarından bəhs edən hünərvər qızın yazıları, Gülbəniz Arifqızı imzası ilə hazırladığı cəbhə reportajları artıq digər mətbuat nümunələrində də işıq üzü görürdü.

Şuşanın süqutundan sonra, Füzulidə özünümüdafiə batalyonları yaradılmışdı. Gülbəniz Arifqızının silsilə cəbhə reportajlarında həmin batalyonların döyüşçülərinin də mərdliklə iştirak etdiyi Qacar, Məlikcan, Axullu, Veysəlli, Gövşad, Divanalılar, Arış, Qoçəhmədli, Hoğa, Cuvarlı, Tuğ kəndləri uğrunda gedən ağır döyüş əməliyyatları barədə məlumat verirdi. Onun 1992-ci ilin 13 oktyabrında keçirilən, əsgərlərimizin ermənilərin xeyli canlı qüvvəsini məhv etdiyi və az itki ilə uğur qazandığı "Ulyandağ" əməliyyatı və bu çətin döyüş əməliyyatında rabitəçi Gülbar Heydərovanın qəhrəmanlığı barədə, o cümlədən 1993-cü ilin avqustunda strateji əhəmiyyətli Məngələnata yüksəkliyi uğrunda gedən qanlı savaşdan söz açan yazıları oxucuların dərin marağına səbəb olmuşdu.

Qan-qan dalınca gəlirdi. Qarabağ müharibəsinin alovları getdikcə sıxlaşır, daha çox yurd yerimiz talan olurdu. Gülbəniz xanım bütün bu dəhşətlərdən, fəlakətlərdən yazmaq üçün döyüş bölgələrinə yollanır, ön xəttə can atırdı. Fəqət, günlərin birində Füzuli bölgəsinin də yandırıb-yaxan barıt qoxusundan nəfəsi təngidi, qarğa-quzğun hücumuna artıq tab gətirə bilmədi. Elə həmin andan bu yurd yerimizin də süqutu başladı.

Deyirlər, Vətən dərdindən yazmaq hər oğulun işi deyil. Lakin Gülbəniz xanım bu gücü, təpəri özündə tapmışdı. O, öz doğma torpağında qaçqına, məcburi köçkünə çevrilmiş soydaşlarımızın ağır, nisgilli taleyindən yazırdı. Sonralar sənədli faktlara əsaslanan bu təsirli hekayətlər G.Arifqızının "Müharibənin yolları ürəyimdən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçir" adlı kitabında toplu halında oxuculara təqdim olunmuş və rəğbət qazanmışdı.

Hazırda Azərbaycandan uzaqlarda- ABŞ-ın Kaliforniya ştatında ailəsi ilə birlikdə yaşayan, lakin qəlbi hər an doğma məmləkəti ilə döyünən Gülbəniz xanım publisistik fəaliyyətini bu gün də davam etdirir. Azərbaycan həqiqətlərinin okeanın o tayında yayılmasında, haqq işimizin dəstəklənməsində bu hünərli el qızımızın xidmətləri danılmazdır. Onun yaratdığı və Kaliforniyadakı soydaşlarımızı bir araya gətirən Amerika-Azərbaycan Qadınlarının Dostluq Cəmiyyəti bu istiqamətdə mühüm iş aparır, diasporamızın daha sıx təşkilatlanması, ölkəmizin nüfuzunun möhkəmlənməsi, azərbaycançılığın inkişafı naminə böyük səylər göstərir.

Gülbəniz Arifqızı təqdim etdiyi "Əsirlikdə qalan kəndim" adlı puplisistik əsərində də bir qədər əvvəl oxucuların ixtiyarına verdiyi ilk kitabında olduğu kimi, erməni qəsbkarlarının və onların havadarlarının fitnəsi ilə törədilmiş hərb qovğasının dəhşətlərindən yan keçməyib.

"Haradan başlanır Vətən?" sualını erkən yaşlarımızdan tez-tez eşitmişik. Gülbəniz xanımın "Əsirlikdə qalan kəndim" əsərini oxuduqdan sonra, sanki bu sualın daha mükəmməl cavabı doğulur, dilə gəlir: "Yurdun çöl-çəməninin gülündən-çiçəyindən, ilk bahar sellərindən, səhər şəfəqlərindən, şiş uclu qayalarından başlanır Vətən. Kənd yollarına "imza atan" araba təkərlərinin həzin cırıltısında, yarlı bir əsgərin qulağında səslənən bulaq şırıltısında yurd sevgisi var. Şəhidlərin qanı axmış hər dağda, hər dərədə, tüstüsü zəif çıxan hər evdə, şölə saçan hər ocaqda təkcə səni arayır, təkcə səni görürəm, Vətən! Səndən ötrü ölürəm, Vətən!

Əsirlikdə qalan kəndin hekayəti elə bütövlükdə Vətən haqqında bir dastandır. Yurd məhəbbəti dilə gələn, düşmənə nifrəti coşub-daşan müəllifin ülvi hissləri, duyğuları süzülüb ağ vərəqlərə. Bu yurd hekayəti müəllifin köksünə darlıq edən yaşantılarından, ürək çırpıntılarından doğulub.Vətəndaş yazarın ovqatı isə həmişə yurdun-elin haləti ilə həmahəng olur. Elin-obanın layiqli qızı bu əsərində də

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hələ qaysaq bağlamayan yaralarımızdan, itirilən yurd yerlərimizin göynəyindən söz açır.

Haçalanan yollar, qoru külləşmiş ocaqlar, namərd yağı əli ilə tüstüsü ərşə bülənd olan doğma Yal Pirəhmədli kəndinin ah-naləsi...Gülbəniz xanımı dilə gətirən də elə bunlardır. Müəllifin qələmi məmləkətin qırılmış cığırlarını bir-birinə calamağa, sozalmış ocaqların işığını gur alova çevirməyə can atır. Yurdun yaralarına sarğı qoymaq hər kəsin işi deyil. O, balaca oğlu Dənizi də Vətən, yurd sevgisi ilə böyüdür.

Gülbəniz Arifqızı yeni kitabında Ərgünəş dağının ətəyində qərar tutan, Qaryağdı yüksəkliyinə söykənib, qonşu Sərdərli, Qoçəhmədli, Arış kəndləri ilə baş-başa verən doğma kəndinin qədim adət-ənənələri, təbii gözəllikləri, diş göynədən saf bulaqları, kəhrizləri, əhalisinin məişəti, həyat tərzi, məşğuliyyəti, uşaqlıq və məktəb illəri, müəllimləri barədə məhəbbətlə söz açmışdır.

"Əsirlikdə qalan kəndim" əsl vətəndaş kitabıdır. Bu kitab yaddaşsızlıq faciəsindən yaxa qurtarmağa, azadlığın, müstəqilliyin dəyərini bilməyə, düşmənə qarşı mübarizəyə çağırışdır. Təki, duyumumuz, fəhmimiz korlaşmasın. Düşmənin əsir torpaqlarımızdan qovulub çıxarılacağı gün isə əsl oyanış, Zəfər günü olacaq.

**Zemfira Məhərrəmli, yazıçı-puplisist.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Əsirlikdə qalan kəndim

## Müəllifdən

Həyatımın ən gözəl anları uşaqlıq illərimlə bağlıdır. Bir zamanlar ağlıma belə gəlməzdi ki, uşaqlığım kiçik bir kənddə, gəncliyim və yetkinliyim isə dünyanın ən böyük, ən gözəl ölkəsi olan Amerika Birləşmiş Ştatlarında-Kaliforniyada keçəcək. Bu bir təsadüfmü, yoxsa alın yazısımı?..

Demək çox çətindir. Amma onu deyərdim ki, Allahım öz lütfünü məndən heç zaman əsirgəməmişdi. Dünyanın cənnət guşəsi gözəl Qarabağda doğulmuşam. Həmişə valideynlərim tərəfindən sevilmiş, həsrətində olduğum arzularıma çatmışam. Qəlbimdə daim Vətən sevgisi alovlanıb, azərbaycanlı olmağımla fəxr eləmişəm.

Doğrudur, bu gün mən Vətənimdən çox-çox uzaqlarda yaşayıram. Əlim ona çatmır. Amma qəlbim daim onunla bir döyünür. İmkan tapan kimi vətənə gedirəm. Demək olar ki, iki gündən bir gecə yuxuda uşaqlığımın yaddaqalan günlərini keçirdiyim, bu gün isə erməni əsirliyində olan kəndimə gedirəm. Xatirələr məni tez-tez çox da uzaq olmayan keçmişə aparır. Uşaqlıq illərim bir-bir gözlərim önündə canlanır. Kəndimiz üçün burnumun ucu göynəyir. İçimdə bir arzu, bir istək mənə rahatlıq vermir. Yuxuda mənə xoşbəxtlik bəxş edən o günlərin şirin xatirələrini vərəqlərə köçürmək və həmin xatirələri Sizlərlə bölüşmək.

Niyə məhz sizlərlə?..Ümid edirəm ki, erməni tapdağı altında qalmış kiçik bir kəndin sadə əhalisi, onların adət-ənənələri, müharibə başlandıqdan sonra həmin insanların necə pərən-pərən düşməsi, vətən həsrəti ilə qərib ellərdə qaçqın həyatı yaşaması, bu dərdə dözməyib dünyasını dəyişməsi barədə xatirələrim Sizlər üçün də maraqlı olacaq.

Bu kitab bir milyondan çox qaçqın və məcburi köçkün düşmüş insanların cüzi bir hissəsinin yaşadıqlarını özündə əks etdirir. Yazdıqlarım şahidi olduğum həqiqətlərdi. Kim sözlərimin doğru

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduğuna inanmırsa, internetdə earthmaps.com saytına girərək, ermənilərin şəhər və kəndlərimizin başına gətirdiklərini, bir dənə də olsa salamat evin qalmadığını, daşının-daş üstə olmadığını öz gözlərinizlə görəcəkdir. Odur ki, bu kiçik kitabı həvəslə əlinizə alın və oxuyaraq mənim kəndimin xoş və talanmış günləri barədə söhbətimə həmdəm olun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Dağlarda keçən uşaqlığım

1961-ci ilin gözəl bir yaz günü Azərbaycanın dilbər guşəsi, Qarabağın Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olmuşam. Füzuli rayonu elə bir yerdir ki, ilk insan dəstələrinin 1, 5 milyon il bundan əvvəl yaşadığı aşkar edilmiş Quruçay dərəsindəki Azıx mağarası məhz burada yerləşmişdi. 1968-ci ildə Azıx mağarasında aparılmış arxeoloji qazıntılar zamanı alt poleolit dövründə yaşamış ibtidai insanın "Azıxantrop", yəni "Azıx adamı"n alt çənə sümüyünü tapmış və onun təxminən 350-400 min il bundan əvvəl yaşadığını öyrənmişdilər.

Füzulidə Quruçay mədəniyyətinin yaşı 1,2 milyon il bundan əvvəlki dövrü əhatə edir. Erkən Tunc dövrü e.ə. IY minilliyin ikinci yarısından III minilliyin sonuna kimi davam etmiş, həm də Azərbaycanda Kür-Araz mədəniyyəti kimi də tanınmışdır. Həmin dövrün kurqanlarından (qəbir abidələrindən) biri də Füzuli şəhərində Köndələnçayın (Araz çayının sol qolu olub, uzunluğu 100 km-dir) sahilində yerləşən, hər il 1 may bayramında insanların sevinc içərisində gəzintiyə çıxdığı Qaraköpək abidəsi idi. Həmin abidə ətrafında aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət abidələri bunu sübut etmişdi.

Əvvəllər Qarabulaq adlanan rayon 1929-cu ildə Sərdar, 1931-ci ildə Qaryagin, 1959-cu ildən isə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə Füzuli adlandırılmışdı. Füzuli rayonunun ərazisi 1392 kv. km, əhalisi 140 min nəfər olmuşdu.

Doğulduğum Horadiz qəsəbəsi İran İslam Respublikası ilə həmsərhəd idi. Ağlım kəsən gündən bilirəm ki, Azərbaycanın yeraltı və yerüstü sərvətləri, strateji bir mövqedə yerləşməsi daim bizimlə qonşu olan dövlətlərin maraq dairəsində olmuşdur. Azərbaycan vaxtilə xanlıqlardan ibarət qədim və böyük bir dövlət olub. Sonra tədricən xanlıqların zəifləməsindən istifadə edən Rusiya və İran dövləti öz aralarında bu torpaqların bölünməsi uğrunda uzun mübarizəyə başlamış, nəticədə 1805-ci il Kürəkçay, 1813-cü il Gülüstan və 1828-ci ildə Türkmənçay müqaviləsi ilə Azərbaycanı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şimali və Cənubi olmaqla iki yerə bölmüşdülər. Şimali Azərbaycan Rusiyanın, Cənubi Azərbaycan isə İranın nəzarəti altına keçmişdi. O taylı bu taylı qohumlar illər boyu bir-birinə həsrət qalır. Bacı qardaşdan, oğul atadan, ana oğuldan ayrı düşdü. Çoxu bu dərdə dözməyib dünyasını dəyişir.

Biz Şimali Azərbaycanda yaşayırdıq. Araz çayı və tikanlı məftillər sərhəd rolunu oynayaraq, ürəyinə xəncər saplanmış yaralı xalqı bir-birinə həsrət qoymuşdu. O vaxtlar sərhədlərimizi əli silahlı rus əsgərləri qoruyardı. İndi isə onun keşiyində Azərbaycan Milli Ordusunun əsgərləri dayanır. Doğrusu, mən qəsəbədən kiçik yaşlarımda ayrılmışdım. Odur ki, ora ilə bağlı xatirələrim də çox azdır. Çünki, üç yaşım olanda ata nənəm Zərif və babam Lalazər məni övladlığa götürmüş və özləri ilə yaşadıqları Yal Pirəhmədli kəndinə aparmışdılar.

Dünyanın ən kiçik nöqtələrindən biri olan doğma kəndim, rayon mərkəzindən 9 km.aralıda başı daim qarla öptülü olan Ərgünəş dağının ətəklərində, Qaryağdı deyilən kiçik bir dağın döşündə yerləşirdi. Kəndimizin tarixi də çox maraqlı idi. Deyilənlərə görə, 300 il bundan əvvəl Əhməd adlı xeyirxah, insanların qeydinə qalan, hamiya kömək əli uzadan, üz-gözündən nur tökülən bir nəfər gəlib bu yerlərə çıxmış, təpənin başında oturaraq ətrafı nəzərdən keçirmiş, torpağınnı, suyunu, dağını bəyəndiyi bu yerdə məskən salmışdı. Onun nəsli tədricən genişlənmiş, nəticədə bir kənd əmələ gəlmiş, dəfn olunduğu təpəni (yalı) pir adlandırmışlar. Elə həmin vaxtdan da kəndi Yal Pirəhmədli deyə çağırıblar. Hər tərəfi təpələrlə əhatə olunmuş kəndimizi kiçik bir çay iki yerə bölürdü. Oradan daima şırhaşırla dupduru su axardı. Bütün çay boyu hər rəngdə gözəl güllər çiçək açardı. Ata nənəmgildən fərqli olaraq, ana nənəmgil dərədə, çayın lap kənarında yaşayırdı. Mən də tez-tez nənəmgilə gedər, qayıdanda güllərdən bir dəstə bağlayıb evə gətirərdim. Yaz aylarında həmin çaydan gurultu qopararaq sel gələrdi. Birdən sel o qədər çox gələrdi ki, çayın üzərində daşdan tikilmiş hündür körpüdən keçmək mümkün olmazdı. Ana nənəmgilin də bağlarının yarısı selə qərq olardı. Anamın dediyinə görə, 1957-ci ildə o qədər güclü sel olub ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hətta bir neçə nəfər də selin qurbanı olub. Anamgil onda uşaq imiş. Sel onların evində olan bütün əşyaları yuyub aparmışdı. Anamın iki bacısı Nəzakət və Qızbəs evin pəncərəsinə çıxaraq sağ qalmışdı. Anam, nənəm və dayım Kamil iki böyük meyvə ağacının ortasında ilişib qalmış toy mağarının ağaclarını bərk-bərk qucaqlayaraq, ölümün pəncəsindən qurtara bilmişdilər. Amma əvəzində bütün ev əşyaları selin qurbanı olub. Evlərində salamat qalmış yeganə əşya İkinci Dünya müharibəsinə yola düşmüş və bir daha geri qayıtmayan, müharibədən “Qara kağızı” gəlmiş anamın Umud adlı dayısının divardakı foto şəkli və selin açdığı oyuğa düşmüş boşqab olmuşdu. Həmin sel Qarğabazar kəndində yaşayan bütöv bir ailənin də faciəsinə səbəb olmuşdu. Sonra nənəmin Kürdmahmudlu kəndində yaşayan qohumları- Xanoğlan müəllim, Dadaş, Alış, Vəliş, xalası oğlu Kazım, Simuzər xala və Kənd Horadizdə yaşayan əmisi qızları onlara kömək əli uzatmışdı. Gündəlik ən çox tələbat olan əşyalardan (yorğan-döşək, yastıq, qab-qacaq, taxıl və s.) gətirmişdilər.

Kəndimiz Qarğabazar, Sərdərli və Qoçəhmədli kəndləri ilə qonşu idi. Odur ki, bu kəndlərin adamları da bir-birini yaxşı tanıyardı. Kəndimizdə cəmi 55 ailə yaşayırdı və demək olar ki, onların da çoxu bir-birinə qohum olan sadə və zəhmətkeş insanlar idi. Kəndin xeyir və şərində hamı bir nəfər kimi ürəkdən iştirak edərdi.

Mən də nənəmin kiçik övladı kimi orada böyudüm, boya-başa çatdım. Onların 6 övladı vardı. Ancaq hamısı ailə qurub getmişdi. Təkcə kiçik əmim Akifdən başqa. O da əvvəl təhsil ardınca getdi. Sonra hərbi xidmətə yollandı. Sonda isə ailə qurub İmişli rayonunda yaşamağa başladı.

Nənəm çox gənc yaşında Məşədi Hüseynin oğlu Xasaya ərə getmişdi. Həmişə mənə deyərdi;

-Xasay baban var-dövlətli bəy idi. Sərvətli və səxavətli kişilərdən hesab olunurdu. Özü də sarısaçlı, ucaboylu, çox göyçək kişi idi. Kəndin bütün qızlarının onda gözü vardı. Atan da gözəllikdə və əliaçıq olmaqda ona bənzəyib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlk övladları Xurşud mamam (Qarabağlılar bibiyə, yəni atanın bacısına məhz bu cür müraciət edərlər), sonra isə ikinci övladları atam Arif doğulub. Atam böyük bacısı Xurşuda həddindən artıq bağlı idi. Çünki bacısının dörd yaşı, atamın isə bir yaşı tamam olmamış (o zaman atam altı aylıq imiş) Xacay babam cavankən dünyasını dəyişmişdi. Nənəm deyirdi ki;

-Xasay babanın üzünə qarayara (sibir xorası) çıxmışdı. O vaxtlar kəndimizdə bu dərdin dərmanını bilən yox idi. Yazıq yaman əziyyət çəkdi. Ölümünün yaxınlaşdığını bilirdi. Gözləri eləcə Arifin üzündə qalmışdı. Son nəfəsində onu öpmək istədi. Ançaq dodaqları şişdiyindən bir-birinə yaxınlaşmadı ki, onu öpsün. Gözlərini birdəfəlik yumanda yanağından üzüaşağı yaş damcısı süzüldü.

Nənəm iki uşaqla dul qaldığı üçün atası Molla Usub və anası Nubar onları öz himayəsinə götürüb. Beləliklə, atamın uşaqlığı çox vaxt Molla Usub babanın yanında keçib. Molla Usub baba kəndin savadlı ziyalılarından biri idi. O, Iraqın Kərbəla şəhərinə getmiş, orada dini təhsil almışdı. Babanın beş qızı vardı. Oğlu olmadığı üçün, atama nəvə kimi deyil, oğlu kimi baxırmış. Sonra nənəm Lalazər babama ərə gedir. Amma buna baxmayaraq, Molla Usub babam ölənə qədər atam daim onlarla ən yaxın təmasda olub. Onun usaqlığı çox ağır və əziyyətli keşib. Həddindən artıq zəhmətkeş olub. Yorulmaq bilmədən işləyib oxuyarmış. Mən balaca olanda atam deyərdi;

-Qızı, (Atam həmişə məni uşaq vaxtı belə, böyüdükdən sonra isə "Gülən" - deyə çağırardı) ağır günlər idi. Uşaqlığımız müharibə illərinə təsadüf edib. Tək bizim yox, hamının güzəranı dözülməz idi. Camaat yeməyə çörək tapmırdı. Başqalarına baxanda hələ biz bir qədər yaxşı yaşayırdıq. Səhərlər dan yeri sökülməmiş yerimizdən qalxardıq. Mal-heyvanı rahatlayar, dərsə gedər, dərsdən sonra isə o dövrdə texnika olmadığı üçün kəndin qurtarmaq bilməyən işlərini əllə görməyə başlardıq. Yaz başlayan kimi yer qazar, bostan əkər, məhsul becərərdik. Öküz və atlara qoşulmuş xışla (kotanla) yeri şumlar, taxıl səpərdik. Yayda biçinə gedərdik. Taxılı xüsusi kənd təsərrüfat aləti olan oraqla biçər, dərz bağlayardıq. Yaman əziyyətli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iş idi. Eyni zamanda biçindən sonra başşaq yığımına gedərdik. Yəni, yerə tökülmüş sünbülləri bir-bir yerdən toplayıb, parçadan tikilmiş torbalara yığardıq. Axırda torbada toplanmış sünbülləri və dərzləri araba vasitəsilə xırmana daşıyar, öküzə qoşulmuş vəl ilə taxılı döyərdik. Biz də ya öküzün, ya da vəlin üstündə oturardıq. (Toplanmış taxıl əsasən müdafiə fonduna, yəni cəhbəyə göndərilirdi) Kitabım da həmişə kəmərimin altında özümlə birgə olardı. Nahara oturanda və ya gecə keçəndən sonra ay işığında dərslərimə hazırlaşardım. O vaxtlar elektrik lampaları hələ yox idi. Çıraq işığında oturardıq. Neft az və baha olduğu üçün qənaət edərdik. Elə vaxt olurdu ki, elə öküzün belində oturub iş görə-görə dərslərimi oxuyardım. Hərdən gecələr uşaqlarla sözləşib ay işığında kolxoz bağından üzüm oğurlamağa gedərdik. Səkkizinci sinfi bitirmişdim. Avqust ayının axırı idi. İşləmək, pul qazanmaq, heç kimin əlinə baxmamaq arzusu ürəyimdə baş qaldırdı. Az-çox biliyimə güvənirdim. Orta məktəbi bitirməyi gözləmədim. Avqustun 15-də evdəkilərə məktəbə girmək üçün Bakıya getmək istədiyimi bildirdim. Atam Lalazər (əslində o mənim atalığım idi. Amma mənə doğma oğlu kimi baxar və ürəkdən sevərdi) ilə yola düşdük. İmtahan vermək məqsədi ilə Maliyyə-kredit texnikumuna gəldik. Müəllimlər balaca boyuma diqqətlə nəzər salıb yaşımı soruşanda, sinəmi qabağa verib dedim;

-On beş.

Onlar mənim boyuma və yaşımı necə fəxrlə deməyimə baxıb, əvvəl güldülər, sonra isə;

-Ay oğul, bu gün axırıncı gündür. İmtahanlar da artıq başa çatıb,- dedilər.

Mən sinəmi qabağa verib qətiyyətlə dedim;

-Nə olsun? Mən hamısını bir gündə verərəm.

Müəllimlər təəccübləndi. Arıq, çəlimsiz bədənimə baxdılar. Cəsarətim deyəsən onların xoşuna gəldi. Maraq üçün məni direktorun qəbuluna apardılar. O məni ayaqdan başa süzüb

-Ay bala, bu balaca canınla on imtahanı bir gündə necə verəcəksən?- deyə soruşdu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən də inadkarcasına;

-Verərəm,-dedim. Sağ olsun. Direktor yaxşı adam idi. Cavabım da deyəsən xoşuna gəlmişdi, ürəyincə olmuşdu. Səhərisi gün bütün fənn müəllimlərinin iştirakı ilə xüsusi komissiya yaratdı. Yazı lövhəsinin qarşısına keçdim, müəllimlər bir-birinin ardınca suallar verməyə başladılar. Mən də ki, təbaşir əlimdə od parçası kimi düsturları həll edirdim. Beləcə bir gün ərzində bütün fənlər üzrə imtahanları verib, texnikumun qiyabi şöbəsinə daxil oldum. Təhsilimi davam etdirə-etdirə, bir il sonra kolxozda mühasibat islərini də aparırdım. Aldığım məvacibi isə olduğu kimi nənəmə (Atam anasına "nənə" deyərdi) verərdim. Ona görə ki, ailəmiz böyük idi. Nənəm ikinci dəfə ailə qurmuşdu. Məni oğulluğa götürmüş atamın birinci nigahı uğurlu alınmamışdı. Əvvəlki arvadı Fitat xaladan İsmayıl adlı oğlu və Urba adlı qızı vardı. Nənəmlə olan nigahından isə Hidayət, Əhməd və Akif adlı qardaşlarım, Alagöz və Fatma adlı bacılarım doğulmuşdu. Əhməd balaca ikən həyətdə oynadığı yerdə qəflətən öldü. Onun ölümünə heç cür inana bilmirdim. Çünki o, həm çox gözəl, həm də yaşına nisbətən çox böyük və güclü idi. Qalan uşaqların arasında ögey söhbəti yox idi. Hamı bir-birinə "can" deyib, "can" eşidərdi. Bütün bunu isə nənəm yaratmışdı.

Biz böyüdükdən çox-çox sonralar bildik ki, Lalazər babam nənəmin ikinci həyat yoldaşıdı. Nənəm ortaboylu və azca dolu bədənli idi. O, həm gözəl və yaraşıqlı, həm də ağıllı və hökmlü qadın idi. Həmişə o dövrün bahalı parçaları olan şifon, krepdeşin, məxmər, gülməxmərdən uzunluğu dizdən azca aşağı olan qatlamalı paltar geyinərdi. Özünə xüsusi fikir verərdi. Saçlarına həna qarışdırılmış qara rəng qoyardı. Başına ya qızılı, ya da qara kəlağayı örtərdi. Çox şən, deyib-gülən, zarafatı sevən, eyni zamanda da hövsələsiz, ötkəm və əsəbi idi. Sözün düzünü adamın üzünə deyərdi. Ürəyində kin saxlamazdı. Əgər bir kimsənin ürəyinə toxunsa idi, beş dəqiqə keçməmiş onun ürəyini ələ alardı. Həmişə yüksək qan təzyiqi olduğu üçün cibində kişmiş, noğul, nabat gəzdirərdi. Çox da əliaçıq idi. Kim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

diləyə gəlsə, evdə olan şeyə “yox” deməzdi. Toya, yasa gedəndə hamı ona baxardı.

Lalazər babam da həm yaraşıqlı, həm də ucaboylu gözəl kişi idi. Nənəm ilə bir-birinə çox yaraşardılar. Özü də nənəmi çox sevdiyindən tez-tez ona güzəştə gedərdi. Babam atamı, o da babamı çox istərdi. Atam onun and yeri idi.

-Arifin canına and olsun,- deyə and içərdi. Bütün rəsmi sənədlərində atam-Əhmədov Arif Lalazər oğlu kimi qeydiyyatdan keçmişdi.

Gecələr darıxanda nənəm və babam domino oynayardılar. Mən də maraqla onlara baxardım. Hərdən nənəm cığallıq edərdi. Babam onun xasiyyətinə yaxşı bələd olduğu üçün gülüb deyərdi;

-Ay arvad, yenə cığalladın? Belə getsə, dostluğumuz pozulacaq.

Nənəm həmişə pəsdən babama mahnı oxuyardı. Mahnının arasında hərdən bir

-Ey zalım, ey zalım!-deyərdi.

Nənəm dünya aləm dağılsa da heç vaxt yeməyini gecikdirməzdi. Babam evə gələnə qədər az-az, amma tez-tez azı beş dəfə yemək yeyərdi. Elə ki, babam evə gəldi;

-Malım-mülküm sa (sənə) qurban, harda qaldın? Gəl, çıx də. Acından öldüm, axı,-deyərdi.

Babam da nənəmi yaxşı tanıdığından gülüb deyərdi;

-Zalımın qızı, ay inandım ha…İndiyə kimi allah bilir, on dəfə yemisən. Sən olasan, bu vaxta qədər ac qalasan.

Nənəm hər gün tezdən oyanar, səhər yeməyimizi hazırlayardı. Sonra da məni yanına çağırıb deyərdi;

-Gəl, nənə qurban, saçlarını darayım,-deyə məni öpə-öpə, saçlarıma sığal çəkə-çəkə iki qalın və uzun hörük hörərdi. Axırda da hörüklərimin ucunu iynə ilə tikib, (Ona görə ki, nadinc olduğum üçün o qədər atılıb düşərdim ki, sonda saçlarım tamam açılardı. Yalnız iynə ilə tikdikdə hörüklərim açılmazdı) üstündən ağ bant bağlayardı.

Babam mənə şerlər öyrədərdi. Ən çox sevdiyim şerlər bunlar idi. “İynə-iynə”, “Əkil-bəkil”, “Üşüdü” və “A teşti”.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uşaq vaxtı yeməyi də az yeyərdim. Nənəm və babam hövsələdən çıxar, mənə zor edərdilər. Bir dəfə babam nənəmə dedi;

-Məcbur eləmə, gözlə, yeməsə axırda qabı yaxalayıb ağzına tökərsən.

Elə də elədilər. Mən xörəyimi yemədim. Nənəm boşqaba bir az ılıq su tökdü, babam əllərimi tutdu, nənəm də xörəyi ağzıma tökdü. Həmin günü çox ağladım. Amma söz verdim ki, bundan sonra onlara qulaq asıb yemək yeyəcəyəm.

Amerikada belə hadisələrə pis baxar, ikrah edərlər. Onlar öz övladlarına heç nəyi zorla etdirməzlər. Biz də isə nadir hallarda belə hadisələr baş verir. Ac qalsam xəstələnib yorğan-döşəyə düşəcəyimdən qorxan nənəm və babam əlacsız qalıb bu növ tərbiyə üsulundan istifadə etməyə məcbur olmuşdular.

Kəndimizin girəcəyində Böyük kəhrizin üstündəki təpədə taxtadan tikilmiş üçillik təhsil verən kiçik bir ibtidai məktəb vardı. Burada ildə cəmi 30-35 şagird təhsil alardı. Qışda biz şagirdlər tünd palıd rəngli paltarın üstündən qara və ya ağ rəngdə önlük geyinər, yaxamıza içərisində sosializmin banisi V.İ.Leninin uşaqlıq şəkli həkk olunmuş beşguşəli qırmızı oktyabryat nişanı taxardıq. Yaz və yay aylarında qara rəngli qısa yubka və ağ kofta geyinərdik. İdman dərsini yayda açıq havada keçərdik, qışda isə idman zalı olmadığı üçün riyaziyyat dərsi ilə əvəzlənərdi. Məktəb balaca olduğu üçün IY-X-siniflərdə təhsilimizi davam etdirmək üçün qonşu Qarğabazar kəndindəki orta məktəbə gedərdik. Məktəb kəndin lap axırında idi. Bizim kənddən oraya 6 kilometr məsafə vardı. Dərslərimiz səhər saat 830-da başlayardı. Avtobus gec-gec gəldiyinə görə, sübh tezdən oyanar, yuxarı sinfin şagirdlərinə qoşulub piyada gedərdik. Yağışlı, qarlı havalarda uzaq yolu getmək müşkül olardı. Yaxşı ki, köməkçilərimiz olan yuxarı sinfin uşaqları vardı.

Dördüncü sinifdə pioner sıralarına qəbul olunardıq. Pionerlər boyunlarına al qırmızı rəngdə ipək qalstuk bağlayardı. Yaxamızdakı nişanlar dəyişərdi. Qırmızı bayraq formasında olan ulduzun arxasından alov dilimləri, içərisində V.İ.Leninin orta məktəb illərində çəkilmiş şəkli olardı. Doqquzuncu sinifdə isə komsomol

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sıralarına qəbul olunar, qalstuk taxmaz və bayraq şəklində olan nişan taxardıq. Məktəbdə oxuduğum on ilin hər günü, əsas da kəndimizlə bağlı olan günlər gözəl bir xatirə kimi yaddaşıma ömürlük həkk olunub. Orta məktəb illərində bizi həmişə məhsul yığımı zamanı kolxozçulara kömək etməyə aparardılar. Bu da başqa bir aləm idi. Hamı kollektiv şəkildə işləyər, deyər, gülər, əylənərdi.

Mənim də səkkiz yaşım olanda kənddəki ibtidai məktəbin birinci sinfinə getdim. Üç müəlliməm vardı. Sinif rəhbərim Maral müəllimə, nəğmə müəlliməm Pərzad, rus dili müəlliməm isə Gülüş idi.

Maral müəllimə nənəmin yaxın qohumu idi. Sifəti ağappaq, yanaqları isə sanki boya çəkmiş kimi həmişə qıpqırmızı olardı. Gözəl olduğu qədər də sadə, ağıllı, xeyirxah və səmimi bir insan idi. O, eyni zamanda öz kökünə olduqca bağlı, vətənini ürəkdən sevən, seçdiyi peşəsinə vurğun bir xanım idi. Elin xeyir-şərində Maral müəllimə başda olar, əlindən gələn köməyi heç vaxt əsirgəməzdi.

Gülüş müəllimən ucaboylu, sarışın və göygöz idi. Gözlərinin rəngi səmaya bənzəyirdi.

Pərzad müəllimən isə bir az kök, saçları qırmızı xınalı olardı. Hər üç müəllimən gözəl idi. Hərəsini bir cür sevərdim.

Maral müəllimə dərsə başladığımız, əlimizə qələm aldığımız ilk gündən başlayaraq, əlimizdən tutub xətləri düz çəkərək hərfləri yazmağı öyrətdi. İlk öyrəndiyimiz hərf "A", ilk öyrəndiyimiz söz isə "Ana", "Vətən" və "Azərbaycan" oldu. Yazını mürəkkəblə yazardıq. Mürəkkəb sulu olduğu üçün onu şüşə qablara tökərdik. Balaca torbalar tikər, mürəkkəb qablarını onun içərisinə qoyardıq. Müəllimlərdə mürəkkəbin rəngi qırmızı, şagirdlərdə isə göy rəngdə olardı. Bəzən əllərimiz, üct-başımız mürəkkəbə bulaşardı. Ucuna pero taxılmış taxta qələmi həmin mürəkkəbə batıraraq ağ vərəqlər üzərində tədricən yazmağı öyrəndik. Məktəbdə uşaqlar az olduğuna görə bəzən sinfin bir cərgəsində ikinci, digər cərgəsində isə üçüncu sinif dərs keçərdi. Amma bu hec də dərsin keyfiyyətinə təsir etməzdi. Müəllimlərimiz öz peşələrini sevə-sevə tədris edirdi. Tənəffüs olanda balaca dəmir zəng bir neçə dəfə vurular, biz də dəli kimi həyətə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaçardıq. Körpə balaların səsi balaca kəndə yayılardı. Bildiyimiz bir neçə oyunlar vardı. “Bənövşə, bəndə düşər”, “Gizlən-paç”, “Dəsmal-dəsmal”, “Klas-klas”, “Kəndirdən tullanma” və s. Kim hansı oyunu istəsə onu da oynardı.

Mən də nə oyun olsa, ora da mütləq iştirak edərdim. Yaşıdlarımdan fərqli olaraq, mən gəlinciklərlə oynamazdım. Ən çox oğlan uşaqlarının sevdikləri oyunları sevərdim. “Kuşok” deyilən bir oyun da vardı ki, onu yalnız oğlanlar oynayardı. Mən də onlardan heç geri qalmazdım. Bu oyunu sevərdim. Vaxtım olan kimi kuşoku atıb-tutardım. Kiçik dəri parçasını yun qarışıq dairəvi kəsər, altına qurğuşun vurardılar. Biz sağ ayağımızın iş tərəfi ilə (topuqla barmaqların arasında olan əyri hissədə) bu kuşoku atıb tutardıq. Kim çox kuşoku çiləyə bilsə, qalib olardı. Qalib olmaq xöşbəxtliyi mənə də tez-tez nəsib olardı. Hədsiz dərəcədə nadinc olduğum üçün, özümdən üç-dörd yaş böyük oğlanları basıb döyərdim. Nənəm həmişə deyərdi.

-Ay allah, bu uşaq nadinclikdə, görəsən, kimə oxşayıb?

Bütün bunların əsas səbəbi mənim ərköyün böyüməyimdə idi. Nənəmin qorxusundan bir adam mənə güldən ağır söz deyə bilməzdi. Əgər kimsə mənim qəlbimə toxunca, az qalardı nənəmin ürəyi gedə. Bir dəfə dərsin qızğın çağında şeri yaxşı əzbərləmədiyimə görə müəllimə məni vurdu. Onun məni vurmasını özümə sığışdırmadım. Hirs ilə yerimdən qalxdım, üzümü ona tutub dedim;

-Dayan, indi görərsən, gedib nənəmə deyərəm, gələr, sənin dərsini verər,- deyərək hirslə sinfi tərk elədim. Evə gəlib əl-qolla hadisəni nənəmə danışdım. Nənəm bərk hirsləndi. Əlindəki işini yarımçıq qoyub, mənimlə birgə məktəbə gəldi. Üzünü müəlliməyə tutub onu hədələdi;

-Mənə yaxşı-yaxşı bax. Mənim uşağıma güldən ağır söz deyənin başına bir oyun açaram, adı yadından çıxar. Sən boyda müəllim mənim əl boyda uşağımı vuracaq, elə bilirsən mən də durub baxacağam? Mənim uşağım hər uşağın tayı deyil, o, nənəsinin ağıllı balasıdır. Bunu yadında saxla.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bundan sonra mən lap ürəklənmişdim. Amma daha yeri gəldi gəlmədi hamını döyməzdim. Kim mənə sataşardısa, onun payını verərdim. Dərslərimi də öyrənməyə çalışardım. Axı, nənəmə söz vermişdim. Qəribədir, heç vaxt şer yadımda qalmazdı. Qiymət almaq xatirinə çox çətinliklə əzbərləyərdim, amma tez də yadımdan çıxardı. İllər keçsə də unutmadığım, yaddaşıma əbədi həkk olunmuş bir mahnı var. O mahnını bizə Pərizad müəllimə öyrətmişdi.

Bağçalar gül açır, yenə yaz gəlir,
Hər yana baxırsan xoş avaz gəlir,
Çöllərdə görünür başqa mənzərə,
Oxuyur bağlarda şur ilə bülbül.

Ola bilsin ki, mahnının sözləri kəndimizlə sıx bağlı olduğu və onu sevdiyim üçün yadımda yaxşı qalıb. Kəndimiz havası, suyu, təbiəti və insanları ilə bərabər başqa bir aləm idi. Mən sanki oğlan uşağı idim. Heç nədən qorxmazdım. Dağın lap başına qalxar, kəklikotu dərə-dərə oradan saatlarla kəndimizə baxardım. (Nənəm çay dəmləyəndə həmin kəklikotundan çaynikə atardı, çay çox ləzzətli dad verərdi. Gözəl qoxusu adamı valeh edərdi. Həm də bu otun müalicəvi əhəmiyyəti vardı. Soyuqdəymə, qrip zamanı dəmləməsi dərman kimi istifadə edilirdi) Cürbəcür quşlar ətrafımda uçar, dağda mahnı yarışına çıxmış kimi cəh-cəh vurardılar. Yayda dağdan əsən külək kəndi bürüyərək, ona sərinlik gətirərdi. Axşam olanda üşüməyək deyə, yay paltarının üstündən nazik bir şey geyinər, gecə isə nazik yorğanla yatardıq. Gündüzlər uşaqlar yığışıb dağa gedər, əllərimizə xına qoyardıq. Qayaların üstündə olan ağ mamırı ya su, ya da tüpürcəklə isladardıq. Balaca daş parçası ilə onu çoxlu-çoxlu sürtər, alınmış məhlulu dırnaqlarımıza çəkərdik. Dağdan düşüb kəhrizə gələnədək xına əlimizdə quruyardı. Kəhrizin buz kimi soyuq suyunda zarafatlaşa-zarafatlaşa əllərimizi yuyar, dırnaqlarımızın al qırmızı rənginə baxıb sevinərdik.

Tez-tez uşaqlarla yığışıb “kolxoz bağı”na gedərdik. Sovet dövründə bütün bağlar kimi bu böyük bağ da kolxoza məxsus idi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Orada həmişə atın üstündə gəzən gözətçi olardı. Bağda yetişən məhsulun bir hissəsi kolxoza qalar, digər hissəsi isə kənd camaatı arasında bərabər şəkildə bölünərdi. Hər şey xalqın ümumi malına çevrilərdi. Yadımda yaxşı qalıb, orada çoxlu bol məhsullu qoz, armud, üzüm, zoğal və alma kimi meyvə ağacları vardı. Meyvə yetişəndə hamı birlikdə məhsulu dərər və hər evə eyni bərabərdə bölərdilər. Üzümü dərdikdən sonra, onu yuyub böyük çənlərə doldurardılar. Kişilər ayaqlarını təmiz-təmiz yuyar, çəlləklərə doldurulmuş üzümü ayaqları ilə əzərdilər. Əzilmiş üzümü məxsusi parçadan keçirərək süzər, şirəsini çıxarardılar. Alınmış şirə iri mis tiyanlarda (böyük ləyən) ocaq üstə bişərdi. Şirə bişəndə ona bəhməz torpağı deyilən xüsusi torpaqdan bir az atardılar. Alınan məhsul bəhməz adlanardı. Bəhməz tünd qəhvəyi rəngdə bal kimi şirin olardı. Onu səhərlər çörəklə yeyərdik. Bəhməz bişən vaxtı uşaqlar ocağın başına yığışıb tiyanın boşalmasını gözləyərdi. Elə ki, tiyan boşaldı, başlayardıq hay-küylə tiyanin içərisini barmaqlarımızla sivirib ağzımıza qoymağa. Çox dadlı və ləzzətli olardı. Adın da qoymuşduq "tiyan dibi yalama". Hamımız bunu sevərdik.

Bəhməzi tutdan da edərdilər. Hazırlanma qaydası eyni olardı. Amma üzümdən fərqli olaraq, tutu çırpdıqdan sonra birbaşa tiyanlara töküb odun üstünə qoyar, bir az da su əlavə edərdilər. Tam qaynadıqdan sonra, onu üzərinə tənzif sərilmiş çətəndə (Nazik qarğu cubuqlar qalın sap vasitəsi ilə bir-birinə bərkidilir və aşsüzən rolunu oynayır) süzüb, təkrar qaynadardılar. Bəhməzə çox vaxt "doşab" deyərdilər. Doşab səhər yeməyindən əlavə, qara ciyər və qan azlığı xəstəliklərində əvəzsiz dərman hesab olunardı.

Kolxoz bağında həddindən artıq iri bir armud ağacı da vardı. Adına "qış armud", "daş armud" və ya "qumlu armud" da deyərdilər. Ona görə ki, bu armud bərk olar, noyabrın axırında yetişərdi. Məhsulu bütün kənd camaatına çatardı.

Bağda olan qoz ağaclarını çırpmaq təhlükəli olduğu üçün böyük məharət tələb edərdi. Gərək bacarıqlı adam bu ağaca çıxaydı. Yoxsa yıxılıb, harasınısa ya əzər, ya da qol-qılçasını (ayağını) sındırardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PS. Bilməzdim, heç ağlımın ucundan da keçirməzdim ki, bir gün gələr bu kəndə, bu mənzərəyə ömürlük həsrət qalaram. Tək mən yox, eləcə də bütün kənd əhalisi doğma elini, isti ocağını ürək yanğısı ilə arzulayacaq, onu görmək üçün həsrətdən alışıb yanacaq, ürəyi qubar bağlayacaq. Bu kəndin necə qəmli sonluğu varmış, ilahi? Övladları pərən-pərən oldu. İgid oğulları öldürüldü. Analar oğulsuz, gəlinlər ərsiz, uşaqlar atasız qaldı. Qocalar isti yay günlərində qızmar günəş altında aran torpaqlarında ilanlara yem oldu. Körpələr müxtəlif xəstəliklərdən, aclıq və səfalətdən əziyyət çəkdi, dünyasını dəyişdi.

Kim bilərdi?… Heç yatsaq yuxumuza da girməzdi… Bu gün başımıza gələnlərə and içsələr inanmazdıq. Bəli, bu mahnını oxuya-oxuya yaddaşıma köçürdüyüm kəndimizi yada salıb kövrəlirəm.

Babam həmişə at saxlayardı. Ata minmək üçün ürəyim gedərdi. Amma balaca olduğum üçün, babam mənə ata yaxın getməyə icazə verməzdi. Mən də onun gözündən yayınıb xəlvətcə atı bağladığı örüşə (heyvanların otladığı yer) gedərdim. Babam atı uzun iplə bağlayardı ki, at ot yeyəndə çox uzağa gedə bilməsin. Mən çətinliklə ipi açardım. Balaca olduğuma görə atın belinə qalxa bilmirdim. O zamanlar təqribən doqquz yaşım vardı. Atı qonşumuz Ənbər xalagilin evinin arxa tərəfinə gətirərdim. Orada böyük bir daş vardı. Həmin daşın üstünə çıxar və tullanıb ata minərdim. Bunu bilən babam həmişə məni sözlə cəzalandırardı. Onlar qorxurdu ki, mən atdan yıxılıb ya qol-qabırğamı sındıraram, ya da ölərəm. Mən isə qorxu nədir bilmədən öz bildiyimi edirdim. Amma bir dəfə babam necə qəzəbləndisə, lap hövsələdən çıxdı. Mənə möhkəm acıqlandı. Nazik çubuqla bir neçəsini ayaqlarıma vurdu. Bu həyatımda valideynlərim tərəfindən ilk cəzalanmağım idi. Oturub bir az ağladım, nənəm də mənə qoşuldu. Onda başa düşdüm ki, doğrudan da onlar mənim üçün çox narahat olur və qorxurlar.

Kəndimizdə cəmi iki böyük və iki kiçik küçə vardı. Yolları torpaq olduğundan, yağış yağanda hər tərəf palçıq olardı. Odur ki, hamı rezin qaloş və ya uzunboğaz ayaqqabı geyərdi. Tez-tez bu tozlu və palçıqlı yollardan keçib ana nənəm Həmayıl nənəm və ana babam

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbülfətgilə (Biz onu "dədə" deyə çağırardıq) gedərdim. Həmayıl nənəm istər cavanlıqda, istərsə də qocalıqda çox gözəl idi. Eyni zamanda iti yaddaşa malik idi. Uşaqlığından tutmuş ömrünün son günlərinə kimi nəyi soruşsan, sənə nöqtə-vergülünə kimi sərrast və dəqiq cavab verərdi. Biz də zarafatla 85 yaşlı nənəmizə deyərdik ki;

-Ay nənə, sənin yaddaşın kompyuterdən də güclüdü. Kompyuter yeri gələndə xarab olur, amma sənin yaddaşın maşallah, birinin də yerini yanılmır. Prezident yerini bilmir, yoxsa səni özünə müşavir götürərdi.

O da gülə-gülə;

-Gedin, özünüzü dolayın,-deyərdi.

98 yaşında dünyasını dəyişdi. Kəndimizdə olsa, bəlkə daha artıq yaşayardı. Gecə-gündüz Qarabağda talan olmuş, dağıdılmış evindən, kənd qəbristanlığında dəfn olunmuş ömür-gün yoldaşının məzarı üzərinə gedib onu ziyarət edə bilməməsindən yana-yana danışardı. O torpaqlara qayıdacağına o qədər əmin idi ki, hətta kəndə gedəndə necə nehrə çalxalayacağından, evini yenidən necə bəzəyəcəyi barədə ağızdolusu söhbət açardı. Çünki o, yer-yataq bilən, səliqə-səhmanı, təmizliyi sevən xanım idi. Ortaboylu, arıq, yaraşıqlı xanım-xatın nənəm Hüngütlü kəndinin say-seçmə kişilərindən olan Rüstəm bəyin və Kürdmahmudlu kəndinin gözəllərindən olan Tellinin qızı idi. Telli nənə rəhmətə gedəndən sonra, Rüstəm babam Gülxanım ilə evlənir, Umud və Famil adlı oğlanları olur.

Həmayıl nənəmin iki dənə uzun hörüyü həmişə arxadan kürəklərini qucaqlayardı. Asta, xoşagəlim nazlı yerişi vardı. Anam da eynən nənəm kimi nazlı-nazlı yeriyər. Həmişə milli geyimdə olardı. Büzməli uzun tuman və qollu, bir az gen kofta geyinərdi. Azca böyüyəndən sonra nənəmgilə gedəndə, tez onun uzun tumanın geyinib rəqqasələr kimi aynabənddə o başa, bu başa süzərdik. Həmayıl nənəmin altı övladı olmasına baxmayaraq, bədən quruluşu olduğu kimi qalmış, qarın çıxması və ya qarın sallanması olmamış, gözəlliyinə zərrə qədər də olsa xələl gəlməmişdi. Bunu bir ənənə kimi qızlarına da ötürmüşdü. Nənəmi Əbülfət dədəmə qardaşı Yaqub əmi almışdı. Əbülfət dədəmin xasiyyəti nə qədər sərt və ötkəm olsa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, bir o qədər də ürəyi yuxa idi. Odur ki, valideynlərini erkən itirmiş hər iki qaynını (nənəmin qardaşları) öz yanına gətirmiş, o ağır günlərdə onlara həyan olmuşdur.

Əbülfət dədəm çox əsəbləşəndə söyüş də söyərdi. Buna baxmayaraq, açıq fikirli adam idi. Nənəmi də çox sevərmiş, amma qısqanmazmış. Çünkı nənəm buna şərait yaratmazdı. O, abır-həyalı, utancaq, üzüyola, sakit, namuslu xanım idi. Bir dəfə nənəm xırmana (taxılın zəmilərdən yığılıb toplandığı yer) gedəndə babamı bir qadınla qucaqlaşan görür. Utandığından üzünü tutub qaçır, dədəmə də o barədə bir kəlmə də demir. O deyir;

-Qadın gərək səbrli ola. Əri bağışlamağı bacara. Bilirdim ki, məni çox istəyir. Hay-küy salsa idim, gərək dava edəydik. Söz-söhbət olan evdə heç vaxt xeyir-bərəkət olmaz.

Bu sözləri çox illər sonra dədəmə deyəndə qızardı, gülə-gülə dedi;

-A bala, ona görə nənəni çox istəyirəm də, indiyə qədər də mənim arvadım (ömür-gün yoldaşım) elə o olub.

Nənəm dədəmdən də bərk qızardı, üzünü mənə tutub;

-Az (ay qız), sa (sənə) demədim ha, açıb-ağardasan. Üzünün suyu tökülsün. Day, o söhbət keçmişdə qalıb.

Nənəm dədəmin onu necə sevməsindən mənə həvəslə danışardı.

-Gülən, (məni belə çağırardı) bala, dədən harda yaxşı şey var, alıb ma (mənə) gətirərdi. Al məxmərdən (o zamanlar ən bahalı parça hesab edilərdi) paltar geyinər, başıma qızılı kəlağayı (baş örtüyü) örtər, bütün daş-qaşlarımı taxardım. At belində qırx atlı kişi ilə dağa, yaylağa səfər edərdik. Gözəl günlər keçirərdik. Dədən Musabəyli kəndində sovet sədri işləyirdi. Dolanışığımız yaxşı idi. 1941-ci ildə almanlar müharibəyə başlayanda qara günlərimiz başlandı. Dədən cəbhəyə yola düşdü. “Kiçik torpaq” və Mazdok ətrafındakı ağır döyüşlərdə iki dəfə yaralandı. Axırda da bədənin də qəlpələr geri döndü. O vaxtlar qardaşım Umuda da çağırış vərəqəsi gəldi. Yazığın müharibəyə gedəndə on səkkiz yaşı təzə tamam olmuşdu. “Can bacı”,- deyə-deyə getdi. Cəbhədən yalnız iki məktubu, üç aydan sonra isə “qara kağız”ı, yəni ölüm xəbəri gəldi. Bu məni çox sarsıtdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma həyat çox qəribədir. İnsan hər cür acılara sinə gərərək, həyatını qurur. (Nənəm də son nəfəsində “Umud”- deyə-deyə canını tapşırıb) Gözümüz yaşlı qaldı. Atam-anam rəhmətə getdiyi üçün balaca qardaşım Famili də bizdə qalırdı. Familin beş-altı yaşı vardı. Dörd qız uşağı, bir də Famil bir dam altında yarıac, yarıtox güclə dolanırdıq. (Kamil dayım 1944-cü ildə, dədəm müharibədən qayıtdıqdan sonra doğulub) Ağır günlər idi. Hamı da bizim kimi ömür sürürdü. Bəzən çörək əvəzinə insanlar heyvanlara verdiyimiz jımığı yeyirdi. Camaat yeməyə çörək tapmırdı. Bəzən çörək əvəzinə insanlar heyvanlara verdiyimiz jımığı yeyirdi. Darı, çovdar unundan istifadə edərdik. O da bərk olardı deyə, isladıb yeyərdik. Ac qalmamaq üçün bir ovuc qızıla bir torba buğda alırdıq. Nəyim vardısa, o dövrdə hamısını satıb çörəyə verdik. Yun, taxıl, bəzi ərzaqlar, neft cəhbəyə göndərilirdi. Əsgərlərə corab, əlcək, şinel toxumaq üçün hər evə norma qoyurdular. Kim o qədər yunu verməsə, bıçaqla yorğan-döşəyin üzünü cırır, içindəki yunu aparırdılar. Evdə olan yorğan-döşəyin içi qırıq və köhnə yundan, köhnə pambıqdan ibarət idi. Bəzi adamların yatmağa döşəyi də qalmamışdı. Olmazın əziyyətlərə qatlaşdıq. Dədən müharibədən qayıtdıqdan sonra, etimad göstərib kolxoz sədri qoydular. Tədricən özümüzə gəlməyə başlamışdıq. Amma fələk yenə də bizi sınağa çəkdi. Evimiz çayın qırağında olduğundan bu dəfə güclü sel nəyimiz vardısa, hamısını yuyub apardı. Yaxşı ki, qohumlarımız köməyimizə çatdı. Sonra yavaş-yavaş indi içərisində oturduğumuz bu evi tikdik, təsərrüfatımızı genişləndirdik, özümüzə hər cürə şərait yaratdıq, uşaqlarımızı böyütdük.

Biz hərdən nənəmi cırnadardıq;

-Ay nənə, yalan danışma. O vaxtdan qızılın qalmamış olmaz. Sandığı aç görək, künc-bucağında nəyin var? Biclik eləmə.

O da and-aman edərdi;

-Bala, allaha and olsun, Kamılın (oğlunu belə çağırardı) canı heç nə qalmayıb.

Nənəmgilin evləri axar-baxarlı bir yerdə, dağın döşündə, Cəbrayıl və Ağbulaq (Ermənilər onun adını dəyişib, Hadrut

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoymuşdu) rayonuna gedən yolun üstündə, mənzərəli bir yerdə idi. Həyətin tən ortasında kənarları yarpızla (gözəl qoxulu bitki idi) dolu balaca bir arx vardı. Suyu kəhrizdən gəlirdi. Kəhrizə yaxın olduqları üçün arxdan daima su axardı. Kəndin onlardan aşağıda yaşayan beş-altı ailəsi bu su ilə bağ-bostanın suvarardı. Arxın bir kənarında çörək bişirmək məqsədilə təndir qoyulmuşdu. Digər tərəfində isə heyvanlar üçün tövlə və axur tikilmişdi. Onların eşşəyi, inəyi, qoyun-quzusu, Alabaş adlı zorba itləri vardı. Hər cür meyvə ağacları olan bağları və bostanları da bir ayrı aləm idi. Övladları böyüyüb ailə qurduqları üçün evi tərk etdiklərindən, bütün bunların öhdəsindən yalnız ikisi gələrdi. Amma bir dəfə də olsun işin çoxluğundan şikayətlənməzdilər. Səhərdən axşama kimi böyük həvəs və zövqlə fasilə uyğun planlı şəkildə işlərini tamamlayardılar. Gülüş və Zümrüd xalam kənddə yaşadıqları üçün nənəmgilə hamıdan yaxın idi. Bir şey lazım olan kimi onlar özləri və övladları nənəmgilə köməyə gələrdilər.

Müharibə iştirakçısı olduğu üçün dövlət dədəmə “Zaporojye” markalı maşın bağışlamışdı. Zümrüd xalamın oğlu Əyyub və Vaqif də ona sürücülük edərdi. Yəni bir yerə getmək istəyəndə axşamdan onlara xəbər yollayardı ki, bəs səhər məni filan yerə apar. Kənd yerində bütün işləri eşşək və at arabası ilə gördüklərindən maşına tələbat az olardı. Təsadüfi hallarda, o da şəhərə və ya başqa kəndə toy, ya da yas mərasimlərinə getmək üçün maşından istifadə edərdilər.

Kəndimiz işğal olunmamışdan üç ay əvvəl jurnalist dostum Əntiqə Qonaq ilə cəbhə bölgələrinə səfərim zamanı yolüstü nənəmgilə döndük. Rəfiqəm gözlərinə inanmadı. Daşdan tikilmiş, təmirli ikimərtəbəli ev, geniş həyət səliqəsi və təmizliyi ilə onu heyran eləmişdi. Elə hey deyirdi;

-Ay qız, Gülbəniz, səksən yaşlı bir qoca qadın bütün bunların öhdəsindən təkbaşına necə gəlir?

Yadımdadır, bir dəfə orta məktəbdə oxuduğum illərdə onlara getmişdim. Nənəm mənə dedi;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Nənə qurban sənə, səhər gəl mənə kömək elə, xalçamız çirklənib onu yuyum.

Mən də bir az yekə-yekə dedim;

-Ay nənə, bir xalça nədi? Özüm təkcə aparıb Böyük kəhrizdə yuyaram.

Kəndimizdə iki kəhriz vardı. Bala kəhriz və Böyük kəhriz. Hərəsi kəndin bir tərəfində idi. Hər iki kəhrizin suyu dağlardan süzülüb gəlirdi. O suyu daha süzməyə ehtiyac yox idi. Qış aylarında kənkanlar (quyu təmizləyənlər) suyun axarı boyu gedər, kəhrizin axarını bütün daş və çınqıllardan təmizləyərdilər. Onlar orada işləyərkən içərini işıqlandırmaq üçün mumdan istifadə edərdilər. Mum da kəhrizin suyuna qarışıb axardı. Biz isə onu tutub saqqız kimi çeynəyərdik. Bala kəhriz kiçik mağaraya bənzəyirdi. Yolu çayın içindən keçirdi. Çaydan sel gələndə ora getmək olmurdu. Bir tərəfinə iri və uzunsov sal daş qoyulmuşdu. Burada gəbə-palaz yumaq olmurdu. Böyük kəhrizi elə düzəltmişdilər ki, suyun gəlib töküldüyü yer ikiyə bölünürdü. Birinin bir tərəfi çay daşlarından üç-dörd metr hündürlükdə, digər tərəfi isə yarım metr hündürlükdə hörülmüş divarların ortasında kanal formasında idi. Kanala su növdan (İri daş parçasından yonulub düzəlmişdi) tökülərdi. Suyu qaynatmamış içərdik. Buz kimi soyuq və tərkibi təmiz olardı. Soyuqdan dişlərimiz qamaşardı. Su o qədər keyfiyyətli idi ki, kənd adamlarının böyrəklərində daş deyilən şey olmazdı. Yeməyi yeyəndən sonra bir stəkan su içərdik, mədə-bağırsaqda köp nə olan şeydi bilməzdik. Ona görə də kənd adamlarının canı sap-sağlam olardı. Kəhrizin ikinci qolundan su çıxan yerin hər iki tərəfi eni bir metrhündürlüyü isə iki metr olan hissəsi sığallı sal çay daşından məharətli usta tərəfindən döşənmişdi. Qız-gəlinlər orada palaz, xalça, kilim, paltar, qab-qacaq və yun yuyardı. Mən də xalçanı daşın üstünə sərdim. Hamı kimi çoxlu su töküb islatdım. Sabunladıqdan sonra çaydan qapağının kənarı ilə qaşımağa başladım. Canı dildən yudum. Mənə elə gəlirdi ki, təmiz iş görmüşəm. Amma təmizkar nənəmi razı salmaq elə də asan deyildi. O bunu üzümə vurmadı. Qəlbimi qırar deyə mənə bir başa deməsə də, mimikasından başa düşdüm ki, gördüyüm işdən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xoşu gəlməyib. Əgər xoşu gəlsə idi, mütləq tərifləyərdi. Tərifləmədisə, deməli atalar demişkən;

-Bu xına, o xınadan deyildi.

Mən də ki, inanın çox narahat olmuşdum. Axı, həqiqətən nənəmə kömək etmək istəsəm də bacara bilməmişdim.

Kənddə məni ən çox məmnun edən atamın kəndə bizi tez-tez ziyarətə gəlməsi olardı. O, qarşısına çıxan hər bir adamla mehribancasına görüşər, hal-əhval tutardı. Hamının xeyir-şərində iştirak edərdi. Qazancını hamı ilə bölərdi. Bacardığı qədər qardaş və bacılarına, dostlarına kömək etməyi, imkansız qohumlara əl uzatmağı həvəslə edərdi. Çox xeyirxah, gülərüz, mehriban, əliaçıq, üstünə gələni əlidolu yola salmağa çalışan adam idi. Etdiyini də heç kimin yanında deməzdi ki, mən filankəsə bunu eləmişəm. Heç vaxt bir kimsəni incitməzdi. Kim məni görürdüsə,

-Ay balaca, sən Arifin qızısan?- deyə soruşardılar.

Deyilənə görə, mən atama çox bənzəyirdim. Elə xasiyyətim də bir az ona oxşayır. Ürəyi yumşaq, əliaçığam. Üç yaşım olanda atam zabit olmaq üçün Estoniyada hərbi təhsil alırdı. Oradan mənə hərbi geyimdə şəklini göndərmişdi. İndiyə kimi həmin şəkil məndədir. Atamla fəxr edərdim. O, məni çox sevərdi. Sərbəstliyimi, nadincliyimi bəyənərdi;

-Kişi balamdı,- deyirdi.

Məlum məsələdir ki, mən də çox sevinərdim. Fərəhdən köksüm qalxıb enərdi. Kəndə gələndə yanından çəkilməz, saatlarla dizinin üstündə oturub, saçların dağıdardım. Uçmağa qanadım olmazdı. Atam həmişə mənə pul verərdi və deyərdi;

-Get, ürəyin nə istəyir al.

Mən də tez kənd yolunun qırağında olan qarışıq mallar mağazasına qaçardım. Oradan özümə nə istəsəm alardım.

Atam kolxozda mühasib işləməklə yanaşı, eyni zamanda İqtisadiyyat Universitetində qiyabi təhsil alırmış. Başı oxumağa, işləməyə qarışdığı üçün evlənmək heç yadına da düşmürmüş. Bakıda oxuduğu illərdə kirayədə qaldığı evin sahibəsi tatar qızı Asya xala ilə daim əlaqə saxlayardı. Rayondan ona məxsusi ərzaq payı aparardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atam sədaqətli insan idi. Ona iynənin ucu qədər yaxşılıq edən adamı heç vaxt unutmaz, həmişə onun hörmətini saxlamağa çalışardı. İlk dəfə Bakıya gələndə bizi də Asya xala ilə tanış etdi.

-Bax, sizə dediyim Asya xala budur. Mənim Bakıdakı anam.

Asya xala atamı qucaqlayıb öpdü və mənə dedi;

-Allaha and olsun, mən atanı öz balalarımdan seçmirdim. Onu çox istəyirdim. Atan cavanlıqda gözəl və utancaq oğlan idi. Elə indi də gözəldi, hələ qocalmayıb. Amma o zaman subay idi. Qonşuda nə qədər subay qız vardı mənə deyərdilər;

-Asya xala, sən allah Arifə de, bizimlə kinoya, bulvara (Dənizkənarı park) getsin. Bəlkə xoşuna gəldik, bizi bəyəndi. O isə bütün günü dərslərini oxuyar, boş vaxtlarında isə yaxşı tar çalardı. Axı, o, Qarabağda, Azərbaycanın musiqi beşiyində doğulub. Bilmirəm, havasından, yoxsa suyundan irəli gəlir, qarabağlıların hamısı bir az musiqiçi olurlar. Arif də elə. Qızlara heç fikir verməzdi, utanardı.

Elə buna görə Zərif nənəm də daim narahat idi ki, birdən bu uşaq ailə qurmaz. Odur ki,

-Ay oğul, bir evlənsənə. Mən də arxayın olum,-deyə atamı rahat buraxmazdı. Atam isə;

-Ay nənə, qaçhaqaç deyil ki? Bir də ki, mən evlənən deyiləm.

Bunu eşidən nənəm tənbəllik eləmir. Özü atama qız gözaltı edir. Anamgilin tərbiyəli olduğunu yaxşı bildiyindən Əbülfət dədəmə sözarası elçi düşür. Həmin dövrdə anamın üç bacısı artıq ailə qurmuşdu. Anaları yenicə tibbi əməliyyat olunduğu üçün anam ona qulluq edirmiş. Odur ki, Əbülfət dədəm deyir;

-Ay Zərif, Qızqayıtın cəmisi on altı yaşı var. Onun ərə gedən vaxtı deyil. Bir də Həmayıl xəstədir. Qız ona qulluq edir. (Anam evdə doğulmuş dördüncü qız övladı olduğu üçün, adını Bəsti qoyublar. Amma hamı “Qızqayıt”- deyə çağırarmış. Yəni qızların doğulduğu daha bəsdir, - deyiblər)

Nənəm bu sözdən bərk əsəbləşir. Onun sözünün qabağında heç kim söz deməzdi. Əbülfət isə “yox” dedi. Oğlu Hidayəti çağırıb deyir;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Hidayət, səhər gedib Əbülfətin qızı Qızqayıtı Arifə qaçırdarsınız.

Əmim deyir;

-Ay nənə, birdən Arif razı olmaz, biabır olarıq.

-Ədə, Arif özünə gülür. Onu mən gətirirəm. Hünəri də var, bir sözümü iki eləsin.

Hidayət əmim atamdan yaşca kiçik idi. Amma institutda oxuduğu vaxt Qarabağın dilbər guşəsi Şuşa şəhərindən olan Tamaşa adlı bir qızı sevmiş, atam isə onlara yaxşı toy eləmiş, sonra da təhsillərini davam etdirmələrinə yardımçı olmuşdu. Əmim öz arvadı Tamaşa və anamın bacısı Gülüş ilə birlikdə anama kələk qururlar. Onu kəhrizə su gətirməyə gedəndə qonşuluqda yaşayan böyük bacısı Gülüşün (Gülüş xalamın əri Dünyamalı müəllim həm Zərif nənəmin, həm də Lalazər babamın qohumu idi) evinə çağırırlar. Bacısı evinə gedən anam heç nədən şübhələnmir. Əvəzində isə onu maşına qoyub qaçırdırlar. Qarabağda hərdən qızqaçırmalar olurdu. Burada bir oğlan bir qızı sevdikdə valideynlərin razılığı olmadıqda, onlar könüllü bir-birinə qoşulub qaçar, ailə qurardılar. Bibim Alagöz də həyat yoldaşı Hüseyn əmi ilə bir-birini sevmişdir. Amma sonradan ailələri razı olmadığı üçün Hüseyn əmi də onu qaşırmış, sonra əl-ələ verib müstəqil və xoşbəxt bir yuva qurmuşdular. Anamın qaçırılması isə bir qədər fərqli hal idi. Atam ilə anamın arasında on iki yaş fərq vardı. Həm də atam anamı heç yaxşı tanımırdı . Axşam işdən evə gələn atam ona gəlin gətirildiyini biləndə;

-Mən sizə demişdim ki, mənə qız gətirin? Aparın camaatın qızın evinə qoyun.

Amma nənəm atamın sözün ağzında qoyur.

-Ədə, səsini kəs. Onu sənə mən almışam.

Beləliklə, atam nənəmin sözündən çıxmır və evlənir. Anamın çox üzüyola, dinməz, sakit təbiətli olması uzunömrlü bir ailənin təməlini qoyur. Nənəm abort etdirməyə icazə verməzmiş. Bunu həm günah, həm də atamın yetim olması ilə əlaqələndirərmiş. Odur ki, onların yeddi övladı dünyaya gəlir. İlk övladları Aybəniz, sonra mən, daha sonra Sevil, Azər, Adil, Sevinc və Abil doğulur. Onlar Horadiz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qəsəbəsində yaşayırdılar. Atam işdən yorğun gələndə mütləq tarı sinəsinə basar, yanıqlı Segah muğamı çalardı. Həmin tarı Xurşud mamamın əri İsmayıl əmi atama hədiyyə eləmişdi. Atam da tarı onun oğlu Qaməddin musiqi savadı alanda ona hədiyyə elədi və dedi;

-O yaxşı xanəndə olacaq, qoy atasından mənə qalan hədiyyə, məndən də ona yadigar qalsın.

Amma təəssüflər olsun ki, erməni işğalı zamanı həmin tar da əsirlikdə qaldı.

Bundan başqa atam gözəl şahmat oynayardı. Bazar və bayram günlərində isə xüsusi həvəslə zehni yorğunluğunu aradan götürmək üçün balıq tutmağa gedərdi. Yadımdadır, bir dəfə mənə də kiçik qarmaq düzəldib özü ilə balıq tutmağa aparmışdı. Təbiət qoynunda olmaq xobbisi idi. Eyni zamanda ağaclara qulluq edər, onların dibini belləyər, su verər, bostan becərərdi.

Ailə böyük olduğu üçün anamın işi də çox olardı. O, bütün günü ev işləri ilə məşğul olardı. Atam səhər evdən çıxar, bir də gecə qayıdardı. Odur ki, bazar-dükana getmək, xeyir-şər məclislərində iştirak etmək və ailənin bütün təmizlik işlərini aparmaq anamın üzərinə düşmüşdü. Bir dəqiqə dincəlməzdi. İkiotaqlı evləri, böyük həyətləri, həyətdə çoxlu meyvə ağacları vardı. Mən onlara gec-gec gedərdim. Əvəzində isə atam məni tez-tez görmək üçün kəndə gələrdi. Hər bayram günləri bizi mütləq ziyarət edərdi. Xüsusilə də Bahar bayramında.

Bahar bayramı

Hər bir xalqın özünəməxsus dəyər verdiyi müqəddəs bayramları olduğu kimi, minilliklərin yaddaşından süzülüb gələn və bu günə kimi Azərbaycan xalqının yaşatdığı ulu əcdadlarımızın yadigarı “Novruz bayramı” adlanan Bahar bayramı mövcuddur. Zəngin milli dəyərləri özündə əks etdirən bu bayram şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə ilə gündüzün bərabərləşdiyi gündə, şərq təqvimi ilə yeni ilin gəldiyi gün kimi qeyd olunur.

Novruz (hərifi mənası “yeni gün”)- həmişə gözlərin görmək istədiyi gözəllik, ruhun duymaq istədiyi rahatlıq, təbiətin oxuduğu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəğmədir. Novruz - insanın özünü dərk etməsi, ana torpaqdan güc alması, göylərə ucalmasıdır. Novruz bayramı xalqın həyata nikbinliklə baxmasının, təbiətin qələbəsilə sevinməsinin bayramıdır. Təqvim üzrə fevral ayının son günləri zoğal ağacları sapsarı çiçək açmağa başlardı. Bahar bayramına qədər beş həftənin hər ikinci günü, yəni çərşəmbə axşamı iri tonqallar yandırardıq. İlk çərşəmbə yalançı, qalanları doğruçu adlanırdı. Yalançı çərşəmbə elə bir əlaməti ilə seçilmirdi. Sadəcə tonqal qalanardı. Əsil çərşəmbə dörd dənə olur. Onun birinci Od çərşəmbəsi günəşin yerə istilik, od, hərarət gətirməsi, ikinci Su çərşəmbəsi təmizlik, saflıq, həyat çeşməsi, üçüncü Yel çərşəmbəsi küləyin nəfəsi ilə pisliklərdən qurtulmaq, yelin gətirdiyi yeni həyata başlamaq, dördüncü və ya Axır çərşəmbə Torpaq çərşəmbəsi yerin, torpağın oyanması, ağacların, bitkilərin cücərməsi mənasını verirdi. Birinci çərşəmbədən sonra buğdanın iriləri seçilər, yuyulub təmizlənər, isladılar, sonra nazik boşqabın üzərinə tənzif çəkilər, buğdalar səliqə ilə onun üstünə düzülər və su əlavə edilər, səməni hazırlanardı. Novruz bayramına kimi səməniyə qulluq edə-edə böyüdərdilər. Uşaqlar da bayram günü oxuyardı;

Səməni, ay səməni,
İldə göyərdərəm səni.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
İşıq ver, yaraşıq ver.
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin.

Mart ayı olsa da dağların başında qar hələ də qalardı. Gün az düşən yerlərdə qar əriməzdi. Qarın altından ilk olaraq novruzgülləri baş qaldırar, çiriş deyilən bitki boylanardı. Çirişi dərib təmizləyər, suyu çəkildikdən sonra doğrayar, üzərinə qurudulmuş zoğal turşusu və ya lavaşa, pörtlədilmiş düyü, xırda doğranmış soğan, duz, istiot vurub yayılmış xəmirin arasına qoyar, sacda qutab (Biz kətə deyərik) bişirər, arasına yağ parçaları qoyar, sonra da qatıqla yeyərdik. Artıq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəzi ağaclar, güllər çiçək açardı. Evlərin damına qonmuş qaranquş baharın gəlişini xəbər verərdi. Boynubükük bənövşələr kol dibindən ətrafa xoş rahiyələrini yayardı.

Kəndimizin yazı, sanki cənnəti xatırladardı. Hər tərəf yamyaşıl olardı. Rəngbərəng güllər göz oxşayardı. Yamacların, düzlərin, çəmənlərin bir tərəfinə sarı çiçəklərdən, bir tərəfinə göy və bənövşəyi güllərdən, digər tərəfinə isə elə bil alqırmızı lalələrdən xalı döşənərdi. Yazda dağların başındakı qarlar tədricən əriyər, daşların arasından süzülərək axan bulaqlara qovuşardı. Həmin su göz yaşı kimi şəffaf və buz kimi soyuq olardı. Qaryağdı dağında kəklikotu qayaların arasından göyərərdi. Kol şəklində olan bu bitkinin xırda çiçəkləri olmasına baxmayaraq, xoş ətri meh vasitəsilə bütün kəndə yayılar, başqa güllərin qoxusu ilə qarışar, adamın ruhunu təzələrdi.

**RS. Kaş əsirlikdə qalan, bizim üçün qəribsəyən kəndimin o günlərini yenidən görə biləydim**.

Hər il, Axır çərşəmbədə mütləq qarın üstündə öz gözəlliyi ilə adamın gözünü oxşayan novruzgülü, ağacların, kolların dibində boynunu bükən zərif bənövşələri dərib dəstə bağlayar, evə gətirər, içərisinə su tökülmüş ctəkana qoyardıq. Hər iki gülün gözəl qoxusu bir-birinə qovuşaraq, bütün evə yayılardı. Budağından qırılmış sarı rəngli incə zoğal çiçəyi, novruzgülü və tünd göy rəngli bənövşədən çələng toxuyardıq.

Kəndimiz bahar bayramını xüsusi təmtəraq və adətlərlə qeyd edərdi. Hamı bayrama bir həftə qalmış təpədən-dırnağacan təmizlik işlərinə başlardı. Kişilər evlərin divarlarını boyayar, qız-gəlinlər xalça-palazı yuyar, yorğan-döşəyi havaya atar, tozunu çırpar, samovarı sürtüb parıldadar, mis qab-qazanları qalaylatdırar, uşaqlara bayram torbaları tikər, evə lazımi bazarlıq edilər, hamıya təzə paltar alınardı. Ailə üzvləri birlikdə bağ-bağatda səliqə-səhman işləri görər, ağacların qol-budağı budanar (kəsilər), həyət-bacadakı artıq çır-çırpı yandırılar, yeni ağaclar əkilərdi.

Bayram günü nənəm məni sübh tezdən yuxudan oyadardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Dur ayağa, nənə qurban! Hamı gedib su başına. Onlar su üstündən tullandı, təkcə sən qaldın. Camaatın xəstəliyi, ağırlığı üstünə töküləcək,-deyərdi.

Adət idi. Novruz bayramının ilk günü hamı sübh tezdən durar, kəhrizə gedər, axar su üstündən üç dəfə tullanar və bu sözləri deyərdi;

-Bütün dərd-kədərim yox olsun! Nə xəstəliyim, pis günüm var, qoy bu axar su yuyub aparsın. Qarşıdan gələn illərdə canım sağlam olsun! Dərd-bəla məndən uzaq düşsün, - dedikdən sonra, əl-üzümüzü yuyar və bir qab su doldurub evə dönərdik.

Buna "çiləni tökmək" deyərdilər. Mart ayı kəndimizdə havalar çox soyuq olardı. Mən də üşüyərdim, yatmağı sevərdim, yerimdən heç durmaq belə istəməzdim. Amma adət-ənənəyə görə böyüklərin sözü biz kiçiklər üçün qanun idi. Onların bir sözünü iki etməyə mənəvi haqqımız yox idi. Odur ki, öyüd-nəsihətlərə diqqətlə qulaq asar və əməl etməyə çalışardıq. Amerikalılar yeniyetmə yaşlarında öz övladlarına məsləhət verməyi və nəsihət etməyi əhəmiyyətsiz hesab edirlər. Fikirləşirlər ki, o yaşda uşaqlara nəzarət etmək düzgün olmaz. Onlardan fərqli olaraq, biz azərilərdə tam əksinədir. Məhz, bu yaşda böyüklər bizə çox şeyləri başa salıb öyrədir. Onlar deyirdilər;

-Böyüklərə hörmət elə ki, sən də qocalanda sənə hörmət etsinlər. Siz artıq böyümüsünüz. Səhər hərəniz bir ev olacaqsınız. Odur ki, böyük-kiçiyin yerini bilməlisiniz. Özünüzü təmiz saxlamalı, hərəkətlərinizə nəzarət etməli, hamıya hörmətlə yanaşmalısınız. İnsanı Allah ağıllı və mükəmməl yaradıb. Adama gözəlliyinə görə yox, ağlına, qabiliyyətinə, mərifətinə görə qiymət verirlər.

O mənada biz də böyüklərin məsləhətinə qulaq asmağa çalışar, adət-ənənyə uyğun hərəkət edərdik. Odur ki, mən də yuxudan durar və bulaq başına gedərdim. Əl-üzümü yuyar, su üzərindən üç dəfə atlanıb, balaca səhəngimlə (su qabı) təzə su götürüb evə gələrdim.

Sübh tezdən bayramın ilk atributu yumurtaların boyadılmasına başlanardı. Onun üçün yuyulmuş yumurtalar (Bəzən yumurtanın üstünə isti suya salınıb çıxarılmış yonca və ya keşniş yarpağı qoyular, səliqə ilə kapron corabın içərisinə yerləşdirilər, burulub

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sapla bağlanardı. Yumurtalar bişib hazır olanda həmin yarpağın yeri ağappaq gülə oxşayırdı. Bu da çox gözəl görünürdü) qazana qoyulardı. Üzərinə tünd sarı olsun deyə soğan qabığı və ya qırmızı rəng verən otlardan, sınmasın deyə bir az da duz əlavə edilər, od üzərində qaynayar, yumurtalar həm bişər, həm də istədiyin rəngə boyanardı.

Sonra həyətdə üç iri daş üzərində saclar ocaq üstə qoyulardı. Sac 3 mm qalınlığında çuğundan hazırlanardı. Üstündə xəmirdən hazırlanmış yuxa, fəsəli, kətə bişirərdilər. İçərisində isə bayramlarda qovurqa, başqa vaxtlarda isə ət qovurardılar. Hamı kimi nənəm də sac asardı. Mən sacın altına odun qoyar, nənəm də axşamdan yumşaq olsun deyə ya suda, ya da süddə isladılmış noxudu, təmizlənmiş buğdanı və sonda buğdaya qatmaq üçün bir ovuc çətənəni də qovurardı. Bizlərdə buna qovurqa deyərdilər. Qovurqa həddindən artıq dadlı olardı. İstəkdən asılı olaraq hər kəs öz zövqünə görə qovurqaya qoz ləpəsi, ya da kişmiş qatardı. Biz də nahar vaxtınadək o qədər qovurqa yeyərdik ki, naharda xörək yeyə bilməzdik. Çox vaxt buğdadan qovrulmuş qovurqanı kirkirada çəkərdilər. Kirkira buğdanı üyütmək üçün alətdi. O, cilalanmış iki iri yumru daş parçasından ibarət olurdu. Alt qatın ortasına bərkidilmiş ağac olardı. Üst qatın ortasındakı deşik həmin ağaca keçirilir və üst qatın əllə hərəkətini asanlaşdırmaq üçün daşın bir tərəfinə bərkidilmiş ağacdan tutqac kimi istifadə edilirdi. Həmin deşiyə ovucun içi ilə az-az qovurqa tökülür, saat əqrəbi istiqamətində fırladılırdı. Qovrulmuş buğda un halına gətirilirdi. Ona qovut deyilirdi. Qovutu ağzımıza alar, "Püstə püf" deyərdik. Qovut ağzımızdan ya havaya uçar, ya da bizi boğaraq öskürdərdi. Kənardan müşahidə edənlər də baxıb gülərdi. Əslində qovuda ya bəhməz (doşab), ya da şirin su qatıb yeyərdik. Əsasən də ağzında dişi olmayan qocalar qovutu məhz bu cür edib yeyərdi.

Nahar vaxtı təzə paltarların geyinmiş uşaqlar və cavanlar Kolxoz bağına gedərdi. Oradakı iri armud ağacından böyük bir yelləncək asılardı. Cavanlar və uşaqlar burada yellənərdi. Zarafat, deyib-gülmək, şənlənmək başlardı. Adətə görə yelləncəkdə cavanlar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

növbə ilə yellənər, yerdə qalanlar əllərində nazik zoğal ağacının budağı ilə onun ayağına möhkəm vurar;

-Nişanlının adını söylə,- deyə ucadan soruşardılar. Oğlan və qızlar o dövrdə istəməzdilər ki, onun sevdiyinin kim olduğunu bütün kənd bilsin. Bəziləri çox utancaq olar, nə qədər döyülsə də sevdiyi qızın adını dilə gətirməzdi. Bu azərilərin özünəməxsus utancaqlığının əlaməti idi. İradəsi zəif olanlar isə bir çubuq dəyən kimi ağriya dözməyib sevdiyi qızın adını söyləyərdi. Bu həm ayıb, həm də şərəf məsələsi hesab edilərdi. Əgər kənd bilsə ki, filankəsin oğlu filankəsin qızını sevir, sonda həmin qıza qovuşmasa özünü alçalmış sayardı. Kəndimizdə cavanlar bir-birini sevər, evdə yaxınlarına deyər, elçi gedib qızın "hə"si alınar, sonra hamı bilərdi. Odur ki, bir zoğal çubuğunun zərbəsinə dözməyib sevdiyi qızın adını söyləyən oğlan zəif iradəli sayılardı. Güclü iradəyə malik, özünə güvənən, sevdiyi qız tərəfindən sevilən oğlanlar da sevgililərinin adını ürəklə açıqlayardı. İnanırdı ki, mütləq həmin qızla evlənəcək.

Balaca uşaqlar, adətən dörd-on yaş arasında olanlar təzə paltarların geyinib gündüz saatlarında əvvəldən məxsusi bayram üçün qırmızı parçadan tikilmiş yığcam torbaları boyunlarına asar, qohum-qonşunun evinə bayram payı almağa gedər və bayramlaşardı. Yəni;

-Bayramınız mübarək!- deyərdilər.

Ev sahibi də əvvəlcədən aldığı konfet, peçeniya, qoz, fındıq, qovurqa, xurma, tut qurusu, innab, iydə, evdə bişmiş şirin kökələr və ən əsası qırmızı boyanmış yumurtadan torbaya yığar, qapıya gələni əliboş geri qaytarmazdı. Bu günah sayılardı. Hamı deyərdi;

-Allahın bizlərə bəxş etdiyi ruzi-bərəkəti onun bəndələri ilə bölüşmək savabdır. Allah böyükdür. O hər şeyi görəndir. Sən bu gün bir edərsən, allah sənə əvəzini min verər. Hamıya əl tut ki, sənə də əl tutsunlar. Qapını insanların üzünə bağlayarsan, allah da sənin üzünə qapıları bağlayar, sənin işlərin düz gətirməz. Gərək nə qədər gücün, imkanın var, bir o qədər başqalarına kömək edəsən. Xüsusən də yetim və kimsəsizlərə, qocalara yardım əli uzatmaq vacibdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu müddətdə xanımlar evlərində bayram qazanların asardı. Bayram günü mütləq qazmaqlı aş (plov) dəmlənərdi. Bu bayram adətlərinin çoxu şükür ki, indi də qalmaqdadır. Nənəm qazana su tökər, qaynayanda duz və yuyulmuş düyünü əlavə edərdi. Düyü bir az bişəndə aşsüzəndə süzər, qazana yağ töküb dağ edərdi. Ayrıca qabda açılmış beş-altı yumurtaya iki xörək qaşığı düyü, azca duz, bir xörək qaşığı qatıq qarışdırıb qazana tökər, sonra düyü və üzərinə qabda qaynar su ilə isladılmış zəfəran əlavə edər və bir saat dəmdə saxlardı. Aşa yağlı qoyun ətindən qovurma (qara) bişirilərdi. Aş dəm alana qədər nənəm də digər xanımlar kimi süfrə açardı. Süfrənin üzərinə ilk olaraq yenidən doğuluşun rəmzi yumurta və ortasına qırmızı lent bağlanmış səməni (cücərmiş buğda), işıq, nur rəmzi şamlar, saflıq və təmizliyin rəmzi su, sağlamlığın rəmzi sarımcaq, baharın rəmzi səbzi (göyərti), anaya, soy kökünə bağlılığın rəmzi süd, var-dövlət rəmzi qızıl sikkə (pul) qoyulardı. Sonda süfrəyə bolluq və bərəkət rəmzi olan içərisinə hər cür naz-nemət qoyulan xonça yerləşdirilərdı. Bağdan dərdiyimiz güllər stolun üzərini bəzəyərdi.

Oğlanlar gündüzdən başlayaraq, gecə yatana kimi yumurta döyüşdürərdi. Oyunun qaydasına görə bişmiş yumurta götürülərdi. Bəzən onu çiy yumurta da əvəzlərdi. İki nəfər əlində tutduğu yumurtanı xəfifcə bir-birinə vurardı. Kimin yumurtası sındısa, uduzmuş oğlan sınan yumurtanı qalibə verərdi. O da həmin yumurtanı ya yeyər, ya da evə aparardı. Bayram günü oğlanlar o qədər bişmiş yumurta yeyərdilər ki, axşam yemək yeməzdılər. Odur ki, bayrama bir neçə gün qalmış oğlanlar harada bərk yumurta var, dişləri ilə onu yoxlayıb seçməyə başlar, kiçik uşaqlar da həvəslə onları təqib edərdi.

Axşamüstü naxır gələn vaxtı musiqi səsi kəndi bürüyərdi. Naxır kəndin mal-qarasının otlaq sahəyə aparılmasına deyərdilər. Kənddə hamı mal-qara saxlardı. Hər gün hamı qoyun-quzusunu, inək-camışını otun bol olduğu yerə otarmağa aparardı. Bu da onların zaman imkanlarını məhdudlaşdırar, başqa işlərinə vaxtları qalmazdı. Ona görə də növbəlilik sistemi yaratmışdılar. Sübh tezdən hər kəs öz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heyvanını gətirib növbədəki adama təhvil verərdi. O da heyvanları otlağa aparar, günorta vaxtı kəhrizə su içməyə gətirər, bir-iki saatdan sonra yenə dağa qaytarıb, axşam çağı altı-yeddi arasında geriyə-kəndə gətirərdi. Kəndimizdə naxırçı Nadir adlı bir oğlan vardı. Uşaq vaxtı xəstəlik keçirmiş, bir əli və bir ayağı şikəst olmuşdu. Danışanda çətinliklə başa düşərdik. Boyu balaca olsa da, sifətdən yaraşıqlı idi. Çox adam naxıra gedib vaxtını itirməsin deyə, sonralar hər ay ailə başına pul toplayar və Nadirə verərdilər. O da gündəlik bu işlə məşğul olardı. Çox qəribədir ki, heç kim heyvanları qarşılamağa getməzdi. Hamının mal-qarası öz sahibinin evini tanıyar, mələyə-mələyə rahatca sahibinin evinə üz tutardı. Heyvanların səsi bir-birinə qarışardı. Qoyunların yununu ildə iki dəfə yaz və payızda xüsusi qayçı ilə qırxardılar. Həmin yun qız-gəlinlər tərəfindən kəhrizdə yuyular, didilər, əyrilər, yayda nazik çubuqla çırpılar və yorğan-döşək salınar, gəbə(xalça), kilim və naxışlı corablar toxunardı.

Nadir anası Sənubər xala ilə yaşayardı. Çox da mehriban adam idi. Anası öldükdən sonra başqa kənddən Xoşqədəm adlı həmişə başını yaylıqla bağlayan bir arvad almışdı. Deyilənə görə, Xoşqədəmin sacları tökülmüşdü, keçəl idi. Amma özünü elə dartardı ki, gəl görəsən.

Beləliklə, Nadir naxırı kəndə gətirən kimi İmran və Dadaş qardaşları qara zurnanı və nağaranı götürər, kəndə "Heyvagülü" rəqsinin sədaları yayılardı. Nənəmlə babam mənə deyərdi ki, onların atası Əbdül dayı da gözəl zurna, balaban çalardı. O, 1941-ci ildə İkinci Dünya müharibəsinə yola düşən vaxtı gözdən itincə qara zurnada məhz, bu havanı çala-çala kənddən çıxıb müharibəyə getmiş və bir daha geri dönməmişdi. Ailəsi müharibədən onun ölüm xəbərini almışdı. Bu xəbər bütün kəndi sarsıtmışdı. Çünki, o həm yaxşı insan, həm də kəndin məclis və toylarının yaraşığı idi. Ataları öldükdən sonra, bu iki övladı onun sənətini yaşadırdı. Hər dəfə onlar çalmağa başlayanda, nənəmlə babam "Allah sənə rəhmət eləsin, ay Əbdül! Övladların sənin yolunu davam elədi, səni yaşatdı",– deyərdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mal-qaranı tövlələrə (heyvanların gecələdiyi yer) saldıqdan sonra, qara zurnanın sədaları altında uşaqlar erkən saatlarda, qaranlıq tam düşməmiş evlərə papaq atmağa qaçardı. Adətdir, bayram günü heç kim qapısını bağlamaz, evində işığını söndürməz, ancaq gözəl sözlər danışardı. Odur ki, uşaqlar asanlıqla papaqlarını istədiyi evə atar, özləri isə qaçıb gizlənərdi. Ev yiyəsi (sahibi) də hamıya eyni gözlə baxar, papaqlara bərabər bayram payı doldurar, sonra da qapı ağzına qoyardı. Papaq yiyəsi də gəlib öz papağını götürərdi. Bayram payı süfrəyə düzülmüş nemətlərdən ibarət olardı.

Yeniyetmələr qaranlıq düşəndə iri tonqallar çatardı (yandırardı). Tonqalın odunlarını ustalıqla elə düzərdilər ki, aralarından külək keçib tonqalın alovunu gur eləsin. Tarixi faktlara əsasən Azərbaycan ərazisində qədim dövrlərdə, eradan əvvəl Y-1Y əsrlərdə atəşpərəstlik mövcud imiş. İnsanlar yaşam mənbəyi olan atəşə və oda səcdə edərmiş. Deyilənə görə, Novruz bayramı məhz həmin dövrlərlə, bəlkə də daha qədim zamanla bağlıdır. Ərəb xilafəti 90 illik uzun mübarizədən sonra YIII əsrin əvvəllərində Azərbaycanda islam dinini möhkəmlədir və biz müsəlman dinini qəbul edirik. Odur ki, YIII əsrdən çox-çox əvvəl yaranmış Novruz bayramının müsəlman dini ilə heş bir əlaqəsi yoxdur. Buna baxmayaraq, 1920-ci ildə bolşeviklər hakimiyyətə gəldikdən sonra, bayramın keçirilməsinə qadağa qoydu. Amma xalqımız həmişə bu adətə əməl etmişdi. Sonralar Şıxəli Qurbanovun zəhməti nəticəsində bayramın dövlət səviyyəsində təntənəli şəkildə keçirilməsinə icazə verildi. Bu bayram yer kürəsinin bizə bəxş etdiyi hər nə varsa, hamısının müqəddəs olduğunu və onların qədrini bilib qorumağı tövsiyyə edir. Yaşı dəqiq bilinməyən bu bayram neçə əsrlərdən bəri hələ də yaşayır. Odur ki, axşam ocaqlar çatılar, böyüklü-kiçikli hamı bu tonqalların başına toplaşar, zarafat edər, deyib-gülər, axırda da gur alovun üzərindən üç dəfə tullanaraq;

-Ağırlığım-uğurluğum odlara tökülsün, azar-bezarım, xəstəliyim, odda yansın, -deyərdilər. Bu da o deməkdir ki, bütün dərd-sərimiz, xəstəliyimiz odla yanıb kül olsun, hamı azad, xöşbəxt yaşasın.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bu ərəfədə Novruz bayramının ən gözəl qonağı, hamının sevimlisi, əzizi zarafatcıl Kosa gələrdi.

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördümü?
Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Kosa kənd adamlarından biri olar, qrim vasitəsilə özünü tanınmaz hala salardı. Kosalar əslində göygöz olmalı idi. Amma kəndimizdə göygöz adam nadir hallarda olduğundan bizim kosalar qaragöz olardı. Kosanın papağı şiş, saqqalı uzun (əlbəttə ki, əldə düzəldilmiş saqqal taxardı) olardı. Paltarı qırmızı rəngli ipəkdən tikilərdi. Yanında isə saçını dibindən qırxdırmış, ya da başına qoyun dərisi keçirmiş, əlində çömçə, çiynində xurcun olan Keçəl olardı. Xurcun təbii boyaqlı iplərdən hərənin öz zövqünə, qabiliyyətinə uyğun naxışlarla toxunar, iki gözdən ibarət olar və indiki zənbili əvəz edərdi. Deyərdilər ki, Novruz bayramında bəlkə Keçəlin bəxti açılar, özünə arvad alar. Odur ki, Kosa yorulmadan Keçəli tərifləyərdi. Adamlar əl çalar, Keçəl də dayanmadan oynayıb kef edər, adamları güldürər, sirk ustası (kloun) kimi nömrələr göstərərdi. Hamıdan bayram payı toplayıb, xurcunun doldurardı.

Keçəl;

Ay kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay uyruğu-uyruğu,
Saqqalı at quyruğu,
Kosam bir oyun eylər,
Keçini qoyun eylər,
Yığar yağın, düyüsün
Keçəlin toyun eylər.

Kosa;

Novruz-novruz bahara,
Güllər-güllər nubara,
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun,

Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun,
Xanım dursun ayağa,
Kosanın payın gətirsin.

-Hə, indi gəlinlər evə getsin, keçəlin payın gətirsin,-deyə oynayar, xurcunun bayram payı ilə doldurardı. Uşaqlar da Kecəl ilə Kosaya qoşulub şənlik edərdi.

Axşam süfrə açılar. Bütün ailə üzvləri süfrə arxasına keçərdi. Yeməyə başlamamışdan əvvəl allaha yetirdiyi bu naz-nemət üçün dua edilər, ilk çəkilmiş xörək bayram payı ilə birlikdə əlil və qocalara, kimsəsiz və yetimlərə, yaxın insanlara göndərilər və onları sevindirərdilər. Fərqi yoxdur kasıb, ya imkanlı, hamının süfrəsi bol olardı. Həmin gün heç kəs ac qalmazdı. Nədənsə kəndimizdə övladı olmayan analar bədbəxt sayılardı. Odur ki, bayram günü onu da yada salar, dua edərdilər ki,

-Allah-təala ona bir övlad qismət eləsin. O ölüb dünyadan köçəndən sonra, evində çırağını (işığını) yandıran uşağı olsun.

Bayram aşı yeyiləndən sonra, qohum-qonşu evində olan nemətlərdən bir-birinə bayram sovqatı aparardı. Küsülülər barışardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adətə görə hamının evində əmin-amanlıq, mehribançılıq olmalı, “can” deyib, “can” eşidilməli idi. İnanclara görə bayram axşamını necə əhval-ruhiyyə ilə qarşılasan, il boyu həmin ovqat səninlə birgə olacaq.

Novruz bayramının uzun illərin sınağından çıxmış bəzi inancları da var. Bunlar aşağıdakılardır;

Dilək tutmaq

Qapı dinləmək və ya pusmaq. Bəzən buna dişək də deyilir. Ürəyində niyyət tutan adam gecə hər iki qulağını iki barmağı ilə tutaraq, istədiyi evə yaxınlaşmalı və düz qapı ağzında əlini qulağından çəkməlidir. İlk eşidəcəyi söz xoşdursa, demək niyyəti baş tutaçaq, arzularına qovuşacaq. Yox, əksinə, pis söz eşidərsə, arzuları həyata keçməyəcəkdir. Ona görə də hamı xoş söz danışmağa çalışardı ki, qapını dinləyən adam xoş söz eşitsin. Məsələn; qapını aç, işığı yandır, yeməyi gətir, işim düzəldi, hər şey yaxşıdır kimi gözəl, ürəkaçan söz eşidilməsi yaxşı əlamət idi.

Daha sonra hər iki əlinə nəlbəki götürər, nəlbəki niyyəti edərdin.

-Niyyətim həyata keçəcəksə sağ və ya sol əlimdə tutduğum nəlbəkiyə ruzi (pay) qoyulsun,-deyə nəlbəkini qonşuya tərəf uzadardın. Qonşu da həmin nəlbəkinin birinə ya qənd, ya da konfet qoyardı. Niyyət tutanın ürəyində tutduğu ilə düz gələrdisə, deməli arzusu həyata keçəcəkdi.

İynə falı

Ərə getməmiş subay qızlar özlərinə yaxın bildikləri bir evdə yığışardı. Oyun belə idi. İki iynənin başına azca pambığı yüngülcə sarıyardılar. Kasaya su töküb, barmaqla suyu ehmallıca saat əqrəbi istiqamətində hərəkətə gətirərdilər. Su fırlanmağa başlayanda iynənin birinə oğlanın, birinə də qızın adını verib suya salardılar. Ayrı-ayrı atılan iynələr birləşsə idi, deməli, bu iki sevən ailə həyatı quracaqdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Üzük falı

Bu oyunda nişanlı qızın, ya da ərli qadının nişan üzüyünə sap bağlanar və neytral vəziyyətdə sapın ucundan tutaraq, boş stəkana və ya fincana sallayardılar. Üzük yellənməyə başlayar, hər dəfə də stəkanın kənarına zərblə toxunaraq səs edərdi. Qızlar hər zərbəni sayardı. Zərbənin sayı neçə olardısa, (əgər 24 dəfə dəysə, deməli 24 yaş) deməli qız həmin yaşda ailə quracaqdı.

## Ayaq falı

Bu fal zamanı subay oğlan və ya qız üzü evə, arxası küçəyə tərəf durmalı, ayaqqabısını başı üzərindən arxaya atmalıdır. Ayaqqabının üzü evə sarı düşərsə, demək qız və oğlan bu ildə istəyinə nail ola bilməyəcək, subay qalacaq. Yox əgər üzü yola sarı düşərsə, demək işləri düzələcək, toy olacaq.

## Su falı

Su falında iri kasaya təmiz su doldurulur. Hər subay qıza aid bir əşya suya atılır, üstü yaylıqla örtülür. Bir nəfər əlini yaylığın altından suya salır, ağlına gələn bayatını söyləyərək, əşyalardan birini çıxarır və bayatının mənası yozularaq açıqlanır və sahibinə verilir. Əgər sözlər yaxşı olarsa, deyərlər ki, niyyətin qəbul olunacaq. Məsələn;

Əzizim, dağda gəzər,
Marallar dağda gəzər,
Bizim nişanlı qızlar
Əli xınalı gəzər.

Aşiqəm, gəldi, keçdi,
Göz yaşın sildi, keçdi,
Sənin odlu baxışın
Ürəyim dəldi keçdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay doğdu, qəlbiləndi,
Doğduqca qəlbiləndi.
Quran gətir, əl basım,
Bu qəlb o qəlbiləndi.

Və yaxud əksinə. Bayatıda sözlərin mənası yaxşı olmazdısa, əşya sahibi olan qızın arzu-niyyətinin baş tutmayacağına bir işarə vurulurdu.

Ay doğdu qoşalandı,
Doğduqca qoşalandı.
İsdərdim səni görəm,
Yoluma daş qalandı.

Əzizinəm, bir də mən
Doldur içim birdə mən
Ömür getdi, gün getdi,
Cavan olmam bir də mən

Ay doğdu, aralandı,
Doğduqca aralandı.
Mən səndən ayrı düşdüm,
Ürəyim paralandı.

Bayatılar bax beləcə uzun zaman oxunar və yozulardı.

Bayram şənlikləri gecə yarısınadək davam edərdi. Axşam yatanda subay qızlar gündüz bişirdikləri duzlu kökəni niyyət edib yeyər və yatardı. Deyilənə görə, yuxuda hansı oğlan ona su verərdisə, o oğlan həmin qızın gələcək həyat yoldaşı olardı.

Bir ədəd yumurtanı qırmızı və qara karandaşla birgə niyyət edərək xəlvəti yerə basdırardılar, səhər gedib gətirərdilər. Yumurta üzərində qara karandaşla çəkilmiş xətt arzuların həyata keçməməsi, qırmızı karandaşla çəkilmiş xətt isə arzuların gerçəkləşməsindən xəbər verərdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Martın 22-si Novruz bayramının gəlişi ilə kəndimizə yaz gələrdi. İnsanlar yeni coşqu və həvəslə əkin sahələrində gərgin əməklə məşğul olardı. Sovetlər dövründə bütün əkin sahələri dövlətə məxsus idi. Odur ki, hökumət əkin sahələrini doludan qorumaq üçün hər yerdə hərbi toplar quraşdırardı. Yazda göy üzünü topa-topa qara buludlar alan kimi, o dəqiqə toplar işə düşərdi. Doğrudur, insanlara bunun ziyanı olmazdı. Amma atılmış mərmilərin istiliyindən dolu yağışla əvəzlənərdi. Güclü şimşəklər çaxar, yeri-göyü lərzəyə salar, leysan yağışları yağardı. Yağış leysan xarakteri daşıyanda deyərdik;

-Elə yağır ki, tut ucundan çıx göyə.

Yağışdan sonra hava açılar, günəş şüaları arxasından rəngbərəng göy qurşağı zolaq salardı. Ağacların yarpaqlarındakı yağış damlaları bərq vurardı. Bütün ağaclar növbə ilə çiçək açmağa başlardı. Albalı (Bizdə gilənar deyilərdi), armud, alça, gilas, əriyin çiçəyi ağ, şaftalı çəhrayı, alma açıq çəhrayı, nar qırmızı, zoğalın çiçəyi sarı rəngdə olardı. Həm də hər bir ağacın çiçəyinin özünəməxsus gözəl qoxusu olardı. Bəzən yağış gur yağanda ağacların çiçəyini tökərdi. Həmin ili məhsul bir qədər az olardı.

Kəndimizdə çoxlu şanapipik quşları da olardı. Başının üstü rəngbərəng, bəzəkli və kəkilli gözəl quşlar idi. Daim ağacları döyəcləyərdilər. Elə bil nağara çalırdılar. Sonralar onların sayı kəskin surətdə azalmağa başladı.

Yazın son günləri Böyük kəhrizin başında, Hökumə xalagilin çəpərinin (hasarı) aşağısındakı iydə ağacı sarı çiçək açardı. İydənin o qədər gözəl qoxusu olardı ki, qızlar saatlarla orada durar, söhbət edib xoşhal olardı. Buna bulaq başında söhbət deyərdik. Evə qayıdanda həmin iydədən dərər, evdə su doldurulmuş qaba qoyar, günlərlə otaqlara dolmuş iydənin ətrini ləzzətlə ciyərlərimizə çəkərdik.

Yağışlar çox olan il təpələrdə dombalan çıxardı. Dəqiq adı nə idi bilmirdim, amma hamı ona dombalan deyırdi. O, kartofa oxşayardı. Yağışdan sonra yerin altından bir hissəsi görünərdi. Biz də onu yığıb gətirər, nənəm yağ soğanla qovurar, bəzən üstünə yumurta da vurardı. Dadı eyni ilə göbələyin dadına oxşayardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazın ilk günlərində kənd camaatı kolxozdan gücü çatdığı qədər (bir, iki, bəzən də üç qutu) barama (ipəkqurdu) götürüb iki ay ərzində becərər, qazanc əldə edərdi. Nənəm belə işlə məşğul olmazdı. Ona görə ki, əziyyətli olar, gərgin zəhmət və kömək tələb edərdi. Ancaq Zümrüd xalamgil və Həmayıl nənəm hər il barama saxlayardı. Mən də tez-tez onlara gedib ipəkqurdunun necə böyüdüyünə baxardım. Çox maraqlı bir proses idi. Baramaqurdu üç yuxu alardı. İlk gətirəndə xırda-xırda qara rəngdə olub toxumu xatırladardı. Sonra tədricən böyüyüb artardı. Böyüdükdə onu ehtiyatla tənəkənin (quru qamışdan hörülərdi) üstünə düzər, hər gün həyət və kolxoz bağından yığılıb gətirilmiş tut ağacının cavan budaqlarının yarpağı ilə yedizdirərdilər. İlk günlər baramaqurdu yarpağı az-az yeyər, günlər ötdükcə yemini artırardı. Son günlər yarpaq çatışmayanda, maşınla baramaqurdu saxlanılmayan kənd və qəsəbələrə gedər, tut yarpağı alıb gətirərdilər. Qurdlar isə gündən-günə böyüyərdi. Balaca qutuda alınmış toxumun boyüyəndə yeri geniş olsun deyə, ona yaradılmış şəraitdən asılı olaraq bir neçə otağı tutardı. Axı, onların yeri rahat və isti olmalı idi. Hər dəfə tut ağacının budaqlarını qoyanda gotürməz, üst-üstə qoyardılar. Axırıncı ongünlüyündə çöllərdə bitən türfəng deyilən, sarı incə çiçəyi olan bitkidən dərib üstünə düzərdilər. Baramaqurdu da türfəngin güllərindən yeyə-yeyə barama sarımağa başlardı. O, baramanı elə sarıyardı ki, sanki özünə qəbir qazırdı. Kənarlardan tədricən hörülməyə başlanan barama içəridə tamamlanar və kənara çıxmaq mümkün olmaz, baramaqurdu da içəridə qalıb ölərdi. Hazır barama dümağ rəngdə uzunsov, ellipis şəklində olardı. Memar ustalığı ilə baramanı qurdlar elə tikərdilər ki, hamısı eyni ölçüdə olardı. Hər qurd bir barama tikərdi. Tam hazır olduqda bir-bir onun üzərindəki qatı soyub çıxardar (Buna barama dərmə də deyərdilər), sonda çəkib dövlətə təhvil verərək pul alardılar. Baramanın təmizlənməsi vaxt tələb etdiyindən iməcilik edərdilər. Yəni, uşaq və böyük, bütün bacaranlar növbə ilə bir evə yığışar, baramanı təmizləyib qurtarar, mürəbbə ilə çay içər, xeyir-dua verib gedər, səhər növbəti evdə işə başlayardılar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Barama dərilən vaxtlarda taxıl zəmilərində, çöllərdə lalə, nərgiz, cürbəcür çöl gülləri çiçək açardı. Qanqal, yemilik, sümürtkan və digər bitkilər baş qaldırardı. Biz tərəfin əksər bitkiləri dərman əhəmiyyətlidir. Nənəm əvəlik, nanə, qırxbuğum, gicitkan, yarpız, qızılgülün ləçəklərini qurudub, həm qışda dərman, həm də ədviyyat kimi xörəkdə, çayda istifadə edərdi. Qanqalın yarpaqları tikanlı olardı. Ehtiyatla onun gövdəsi üzərindəki tikanlı yarpaqları kəsib atar, qabığını soyar, ləzzətlə yeyərdik. Yayda yolların kənarında, çöllərdə böyümüş və qurumuş halda olan qanqalın başında qurumuş çiçəklərini qayçı ilə kəsib evə gətirər, yerə sərilmiş qalın əski arasında döyər, toxumlarını götürərdik. Buna çətənə deyilərdi. Novruz bayramında qovurqa qovrulan zaman həmin çətənədən azca içərisinə əlavə olunar, qovurqaya xüsusi dad verərdi. Son vaxtlar eşitdik ki, həmin çətənədən narkotik kimi istifadə edə bilirlər. Yemilik əhəmiyyətli bitki idi. Onu dərib yeyəndən sonra, əllərimiz və ağzımız açıq palıd rəng alardı. Biz də zarafatla

-Bax, əlimə xına qoymuşam,-deyərdik. Sümürtkanın ağ, çəhrayı, bənövşə rəngdə gülləri olardı. Onu qopardar, arxasındakı şirəni sorardıq. Həmənköməncinin də tər zoğlarını dərib yeyərdik. İki gündən bir Bala kəhrizə gedib suyun axarı boyu (əsas suyun içində bitirdi) bitən suqıcısı dərərdik. Onlarda çox vaxt zəli (qansoran) olardı. Odur ki, suqıcısını kəhrizin suyunda yaxşı-yaxşı, tərtəmiz yuyardıq. Yeyəndə də diqqətlə yarpaqlarının altına baxardıq. Yağlı xörəklə yeyərdik. Yumşaq və dadlı olardı.

Yazda tez-tez (həftədə iki dəfə) göy kətəsi bişirilərdi. Kətə üçün göyərti o qədər çox idi ki, hərəsi də bir cür vitaminli. Qızlar toplanıb zənbil, vedrə və bıçaq götürər, deyə-gülə, həvəslə bağdan, zəmidən pencər (göyərti) yığmağa gedərdik. Qırxbuğum, gicitkan, quşəppəyi, qazayağı, dovqaotu, lala, dəli lalə, dağ laləsi, əvəlik, quzuqulağı, reyhan, zəmi keşnişi, həmənköməncі, yarpız, nanə, çəkildibi, cincilim, yemilik, qarğa soğanı, şomu və s. göyərtiləri toplayar, kəhrizdə tər-təmiz yuyar, evə gətirib təmizləyər, sərib suyunu çəkməsini gözləyərdik. Nənəm də xəmir qatar, sacı hazırlayardı. Sacı ocağın üstünə qoymazdan əvvəl, iç tərəfini su ilə qarışdırılmış kül

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vasitəsilə suvayardı ki, sac qızdıqda kətələri yandırmasın. Göyərtilər xırda-xırda doğranar, duzlanardı. Nazik yuxa yayılar göyərti səliqə ilə yuxanın bir tərəfinə qoyular, digər tərəf onun üzərinə qatlanaraq, kənarları möhkəm bükülər, sacın üzərində hər iki üzü qızarardı. Sonra kənarları da yaxşı bişsin deyə, sacın altındakı közdən azca kənara çəkilər, kətə bir neçə odun parçasının üzərinə qoyular, bişməmiş hissə közə yaxınlaşdırılardı. Tam hazır olanda təmiz süfrə arasına qoyular, kətə bir neçə yerindən deşilər, oraya təmiz inək yağı (kərə yağ) qoyulardı. Kətələr hamısı bişib qurtardıqdan sonra, inək və ya camış qatığı ilə yeyilərdi. O qədər dadlı olardı ki, yazda ət xörəyi az-az bişərdi. Bundan başqa nənəm həmin göyərtilərdən yağ soğanla birlikdə qovurub, üzərinə yumurta vurardı. Mən də ləzzətlə yeyərdim.

Yağı nənəm özü hazırlayardı. Onun nehrəsi yaxşı yadımdadır. Hər adam nehrə düzəldə bilməzdi. Nehrənin də öz ustası olardı. Nehrənin taxtaları təmiz ağacdan olardı. Dairəvi, uzun çəlləyə bənzəyirdi. Hər iki küncündə əl tutmaq üçün qulp vardı. Ortasında dördkünc balaca pəncərəsi olardı. Həmin pəncərədən nehrəyə üç-dörd vedrə qatıq tökülərdi. Qatığı nənəm özü hazırlayardı. Hamı kimi bizim də inəyimiz vardı. Nənəm səhərlər vedrəni (inək sağmaq üçün vedrəsi ayrı olardı) isti su ilə yaxalayar, ılıq su ilə inəyin əmcəyini (döşlərini) yuyar, təmiz xüsusi tənziflə silər, sonra inəyi sağardı. Südü süzərək, ayrı qoyduğu qazanda bişirərdi. Süd tam soyumamış, ılıq vəziyyətdə olarkən ora damazlıq (iki xörək qaşığı qatıq) əlavə edər, qazanın qapağını örtdükdən sonra üstünü qalın, isti şal ilə bərk-bərk örtərdi. Səhərə qədər süd özünü tutar, qatığa çevrilərdi.

Tavadan asılmış kəndirin ucları nehrənin hər iki tərəfinə keçirilirdi. Nehrə döşəmədən bir qədər yuxarıda asılı qalırdı. İki-üç gün ərzində yığılan qatıq və bir qədər də suyu yağ hazırlamaq üçün nehrəyə tökərdi. Ağzını taxta qapaqla bərk-bərk bağlayar, iki nəfər, bəzən də nənəm təkcə nehrəni çalxalayardı. İrəli-geri nehrəni hərəkət etdirdikcə, qatıq nehrənin divarlarına çırpılırdı. Hərdən nənəm az-az nehrəyə soyuq su əlavə edər, nehrənin dərinliyinə uyğun olan nazik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çubuqla yağın hazır olub-olmadığını yoxlayardı. Hazır olanda çubuğa topa-topa yağ yapışardı.
Saxsıdan da nehrəmiz vardı. Onu qatıq az olanda işlədərdi. Onun da üstündə yağın hazır olduğunu yoxlamaq üçün, balaca deşik olurdu. Ağzını isə dəri parçası ilə bağlayardıq. Yerdə balaca döşəkcənin üstünə qoyar, irəli-geri hərəkət etdirərdi. Yağ hazır olan kimi nehrəni əyib içərisindəkini iri teştə (qaba) tökərdi. Əli ilə qatıqdan ayrılıb üzə çıxmış kərə yağını tədricən yığıb top formasına salar və əriməsin deyə soyuq suyun içərisinə atardı. Biz də səbirsizliklə yağın hazır olmasın gözləyərdik. Ən maraqlısı da yayda qohumlar gələndə olurdu. Onların uşaqları ilə dairə vurub teştin kənarında oturardıq. Çünki, yağ hazır olanda nənəm əli ilə yağdan çörəyin üstünə yaxmac (yəni yağ yaxardı) edər, biz də iştaha ilə yeyərdik. Sonda bir hissəsini səhər yeməyi üçün olduğu kimi saxlayar, bir hissəsini isə xörək bişirərkən istifadə etmək məqsədilə qazana töküb əridər, ayrı qabda (bitonlarda) saxlayardı. Yerdə qalan qatıqlı suya ayran deyirdik. Sərin ayran yay günü çox ləzzətli olurdu. Ayrandan bir az Laykanın (Kosmosa insanlardan əvvəl səyahət edən ilk canlı olan Layka adlı itin şərəfinə bu adı qapımızdakı itimizə mən qoymuşdum. Layka mənə çox bağlı idi. Hara gedirdim, gəlib ayaqlarımın yanında durardı) qabına tökər, qalanın da iri qazanda odun üzərinə qoyub qaynadardı. Ayran bir qədər qaynayandan sonra, onu çit parçadan tikilmiş torbaya tökər, bir yerdən asardı. Suyu çəkildikdən sonra, şor alınardı. Şora azca duz vurub, səhərlər kərə yağı ilə yeyərdik. Səhərlər yediyimiz pendiri də bütün kənd arvadları (qadın, xanım) kimi nənəm özü hazırlayardı. Bişmiş və ilinmiş südə azca maya (Mal aptekindən alınmış sarı rəngli toz maddə idi. Maya inəyin içində olan qursaqdan da olurdu. Qursaq yuyulub qurudulduqdan, sonra maya olur) əlavə edib, üstünü möhkəm basdırardı. Səhər qazanın içərisində əmələ gəlmiş qatı mayeni ağ parçadan tikilmiş torbaya tökər, aşsüzənin içərisinə qoyar, üstünə də həmişə evdə saxladığı tər-təmiz yuyulmuş iri çay daşı qoyardı. Gün ərzində pendirin suyu süzülüb, hazır olardı. Nənəm pendiri səliqə ilə çıxarıb doğrayar, duzlayıb bir neçə gün saxladıqdan sonra, iri bankalara yığar, üstünə duzlu su

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tökərdi. Pendir suyunun duzu normal olsun deyə, suya bir yumurta salardı. Əgər yumurta suyun üstünə çıxardısa, deməli duzu yaxşıdır. Nənəmin qatıq süzmək üçün də ayrıca torbası vardı. Hərdən qatıq turşumasın deyə həmin torbaya tökər, göydən asar, qatıq da tədricən acı suyunu tamam buraxardı. Nəticədə süzmə alınardı. Süzməni də qatığı istifadə etdiyimiz kimi işlədərdik.

Həyətimizdə qırxbuğum çox olardı. Onu dərib bişməmiş halda, bəzən də duza batırıb yeyərdik. Nənəmgil deyirdi ki, bu dərmandır. Kim onu çox yesə öd kisəsi və böyrəklərində daş olmaz. Həqiqətən də, həmin bitkilərdən və kəhrizimizin suyundan idi ki, kənddə heç kimin öd kisəsi və böyrəklərində daş olmazdı.

Ümumiyyətlə, bütün kənd əhalisi, o cümlədən də biz bazara nadir hallarda gedərdik. Ət, toyuq, yumurta, pendir, şor, yağ, meyvə, soğan, kartof, xiyar, pamidor, göyərti, kələm, badımcan və s. hər şey öz təsərrüfatımızda hazırlanırdı. Dükandan (mağaza) yalnız pal-paltar, qablar, qənd-çay, pesok, konfet, düyü, duz və s. bu kimi şeylər alardıq.

## Yay

Kəndimizin yazı kimi yayı da gözəl olardı. Yay başlayanda hərdən bir yağış yağardı. Özü də qəflətən başlayan yağış güclü olardı. Hamı deyərdi ki;

-Çoban aldadandı, fikir verməyin, bu dəqiqə kəsəcək.

Doğrudan da, heç beş dəqiqə keçməmiş yağış kəsərdi. Bu zaman toz halında olan torpaq (Bəzi yerlərdə torpaq çox qalın olardı) islanardı. İslanmış torpağın iyi kəndi bürüyərdi. Mən çox yerdə yağışın yağmasından sonra, torpağın qoxusunu duymuşam. Amma sizi inandırım ki, kəndimizdəki torpağın qoxusu qədər gözəl qoxuya heç yerdə rast gəlməmişəm. Ola bilsin ki, bu balaca kənddə bir neçə cür torpağın olması ilə bağlı idi. Kəndin ortası qara, əkin yerləri münbit, “Arabayalı” deyilən yer sarı torpaq idi.

Yay olan kimi böyük bacım Aybəniz, Alagöz mamanın uşaqları Leyla, Rəfael və Xuraman, Hidayət əminin uşaqları Aydın, Şakir,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məlahət (Məlahət ağappaq və toppuş olduğu üçün ona Balıq deyərdik), Nazlı, İmişlidən Fatma mamam öz uşaqları ilə, Əlif əminin nəvələri, yəni Şəmşə, Qaragöz, Fizzə xala və İldırım əminin uşaqları, İbrahim müəllimin nəvələri, Bayandur dayının, Dilavər əminin uşaqları İradə, Rəfael, bir sözlə Bakıda (Azərbaycanın paytaxtı) və rayonda yaşayan, əsli kəndimizdən olan adamlar uşaqlarını götürüb kəndə istirahətə gələrdilər. Elə ev olmazdı ki, orada beş-altı nəfərdən az qonaq olsun. Bakıdan gələn uşaqlar bizim üçün daha maraqlı idilər. Bəziləri eşşəyi, atı, toyuq-cücəni tanımır, ağaca çıxmağa qorxurdu. Bəzi oğlanlar kəndin ortasında palansız (palan eşşəyin belinə qoyulanda orada oturmaq asan olardı. Həm də qoşqu qoşulanda eşşəyə rahat olardı) eşşəyə minər, bütün günü eşşəyi o baş, bu başa çapardılar. Biz də onlara baxıb gülərdik. Hamı bir-birinə qarışaraq atılıb-düşər, toz-torpağa batar, kəhrizə qaçıb yuyunar, bir azdan bütün bunlar yenidən təkrarlanardı. Bu məni təəccübləndirməz, onlarla tez ünsiyyət tapardım. Çünki nənəmlə ata-anamı, şəhərdə yaşayan qohumlarımızı görmək üçün tez-tez şəhərə gedər, oradakı uşaqlarla dostluq edərdim. Bu da başqaları ilə tez əlaqə yaratmaqda mənə yardımçı olurdu. Kəhrizə çatan kimi paltarlarımızın ətəyini dizdən yuxarı çırmalayıb suya girər, bir-birimizə su atardıq. Hava isti olsa da, suda çox qala bilməzdik. Ayaqlarımız suyun soyuqluğundan donardı. Stəkana su dolduranda, kənarları soyuqdan qırov tutardı. Ona görə də sudan qaçıb kənara çıxar, gün altında durub həm özümüzü qızışdırar, həm də paltarlarımızı qurudardıq.

Kəndin qoyunlarını kəhrizin aşağı hissəsində yuyardılar. Hamımız maraqlanıb baxardıq. Qoyunların ayaqlarını tutar, arxası üstə suya salar, əlləri ilə hər tərəfini yuyardılar. Qoyunlar da yuyulub təmizlənər, kənara qaçıb silkələnər, ətrafa su sıçradardılar.

Axşam olanda təsərrüfat işlərini tamamlamış cavan oğlanlar kəhrizin başına yığışıb oturar, söhbət edib zarafatlaşar, gözaltı bulağa gələn qızlara baxardılar. Qızlar da özlərinə sığal-tumar verib bulağa yollanardı. Kimi qab yuyar, kimi paltar suya çəkər, kimi də səhəngini doldurardı. İşlərini də deyib gülə-gülə, zarafatlaşaraq görər, oğrun-

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

oğrun oğlanlara baxar, eyni zamanda özlərini də onlara göstərərdilər. Biz uşaqlar da onların bəzilərinin gizli sevgisindən xəbər tutardıq.

Uşaqlıq dostum qonşumuz Məhparə idi. Atası Nuruş dayı həddindən artıq araq içərdi. Həmişə kefli olardı. Anası Fitat xala qonşu kənddə müəllimə işləyirdi. Ucaboylu, arıq, saçları gicgahdan ağarmış bu qadın hər şeyə dözər, uşaqlarının tərbiyəsi ilə məşğul olardı. Qaynanası (Yəni həyat yoldaşının anası) Xatın xala 100 yaşını keçmişdi. Lap yumağa dönmüşdü. Amma gecə-gündüz müharibədən qayıtmayan oğlunun yolunu gözləyirdi. Yalın (təpənin) başında oturar, oğlu gedən yola baxar, elə hey deyərdi;

-Balam bu yoldan gedib, bu yolla da evimizə qayıdacaq. O, gəlsin, ölsəm, daha dərdim olmaz.

Biz uşaqlar da onun gözünün yaxşı görmədiyindən istifadə edib, uşaq ağlı ilə başına oyun açardıq. Bir dəfə Fitat xala bir təndir çörəyi bişirib işə gedəndən sonra, biz uşaqlar növbə ilə onlara gedib Xatın nənəyə deyirdik;

-Ay nənə, acmışam, mənə çörək ver.

O da gözü görmədiyi üçün soruşardı;

-Ay bala, kimsən?

Biz də növbə ilə onun nəvələrinin adını deyərdik.

-Ay nənə Ayazam, Mehparəyəm, Buludam.

Axşam Fitat xala evə gələndə baxır ki, teştdə çörək az qalıb. Qaynanasından soruşur;

-Xatın xala, bu çörək niyə az qalıb?

Yazıq arvad hirslə cavab verir;

-Qırılmışların elə bil bu gün aclıqdan gəlmişdi. Dəqiqəyə biri gəlir ki, nənə acmışam, mənə çörək ver.

Uzun müddət bunu uşaqlar öz aramızda deyib-gülərdik. O vaxt belə şeyləri başa düşməzdim. Qarabağ müharibəsindəki dərdli anaların göz yaşı və müsibətini görəndə, gözləri yollara dikilib qalan Xatın nənənin niyə bütün günü “bala, bala”-deyib ağladığını dərk elədim. Ona kələk gəldiyimiz günləri yadıma salıb, xəcalət çəkdim.

Babamgil məni nəzarətdə saxlayar, üstümdə əsərdilər. Yorulan kimi evə çağırardılar. Evimiz kəndin ortasında idi. İki böyük otaq, bir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəhliz, üç tərəfə baxan iki böyük və iki kiçik eyvanı vardı. Əsasən gündüzlər eyvanda oturar, çörək yeyər və ora qoyulmuş çarpayıda yatardıq, gecələr otağın birinə keçərdik. Qonaq otağı daha böyük idi. Qonaq otağımızda ağzına kilid vurulmuş iki sandıq vardı. Bunun göy rənglisi babama, digəri qara üstündə qırmızı gülləri olan isə nənəmə məxsus idi. Onlar sandıqlarında təzə paltarlarını, xırda-para əşyalarını, sənəd və pullarını saxlayardı. Biz uşaqlar sandığın üstünə çıxıb şifonerin güzgüsündə özümüzə baxa-baxa rəqs edər, qəflətən ayaqlarımızı sallayıb oturar, tullanıb divana dırmaşardıq.

Eyvanlar evin dörd tərəfini əhatə edər, kəndin hər tərəfinə gözəl mənzərə açılardı. Böyük eyvanın biri iki otağın ortasında yerləşirdi, üzü də Qaryağdı dağına baxırdı. Günorta, hava istiləşəndə eyvana açılan qapılar açıq qoyular, sərin meh adama rahatlıq gətirərdi. Nənəm eyvanda döşəkcə sərər, üstünə də mütəkkə qoyardı. Mütəkkə yastığa oxşayar, lakin bir az uzunsov olardı. İçərisinə yun və ya pambıq doldurulardı. Ona söykənib uzananda adamın bədəni dincələrdi. Lala babam (Nəvələri Lalazər babamı qısa olaraq belə çağırardı) günün müxtəlif saatlarında bu cür uzanıb dincəlməyi sevərdi. Hərdən də mənə deyərdi;

-Ürəyim yanır, qaç babaya kəhrizdən soyuq su gətir. Bax, yerə tüpürürəm. Tüpürcək quruyana qədər gəlsən, biləcəm ki, kənddə mənim balamdan zirək qız yoxdur.

Kəhrizin suyu soyuq olduğu üçün soyuducuya qoymağa ehtiyac olmazdı. Onun soyuqluğu 30-40 dəqiqə qalırdı. Böyüklərin sözləri bizim üçün qanun olduğundan, suyu tez gətirib babamı sevindirmək, həm də məndən zirək qız olmadığını sübut etmək üçün səhəngimi götürüb kəhrizə qaçardım. Uşaq idim. Elə bilirdim ki, doğrudan mən gedib gələnə qədər tüpürcək qurumaz. Kəhrizlə evimizin arası 5 dəqiqəlik tozlu yol idi. Mən necə bərk qaçardımsa, ayaqlarımın altından toz qopardı. Evə çatanda babam deyərdi;

-Ay Zərif, bax, bizim qızdan zirəyi yoxdur. Qaçanda ayağının altından toz qopur, tüpürcək də qurumamış gəlib özün çatdırır.

Sonralar böyüyəndə ağlım kəsdi ki, mən qapıdan içəri girməmiş babam məni ürəkləndirmək və tərifləmək üçün yerə təkrar tüpürür.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özümə gələn kimi tez ləyəni nənəmə gətirərdim. Nənəm ləyənə çörək, bostandan dərib gətirdiyim təzə xiyar, göy soğan, göyərtini xırda-xırda doğrayar, qatıq, duz, sərin sudan qatıb doğramanc qurardı. Doğramanc yayda kənd adamlarının sevimli yeməyi idi. Gündə iki-üç dəfə bunu hazırlayıb yeyərdik. Babam deyərdi;

-İştaha diş altındadı, ağzına yeməyi qoydun, başlayasan yeməyə.

Nadinc idim. Həddimi keçəndə babam məni döyməsin deyə qorxudardı. Özünün də məni qorxutmaq metodu vardı.

-Əgər çörəyini yeməsən və ya bir də bu səhvi eləsən, Damdabaca, iki çatının dörd ucu, iki sərçənin dörd gözü, süpürgəsaqqal gəlib səni yeyəcək.

Bu sözləri də elə tez-tez deyərdi ki, mən bütün bunların qorxunc bir heyvan olduğunu zənn edib qorxardım. Bunları o tezlikdə analiz edə bilmirdim. Sonra Damdabacanın kim olduğunu öyrəndim. Qədim zamanlarda insanlar pəncərəsiz damlarda (evlərdə) yaşayarmış. Elektrik enerjisi olmadığından evlər qaranlıq olmasın deyə, evin üstündən deşik açarmışlar. Buna da baca deyərmişlər. Bacadan evə həm işıq düşər, həm də təmiz hava dolarmış. Axşamlar isə adamlar lampa işığının ətrafında oturarmış. Sonra başa düşdüm ki, damın bacası, iki çatının (ipin) dörd ucu, iki sərçənin də (quş) dörd gözü olar. Süpürgə də saqqala bənzəyir. Hərdən də yemək yeməyəndə babam deyirdi;

-Qızı, sən çörək yeməsən, mənim yediyim iki çiynimin arasından keçəcək.

Yaxud üşüyəndə babam deyərdi;

-Sənin yaşında mən hamamda çılpaq gəzərdim.

İndiki uşaqları bu cür sözlərlə heç vaxt aldatmaq olmaz. Biz çox sadəlövh, avam olmuşuq. Adam hamamda çiməndə əlbəttə ki, çılpaq olar, yediyi də iki çiyninin arasında yerləşən qida borusundan keçər də. Bilirdim ki, babam məni çox istəyir. Hərdən mənim sadəlövhlüyümə baxıb ürəkdən gülərdi. Mən də sakit-sakit baxardım. Bir dəfə də axşam idi. Babam qəflətən;

-Qaç, gəldilər,-deyə məni tələsdirdi. Mən də tez içəri qaçmaq istəyəndə, dəhlizin qarşısında olan daş pilləkənə ilişdim və dizim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

parçalandı. İndiyə kimi də sol dizimdə çapıq yeri qalıb. Nənəm də babama hirsələndi, ağlaya-ağlaya;

-Ay kişi, bəsdir, sən allah, uşaq ilə nə işin var? Niyə qoymursan yerimizdə dinməz oturaq. Vurub ayaqlarını qırardı.

Bir dəfə də dörd yaşım olanda anamgildə eyvanın sürahısından yıxılmışdım. Sürahını dülgərlər düzəldərdi. Sürahı eyvanın kənarlarına vurulan bir metr hündürlükdə taxta olardı. Aşağısına şaquli istiqamətdə naxışlı, üstünə isə 20sm enniliyində sadə taxta vurardılar ki, uşaqlar eyvandan yıxılmasın. Mən də sürahının üstünə çıxıb orada oturmuşam. Bu zaman qonşunun uşağı məni oradan itələyib yerə salır. Hər iki qolum biləklə dirsəyin tən ortasından sınır. Anam deyir ki, qollarımın hər ikisi dəridən asılı qalmışdı. Onlar məni tibbi təhsili olmayan, el arasında sınıqçı Kərim kimi tanınmış birisinin yanına aparırlar. O qollarımı düzəldərək, özü hazırladığı məlhəmlə gipsə qoyub sarıyır. Sol əlim tez sağaldığından onun vasitəsi ilə işlərimi görməyə başlamışam. O vaxtdan da çox işlərimi sol əlimlə görərək solaxay olmuşam.

Lalazər babam da belə şeyləri bacarardı. Kənddə kimin boğazı ağrısa bizə gələrdi. Babam da sakitcə onun boğazını masaj formasında sığallayar, elə bil hansı nöqtəyə toxunacağını bilirdi. Bəzi hallarda isə qəflətən əlini boğazın altına atar, adam diksinərdi. Babam deyərdi ki,

-Bəzən adamın boğazına əl atıb onu qorxutsan, boğaz ağrısı keçər.

Çox vaxt həqiqətən də o adamın boğaz ağrısı elə o dəqiqə də keçib gedərdi. Çıxmış qolu, əli, barmaqları və ayağı yerinə salıb düzəldər, sınan sümüyün yerini təyin edər, onun üstünə təpitmə qoyardı. Təpitməni isə bir yumurtanın sarısına azca un, bir çimdik duz tökərək hazırlayardı. Hazır məhlul ağ kətan parça üzərinə yaxılar və sınmış, zədələnmiş yerə qoyulub bağlanardı. Babam deyirdi ki;

-Qızı, bu təpitmə həm ağrını kəsir, həm də quruyanda gips kimi sümükləri tərpənməyə qoymur. Gips bir neçə gündən sonra boşalardı. Babam təkrar yoxlayardı. Əgər lazım gələrdisə, gips təzədən qoyulurdu. Bəzi sınıqlar bir aya kimi gipsdə qala bilirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adamın bədəninin bir yeri əzilərdisə, oraya döyülmüş təzə quyruq və ya dəri parçası qoyardı.

Mart ayından başlayaraq düz oktyabr ayına kimi babam eyvanda yatardı. Yayda mən də çox vaxt babamla eyvanda yatardım. Hərdən günortalar dəhlizə döşəkcə atıb orada uzanardım. Bura həddindən artıq sərin olardı. Gecələr soyuq olduğundan, nənəm üstümə isti ədyal salardı. Babam və nənəm dəmir çarpayıda, mən isə döşəmədə yer salıb qalın döşəyin üstündə rahat yatardım. Yatmazdan əvvəl ulduzları sayardım. Nənəm deyərdi;

-Hər kəsin göydə bir tale ulduzu var. O, ulduz onun gələcək həyat yolunu göstərir. Sənin də orada öz ulduzun var. Diqqətlə bax, öz ulduzunu tap.

Mən də ən parlaq ulduzları özümünkü hesab edərdim. Ulduzlara baxanda gecənin qaranlığında çəyirtkələrin, quşların, ilbizlərin səsinə qulaq asardım. Gecə oxuyan quşlardan birinin səsi elə ritmli idi ki, bir dəfə nənəmdən soruşdum:

-Ay nənə, gecə oxuyan quşun adı nədir? Onlar niyə gecələr oxuyur, özü də avazla?

Nənəm dedi;

-Rəvayətə görə İsa və Musa adlı iki qardaşın çox qəddar, əzazil ataları olur. Uşaqlar hər gün qoyun-quzularını otarmağa aparırmış. Günlərin bir günü onların bir quzusu yoxa çıxır. Qardaşlar nə qədər axtarır tapa bilmir. Evə qayıtmağa qorxan uşaqlar allaha yalvarırlar ki, onları quşa çevirsin. Onlar da öz quzularını axtarıb tapsın. Allah onların səsini eşidir və hər iki qardaşı quşa çevirir. O vaxtdan həmin quşlar məhz, bu cür səslənir.

Doğrudan da, quşların oxumağına qulaq asanda elə bil ki, deyirdilər;

-İsa! Tapdın?

-Musa! Tapdın?-deyə eyni ritm təkrarlanırdı. Bunların səsini arada kiminsə itinin hürməsi pozar, sonra yenidən təkrarlanardı. Mən də bu səslərin altında təmiz havada şirin yuxuya gedərdim. Gecələr babamgil hər ehtimala qarşı orta dəhlizdəki işığı yanılı qoyardılar. Heç nədən qorxmazdılar. Ona görə ki, kəndimiz tam təhlükəsiz idi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burada oğurluq olmazdı. Yayda çox adam qapısını bağlamaz, açıq qoyub yatardı. Yarasa (gecəquşu) açıq pəncərədən otağa daxil olardı deyə, babam ehtiyatlı tərpənir, işığı söndürmürdü. Yarasalar gündüzlər görmür. Odur ki, gecələr fəaliyyətə başlayardılar. Mən yarasadan qorxardım. Səhər tezdən kəndin dörd tərəfindən xoruzların banlaması hamını yuxudan oyadardı. Elə bil ki, zəngli saat idilər. Düz vaxtında, səhər saat 500-da banlayardılar. Onların da ardınca itlər hürməyə, sonra qoyun-quzu mələməyə başlardı. Elə bil ki, yatanları oyatmaq üçün yarışa girirdilər. Mən yuxudan duranda pillələri qorxaraq enərdim. Hərdən yarasalar pillələrin altı qaranlıq olduğundan, oranın divarına yapışıb qalardı. Nənəm deyirdi;

-Ay bala, qorxma, onlar ziyansızdır. Bir də səhər açılanda onlar kor olur, səni görmürlər.

Bir az keçəndən sonra, yarasalar harasa çəkilərdi. Axşama kimi mən onları görməzdim. Babam xoruz banından durar, mən isə hey yatardım. Böyük mamam (bibim) Xurşud bizə lap yaxın olurdu. Səhər tezdən qızlarını yuxudan oyadar, onlar mən durana kimi bütün həyət-bacalarını süpürüb təmizləyərdilər. O da nənəmə deyərdi;

-Ay nənə, niyə bu uşağı tənbəl öyrədirsən. Bu vaxta kimi qız uşağı yatar? Qızın yatıb-durduğunu gərək görməsinlər. Qız uşağı hamıdan gec yatıb, hamıdan tez durmalıdı.

Nənəm də əvəzində;

-Mənim uşağımla işin olmasın. Get, öz qızlarının işinə qarış. Qoy, mənim balam ürəyi nə qədər istəyir, o qədər də yatsın. Böyüyəndə o qədər yuxusuz qalacaq ki…

Kəndin balaca qızları həyəti, toyuq-cücənin yatdığı hini, qoyun-quzuların gecələdiyi axurun yerini süpürər, böyük qızlar isə evin təmizliyinə baxar, su gətirər, toyuq-cücəyə dən, su verər, analar inək-qoyunu sağar, xörək bişirər, qızları ilə birlikdə xalça-palaz və paltarları yuyardı. Kişilər ilk növbədə eşşək və ya ata qoşulmuş arabanın üstündəki iri çəlləyi kəhrizdən su ilə doldurub gətirərdi. Çəlləyi doldurmaq üçün bir nəfər arabaya qalxar, o biri isə aşağıdan su doldurulmuş vedrəni ona verərdi. Bəzən gündüz qadınlar çəndəki suyu işlədib qurtarardı, o zaman axşam kişilər təkrar çəlləyi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doldurardı. Sonra da oğlanlarını götürüb təsərrüfat işləri ilə məşğul olardılar. Əri olmayan qadınlar özləri bu işlərin öhdəsindən təkbaşına gələrdi. Kişilər sübh tezdən heyvanları naxıra qoşar, hərə öz işinə gedərdi. Ümumiyyətlə, qış fəslini çıxmaq şərti ilə kənd adamlarının işi həmişə həddindən artıq çox olardı. Bütün qış ehtiyatını toplamaq, bol məhsulu yığıb yığışdırmaq lazım idi. Kimi şəhərdə işləyər, kimi kənddə idarə işində çalışar, kimı də kolxozda taxıl, üzüm, noxud əkib becərərdi. Axşam işdən sonra, gün batmamış zəmilərin kənarında, çöllərdə, şəxsi bağlarından ot biçib gətirər, həmin otu həyətə sərib qurudardılar. Tez-tez otu yaba ilə çevirər, quruduğuna tam əmin olduqda səliqə ilə həyətin bir tərəfində taya şəklində yığardılar. Qış düşənə kimi bu işlər davam edər, sonra üstü bağlanar, heyvanların qış azuqəsi hazır olardı. Babam da at, inək və iyirmiyə qədər qoyun-quzumuz üçün ot yığar, ata qoşulmuş arabaya yükləyib evə gətirərdi. Arabaya yüklənmiş otun üstündə oturub evə gəlmək mənim çox xoşuma gəlirdi. Elə bil ki, dünya aləm mənim olurdu. O qədər sevinirdim ki, dillə deyiləsi deyildi. Odur ki, babamla ot yığmağa mən də gedirdim. Gücüm çatanından, yəni toplamağa kömək də edirdim. Gətirib həyətə sərər, tez-tez yaba ilə çevirərdik ki, yaxşı qurusun. Taxıl zəmiləri biçiləndən sonra, kişilər xırmanda (tarlada) qalan samanı gətirər, ondan da ayrı bir taya düzəldərdilər. Yayda xırmanda çoxlu ilanlar olduğu üçün məni buraxmazdılar. Hərdən babama yalvarıb gedərdim. Nənəm həmişə deyirdi;

-Ay bala, sən əmanətsən, qorxuram getmə. Başına bir iş gəlsə, Arifə nə cavab verərəm?

Yayın əvvəli kolxoz taxılı kombaynla biçər, biçilmiş arpa və buğdanı qurudub təmizləyərək anbarlara yığar, qalanın hər bir ailəyə pay bölərdi. Kolxozun heyvanlarına qış tədarükü üçün samanı kip bağlayar, kolxoz həyətində yan-yana tayalar qurardılar. Biçin qurtarandan sonra uşaqlar torba götürüb tarlaya gedərdik. Yerə tökülmüş sünbülləri yığar, evə gətirərdik. Həyətin ortasında iri çadırlar sərib, həmin sünbülləri oraya tökər, iri taxta parçası ilə döyərdik. Axşamçağı qadınlar buğdanı xəlbirə yığar, külək tutan yerdə başlarından hündürə qaldırar, yavaş-yavaş silkələyərək

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xəlbirdən yerə tökərdilər. Bu zaman külək buğdanın zibillərini aparar, təmizlənmiş buğda çadıra tökülər, sonra xəlbirdən keçirilərdi. Buğda xəlbirə doldurular, saat əqrəbi istiqamətində hərəkət etdirilər, üzərinə yığılan zibillər, gül toxumları əllə götürülüb bir kisəyə, təmiz taxıl isə digər kisəyə doldurulardı. Zibilli taxıl toyuqların yemi olardı. Təmiz taxıl növbəti biçinə qədər evlərdə olan kəndilərə (Kəndi eni 1,5m, uzunluğu 3-4m, hündürlüyü 1-1,5m olardı. Taxtadan hazırlanardı. Kənddə hamının evində olardı) doldurular, ailəyə lazım olan qədəri vaxtaşırı eşşək və ya at arabasında su dəyirmanına aparılar, un üyüdülərdı. Dəyirman qonşu Qarğabazar kəndində idi. Sonralar həmin kənddə elektriklə işləyən dəyirman da tikildi.

Nənəm çörək bişirəndə başqalarından fərqli olaraq, həmin buğda ununa bir qoşa ovuc darı və bir qoşa ovuc qarğıldalı unu da əlavə edərdi. Onun xəmir qatmaq üçün ayrıca misdən qayrılmış teşti (iri ləyən) vardı. Unu ələklə ələyər, duz, xəmirə (Xəmirəni bir neçə gün əvvəl çörək bişirərkən acımış xəmirdən götürüb emallı qazana qoyar, soyuq yerdə saxlayardı. Növbəti dəfə xəmir qatanda həmin xəmirəni ora əlavə edər, sonra yenidən xəmrəni təzələyərdi) və su qataraq xəmir yoğurardı. Bir qədər xəmiri yoğurduqdan sonra, üstünü örtər, gedib başqa iş görər, bir az keçdikdən sonra, təkrar xəmiri qatardı. Soruşanda;

-Ay nənə, xəmiri niyə iki dəfə qatırsan?

Deyirdi;

-Xəmir dincin alır, təkrar qatanda çörəyi yumşaq və dadlı olur.

Doğrudan da, nənəmin bişirdiyi çörəyin iyi hər tərəfə yayılardı. Rəngi qarğıdalı ununa görə sarı olardı. Xırda kündələr edər, süfrənin üstünə düzərdi. Kündələr özünü tutana (Bizdə kündə gələnə qədər deyirlər) qədər, nənəm təndirə od salardı. Təndirimiz arxa eyvanın qarşısında idi. Təndir üçün odunu babam bağdan yığar, həyətin bir tərəfinə toplayardı. Mən odundan gətirər, nənəm də təndirə atardı. Odunlar yananda təndirin içərisi əvvəl qapqara olar, sonra tədricən ağarmağa başlardı. Tam ağardıqdan sonra, təndirin başını süpürər, içərisində yanmış odundan əmələ gəlmiş közü yeri qazmaq üçün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istifadə etdiyimiz bel ilə təndirin ortasına toplayar, közün üzərinə və təndirin divarlarına lazım olan qədər su çiləyərdi. Mən evə qaçıb kündələri xəmir teştinə yığar, üstünü süfrə ilə örtər, nənəm də təndir başına apardı. Əgər yerdə kündə qalsa, onu üç-üç siniyə qoyub mən aparardım. Təndirin başında həmişə təmiz parçaya bükülmüş emallı bir cam, bir dənə də çəngəl olardı. Nənəm qolçaqların (Əlləri yanmasın deyə iki qollarına taxmaq üçün parçadan tikərdi) geyinər, mən də hindən (toyuqların gecələdiyi yer) iki ədəd təzə yumurta gətirərdim. Nənəm yumurtaları cama çırpar, üstünə küncüt və azca su əlavə edər, çəngəllə yaxşıca qarışdırardı. Buna üzdük deyərdik. Əlini isladıb dördayağın (Yuxa və xəmir yaymaq üçün dairəvi formada üstü yaxşı yonulmuş taxtadan olardı. Dörd ədəd ayaqları olduğuna görə adını elə qoymuşdular) üstünə çəkər, kündəni orada yayar, üzərinə üzdük yaxar, çəngəl ilə naxış salar, deşik vurar və hazır xəmiri təndirin divarına yapışdırardı. Hər dəfə mənim üçün də balaca kökə hazırlayar, axırıncı onu təndirə yapardı. Nənəmin yanına ayrıca bir qabda su doldurub qoyardım. Lazım gələndə çörəklərin aşağı hissəsi yanmasın deyə, həmin sudan az-az təndirə çiləyərdi. Çörəklərin aşağı hissəsi qızaranda, onu qoparar, üzünə təkrar üzdük vurar, ərsinlə (Ucu əyilmiş dəmir çubuq idi. Çörəyin qızarmış yerindən dəmirin ucuna keçirər və təndirin dibinə düzərdilər) təkrar təndirə qoyardı. Çörəklər hazır olduqca onları təndirin başına sərər, soyuduqda teştə yığıb evə gətirər, sərilmiş süfrə üzərinə düzər və üstünü örtərdik. Çünk, isti-isti yığıldıqda içərisi xəmir kimi olurdu. Çörəklər tam soyuduqda, onları təkrar teştə yığardıq. Qış aylarında təndirin içərisində qalan közə kartof basdırar, bir qədər keçdikdən sonra, kabab olmuş kartofları evə gətirər, qabığını soyub duzlayaraq soğan və ya yayda xüsusi qablarda müxtəlif tərəvəzlərdən qoyduğumuz şoraba (turşu) ilə yeyərdik. Bəzi vaxtlar elə təndirin başında tələm-tələsik kartoflardan yeyərdim. Hərdən nənəm təndirdə dadlı fətir də bişirərdi. Fətirin xəmiri süd, şəkər tozu və yumurta ilə yoğrulurdu. Kündələri yaydıqdan sonra, nənəm barmağı ilə üzərini dairəvi və digər formalarda bəzəkli deşikləyər, çəngəl ilə gözəl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

naxışlar salardı. Naxışlar bir-birinə bənzəməzdi və çox gözəl görünərdi.

Təndirin qurulması da ayrı bir texnika idi. Onu yayda qurardılar. Hər torpaqdan təndir qurulmazdı. Onun torpağı ayrıca olardı. Arabayalından sapsarı təndir torpağı gətirilər, ələnər, içərisinə saman, keçi qəlizi (yunu), duz, yumurta sarısı və su qatılar, palçıq alınardı. Həmin palçığı bir neçə gün müəyyən vaxtlarda ayaqla qarışdırar, vaxtı gələndə qız və gəlinlər palçığı bərk yerdə çoxlu-çoxlu döyər, bad düzəldərdilər. Əli tez-tez isladaraq badın (yəni palçıq) hamısı səliqəli şəkildə uzunsov hala salınar, əvvəldən yerdən qazılmış çala içərisində təndir qurmağı bacaran qadın badı orada düzməyə başlardı. Təndir dairəvi, səhv etmirəmsə, hündürlüyü 1metrdən artıq, dibi enli, yuxarı qalxdıqca ağzı dar olardı. Təndirin palçığı tam quruduqdan sonra, iki-üç dəfə onun içərisinə odun doldurub yandırardılar. Təndir tam ağardıqda, hazır hesab olunurdu. Yağış və qar yağanda qadınların işi ağır olmasın deyə, üstünə çardaq edərdilər. İki və ya üç tərəfini, külək tutan yerlərinə nazik çubuqlarla çəpər kimi çəkərdilər. Bəzi bölgələrdə təndiri yerin üstündə də qururlar.

Yayda kolxozun əkin sahəsindən noxud yığmağa getməyin özü də maraqlı idi. Uşaqlar toplaşar, torba götürüb, mahnı oxuya-oxuya, zarafatlaşıb gülə-gülə noxud dərməyə gedərdik. Noxud sütül, yəni yetişməmiş olanda dərməyə icazə verməzdilər. Biz də xəlvəti gedib oğurluq edər, kolu ilə birgə noxudu dərər, gətirib ocaq üstə atardıq. Yaş noxud ütülər (bişər), biz də şirin-şirin yeyərdik. Axı, çox dadlı olardı. Biz onu əllərimizlə təmizləyərdik. Əllərimiz bütöv his olardı.

-Görək kim tez yeyər,- deyə yarış keçirərdik. Buğdanın sütül (göy) vaxtı və yetişmiş qarğıdalını da ocaqda bişirəndə ləzzətli olurdu. Qarğıdalını bağımızda babam əkərdi.

Evin qabağında böyük bağımız vardı. İçərisində meyvə ağacları əkilmişdi. Bağın aşağısında iri dağdağan ağacımız vardı. Onun göy rəngli incə zərif çiçəyi, yayda bərk meyvələri olardı. Biz qadağalara baxmayaraq, həmin meyvələrdən yeyərdik. Çox yeyəndə bağırsaqları adama əziyyət verərdi. Dağdağanın budağını kəsər, qurudub balaca

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

forma verər, körpələrin üstündən və ya beşiyindən asardılar. İnanclara görə bu uşaqları pis gözdən qoruyardı. Bağın sağ tərəfində bir tut ağacımız vardı. Kənddə o tutdan heç kimdə yox idi. Kəndin bütün tutu sovulanda (yeyilib qurtaranda) həmin tut yetişməyə başlardı. Meyvələri də həm iri, həm də o qədər şirin olardı ki, yeyəndə adamın boğazı qovuşardı. Əncir, üzüm, heyva, nar, göyəm, gavalı, gilənar, armud, alma ağacları bol meyvə gətirərdi. Ərik və alçanı tam dəyməmiş vaxtından duzlayaraq ləzzətlə yeyərdik. Böyüklər elə hey bizi danlayardı;

-Ay uşaq, o hələ sarfadı. Az yeyin, mədəniz ağrıyacaq.

Onlara qulaq asan kim idi, dilimiz para-para olana kimi ağacın dibindən çəkilməzdik. Sonra da yetişib dəymiş meyvələri sovulana qədər yeyərdik. Tut ağaclarımız lap çox idi. İkisi eyvanın kənarında olduğundan, budaqları eyvandan içəri daxil olurdu. Yetişmiş meyvələri elə eyvanda oturub dərərdik. Babam deyərdi;

-Ağıllı tutdu, istəmir əziyyət çəkək. Deyir, elə oturduğunuz yerdə məni yeyin.

Bağın bir tərəfində babam yığcam bostan eləmişdi. Orada kartof, sogan, pamidor, xiyar, bibər, lobya, badımcan, istiot, göyərti əkib becərərdi. Babam iki su quyusu qazdırmışdı. Əvvəllər suyu ip bağlanmış vedrə ilə çəkərdik, sonralar mator qoymuşdu. Həvəslə gedib düyməni basardım ki, babam həyəti sulasın. Suyumuz bol olduğu üçün, məhsulumuz da bol olardı. Xiyar, pamidoru elə tağdan qırıb, oradaca çörək və duzla ləzzətlə yeyərdim. Xiyar və göy pamidordan nənəm şoraba (turşu) qoyar, qışa saxlardı. Hər ləkin kənarında qarğıdalı, günəbaxan və süpürgə əkərdi. Qarğıdalını həm közdə, həm də suda bişirib yeyəndə ləzzətli olardı. Günəbaxanın tumları yetişəndə, qırıb əlimizdə tutar və tumların bir-bir çıxarıb çırtlayardıq. Süpürgələr quruyanda babam onu məxsusi formada bağlayar, biz də evi, həyəti onunla süpürərdik. Bağçamızda-düz eyvanın qabağında nənəmin istəyi ilə babam hərəsi bir rəngdə çiçək açan üç qızılgül və bir yasəmən kolu əkmişdi. Qızılgüllərdən biri qırxyarpaq açıq qırmızı, məxmərgülü tünd qırmızı, nəlbəki gülü açıq çəhrayı çiçək açardı. Çiçəkləri gözəl olduğu qədər, gözəl də ətri

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olardı. Nənəm həmin gülün ləçəklərini dərib mürəbbə bişirərdi. Gül mürəbbəsi də başqa aləm idi. Mürəbbəni bişirəndən sonra, güllərdən az-az yığıb gül suyu düzəldər, şüşə qablara yığıb saxlardı. Deyərdilər ki, bu ürəyin dərmanıdı. Onu çaya və suya qatıb içərdik.

Babam həyətdə qoyun-quzu üçün axur, inək və at üçün tövlə tikmişdi. İtin damı da onlara yaxın idi. İtimizə qışda hər gün undan yal bişirərdik. Həyətdəki tut ağacının altında iri daş qoyulmuşdu. Babam vaxtaşırı o daşın üstünə duz tökər, heyvanlar da onu yalayardı. Babam ata məxsusi qulluq edərdi. Tez-tez kəhrizə atı yumağa aparar, əlinə qaşov kecirdər, atın dərisini qaşovlayardı. Quyruğunu, yalını darayardı. Vaxtlı-vaxtında nalbəndə aparar, nal vurdurardı. Yəhəri, yüyəni səliqəli olardı. Ona arpa, ot, hərdən də əlində kişmiş yedirdərdi. Kəhrizə suvarmağa aparanda məni atın belində oturdar, özü də atın yüyənindən tutardı. Mən də elə forslanardım ki, gəl görəsən.

O vaxtlar bizi dərsdən sonra, məktəbdən kolxozçulara kömək etməyə aparardılar. Məsələn; soğan sahələrini alaq otlarından təmizlərdik. Kiçik olduğumuza görə çox əyilmək lazım gəlmirdi. Bir dəfə də otu götürəndə, otun altında yatan ilanı da əlimə götürmüşdüm. Qəfil ilanı əlimdə görəndə necə qorxmuşdumsa, əlimdən atıb qışqıra-qışqıra qaçmışdım. O səhnə hələ də gözlərimin qarşısından getmir.

Yayda yaşıdlarımla böyürtkən yığmağa gedirdim. Böyürtkən çöllərdə təbii bitərdi. Yetişəndə kolların üstünə cumardıq. Özü də tikanlı olduğundan əl-ayağımızı kollar didərdi. Amma buna fikir verməzdik. O qədər yeyərdik ki, əllərimiz, ağzımız qapqara olardı. Dərib balaca vedrə və ya bidonlarda evə gətirərdim. Nənəm də ondan soyuqdəymənin dərmanı olan dadlı mürəbbə bişirərdi. Özü də mənə məsləhət verərdi;

-Qollu paltar və şalvar geyin, tikanlar səni yaman günə qoymasın. Başına da yaylıq ört, gün təsir eləməsin. Ayaqlarının altına bax, birdən ilan olar. Yığanda gün düşən yerdəki böyürtkənləri yığ ki, onlar şirin olur. Kölgədə yetişən böyürtkən həmişə dadsız

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olardı. (Mənə qıymırdı. Getməyə qoymayanda ağlayırdım, ürəyi yumşalırdı)

Nənəm qoyunların yunundan yayda yorğan-döşək saldırardı. Özünün qan təzyiqi olduğu üçün, Xurşud mamam gəlib nənəmin bu işlərin görərdi. Bir dəfə də Xurşud mamam nənəmə kömək edirdi. Mən də onların yanında fırlanırdım. Birdən kəndə qışqırıq düşdü. Evimizlə üz-üzə yaşayan Ənbər xalanın evi od tutub yanırdı. Hamı köməyə qaçırdı. Amma gec idi. O böyüklükdə ev bir andaca necə yanıb kül oldu.  Qorxudan nəfəsimi belə çəkə bilmirdim. Nənəmin ayaqlarını bərk-bərk qucaqlamışdım.

Yaydan başlayaraq oktyabr, noyabr ayına kimi tarlalarda bol pambıq yetişərdi. Kolxozçuların bunu yığmağa gücü bəs etməzdi. Odur ki, idarələrdə çalışanlar və məktəblilər onlara köməyə gedərdi. Səhər 800-da məktəbin qabağında toplaşar, üstüaçıq maşınlarda yola düşərdik. Axşam saat 600-da isə tarladan çıxar, kolxozun nümayəndəsi yığdığımız məhsulu qapanda (iri tərəzi) çəkib təhvil götürər, təzədən maşınlara minib evə qayıdardıq. Bizi boş-boşuna işlətməzdilər. Yığdığımız pambığın müqabilində pul alardıq. Səhv etmirəmsə, o zamanlar pambığın 1 kiloqramı 10 qəpik idi. Uşaqların hər biri gün ərzində 20-30 kq-dan başlayaraq, 60-80 kq-dək pambıq yığa bilirdi. Bir dəfə bərk isti idi. Pambıq tarlasının kənarında Hindarxı deyilən bir su kanalı vardı. Sonralar eşitdim ki, bu kanalda neçə-neçə uşaq boğulub ölüb. Kanal boyu söyüd ağacları yarpaqlarını suya sallamışdı. Suyu həm lilli, həm də iti axırdı. İmişli rayonuna, mamamgilə (bibim) qonaq gedəndə orada da belə bir kanal görmüşdüm. Orada uşaqlar mənə üzməyi öyrətmişdilər. Odur ki, özümə arxayın suya tullandım. Mənim suya tullandığımı görən bir şagird necə bərkdən qışqırdısa, mən özümü itirdim. Axı, müəllimlərim məni cəzalandıra bilərdi. Tez üzüb kənara çıxdım, söyüd ağacının altında gizləndim. Amma artıq gec idi. Hamı hadisədən xəbər tutmuşdu. Müəllimlər də bərk qorxmuşdu. Hərəsi bir tərəfdən məni sorğu-suala tutmağa başladılar. Qorxudan suya özümün atıldığımı boynuma almadım. Dedim;

-Əllərimi yuyurdum, ayaqlarım sürüşdü və suya yıxıldım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bildilər ki, üzməyi bacarıram. Təkrar çimmək üçün kanala atılacağımdan ehtiyat edərək, o hadisədən sonra məni bir daha pambıq yığımına aparmadılar.

İkinci bağımız evimizdən 300-400 metr aralıda, Xurşud mamamgilin bağına bitişik idi. Bağı kəhrizin suyu ilə suvarırdıq. Babam bağı çəpərlə iki yerə bölmüşdü. Birinci girən kimi sağda itburnu, solda böyürtkən kolları idi. İtburnu yazda ağ çiçəklər açar, gözəl iyi ətrafa yayılardı. Payızda meyvələri əvvəl sarı, sonra qırmızı rəngdə olardı. Onu dərib qurudar, qışda dəmləyib içərdik. Dəmləməsi qan təzyiqinin, böyrək daşlarının qənimi idi. Biz onun içərisindəki tüklü toxumları təmizləyib atar, qalanın yeyərdik.

Bağ qonşumuz, atamın doğma əmisioğlu Aslan əmigilin alça ağaclarının yarısı bizim bağa tərəf əyilmişdi. Bizimdəki ağlımız uşaq ağlı. Elə bilirdik ki, o alça daha dadlıdır. Bağın qapısından içəri girən kimi özümüzü həmin alça ağacının üstünə atardıq. O qədər yeyirdik ki, axırda dişlərimiz qamaşırdı. Bağın aşağı hissəsində də hər cür meyvə ağacları və yaxşı bostanımız vardı. Əsas da 200-dən artıq yaşı olan iri qoz ağacı. Onun gövdəsi o qədər böyük idi ki, dörd nəfər qolların açıb qucaqlaya bilərdi. Bu iri qoz babamgilə məxsus idi. Xurşud mamagilin qoz ağacı balaca idi. Yayın sonunda qoz dəyməyə başlayırdı. Qoz yaşıl rəngli qovağın içində olardı. Ağacın aşağısında olanları əl ilə yığıb, sütül vaxtından yeməyə başlardıq. Dəydikdə, yəni yetişdikdə səhər olan kimi bağa qaçar qozun dibini axtarardıq. Axşamdan yerə tökülən qozları otun arasından tapıb çıxardar, çox toplayanda o birisinə “yandıq”(acıq) verərdik. Toplanan qoz az olanda, bir ağac parçası ilə selbələyib (vurub) əlavə yenə yerə salardıq. Qoz tam yetişəndə Xurşud mamamın böyük oğlu Qaməddin iri ağac parçası ilə qozu çırpmağa başlayardı. Biz isə yerə tökülən qozları toplayardıq. Qurudub kisələrə doldurar, növbəti qoz çırpılana qədər yeyərdik. Xurşud mamam tez-tez balaca qara çantasına bir bardaq (qrafinka) süd, iki təndir çörəyi, qoz və meyvə qoyub şəhərə atama, yəni qardaşı Arifə sovqat aparardı. İnəyi doğan kimi bulama bişirər, kətamaz hazırlayar, səhər tezdən özünü qardaşı Arifə çatdırıb deyərdi;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Qağa, inəyimiz doğub. Bilirəm ki, bulama, kətəmaz xoşlayansan. Səhər-səhər gətidim ki, işə getməmiş yeyəsən.

Atam da ona qıymazdı;

-Ay Xurşud, nə əziyyət çəkirsən? Səhərin gözü açılmamış gəlmisən. Sifariş edərdin, özüm gələrdim.

Xurşud mamam əvəzində;

-Qağa, sa (sənə) canım qurban. Arıq olduğuma baxma, qorxma ölmərəm, dözümlüyəm.

Nənəm Xurşud mamamla alçanı yığıb həm lavaşana edər, həm də qurudardı. Lavaşana etmək üçün yuyulmuş alçaları nənəm mis qazana tökər, azca duz və su əlavə edib qaynadardı. Bişmiş alçanı aşsüzəndən keçirdər, lap nazik şəkildə mis mecmahıya (iri sini), balaca sinilərə (ləyən) yayar, günün qabağında qurudar, sonra da ipdən asardı. Qablara əvvəldən yağ sürtərdi ki, lavaşana qabın dibinə yapışmasın. Tam quruduqda parçaya büküb saxlardı. Lavaşanı və alça qurusunu həm yeyər, həm də qışda bəzi xörəklərə atardıq. Alçanı yuyub günün qarşısında təmiz yerə sərər, bir az quruduqda duzlu suya salıb təkrar qurudardı. Zoğalın dənəsini çıxardar, onu da eyni üsulla həm qurudar, həm də lavaşa edərdi. Bağda bir-birindən dadlı və gözəl dörd növdə zoğal ağacımız vardı. Ərik, gavalı, gilənar, tut, üzüm, alma, armud, ənciri də eyni qayda ilə qurudub qışa və Novruz bayramına saxlardı.

Nənəm bütün meyvələrdən mürəbbə bişirərdi. Gilənar, ərik, göyəm, payız gavalısından mürəbbəni isə anam bişirib göndərərdi. Tutdan isə həm bəhməz (doşab), həm də irçal bişirərdi. İrçal tutun üzüm bəhməzinin içində bişirilməsinə deyilirdi. Dadlı olardı. Çox vaxt ot tayasının üstünə düzülmüş şiferin üzərini təmiz yuyardılar. Dəymiş tutlar ora tökülər, öz-özünə quruyar, biz də torbaya yığardıq. Yay və payız bolluq və bərəkət ayları idi. Bağ-bostan məhsul verərdi. Üzüm və pambıq yığılardı. Toylar başlayardı.

Toy mərasimi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndimizdə toy mərasiminin keçirilməsi də çox qəribə və maraqlı olardı. Hamıdan da çox biz uşaqlar sevinərdik. Ona görə ki, valideynlərimiz toy qabağı bizə təzə paltar və təzə ayaqqabı alardı.

Kənddə oğlanların evlənməsi iki qayda ilə həyata keçərdi. Birincisi, adətən oğlanlar qızları qonşuda, işə gedəndə, məktəbdə oxuyanda, bulaq başında, toy şənliklərində görüb bəyənərdi. Sevgisinə tam əmin olduqda inandığı, etibar etdiyi bir qızla ya məktub vasitəsilə, ya da sifarişlə sevdiyini həmin qıza bildirərdi. Qız onun sevgisinə sevgi ilə cavab verərdisə, oğlan ilk növbədə evdə valideynləri ilə məsləhətləşərdi. Çünki, ailənin razılığı vacib şərtlərdən biri idi. İkincisi isə, oğlanın evlənmək yaşı gəlib çatır, amma qəlbinə yatan qız olmadığı üçün evlənmir. Belə olan halda valideynlər xoşları gəlib, bəyəndikləri qızı oğluna məsləhət görərdi. Oğlan da fikirləşib ya "hə", ya da "yox" deyərdi. Artıq oğlanlarının evlənmək fikri ciddi olanda qız evinə elçi gedilərdi. Elçilik bir neçə dəfə təkrar olunardı. İlk elçilər oğlanın anası, bacısı və yaxın iki-üç qohum qadından ibarət olardı. Onlar əllərində bir ədəd şirniyyat xonçası qız evinə gəlib sözü açardılar. Qız evi də ağsaqqalarını yığıb məsləhətləşmək üçün vaxt istərdi. Yəni bu ailə, bu oğlan bizim qızı layiqli ev xanımı edə bilər, ya yox? Bir neçə gündən sonra, həmin qadınlar ikinci dəfə qız evinə yollanardı. Bu dəfə ailənin ümumi razılığı olardısa, qız anası deyərdi;

-Sizin keçən dəfəki gəlişinizdən sonra, ailədə məsləhətləşdik. Gördük ki, sizlər bizim ailəyə uyğunsunuz, oğlunuz da pis oğlan deyil. Odur ki, ağsaqqallarınız gəlib, bizim ağsaqqallardan qızı istəyə bilər.

Bundan sonra oğlan atası ağsaqqallarla birlikdə qız evinə yollanardı. Onlar təkrar sözü açar, oğlanın və ailəsinin müsbət keyfiyyətlərini söyləyər, sonda da deyərdilər;

-Bizdə üzük var, qaşı sizdədir. Bizdə oğlan var, qızı sizdədir. Özü də bir-birilərini bəyəniblər. Odur ki, qızınızı oğlumuza istəməyə gəlmişik. Son söz sizindir.

Qız tərəfin ağsaqqalları da öz növbəsində;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Biz bir kəndin adamıyıq. Sizləri yaxşı tanıyırıq və inanırıq ki, bizim qızı yaxşı saxlayacaqsınız. Odur ki, allah xeyir versin, mübarək olsun! Qoşa qarısınlar, oğullu-qızlı olsunlar.

Sonra xanımları çağırardılar;

-Ay qız, oradan bizə bir stəkan şirin çay gətirin, ağzımızı şirin edək.

Qız evinin razılığı olmayana qədər, oğlan evi həmin evdə çay içməzdi. Elə ki, "hə" cavabı alındı, çaylar süfrəyə verilir. Razılıq çayının da öz gözəlliyi olur. Belə ki, stəkanın yarısına qədər əvvəl adi qaynanmış isti su və şəkər tozu tökülür, yaxşıca qarışdırılaraq şirin su olur. Sonra dəm almış rəngli çayı ehtiyatla çay qaşığı vasitəsi ilə stəkana əlavə edirlər. Stəkanda çayın aşağı hissəsi ağ-yəni oğlan, yuxarı hissəsi qırmızı-yəni qız olur. Süfrəyə gəlmiş çay qaşıqla qarışdırılır. Bunun da rəmzi mənası odur ki, artıq qızınız oğlumuzla, biz də sizlərlə qovuşub qohum olduq.

Bundan sonra bir vaxt müəyyənləşir. Ad eləmə (nişan) günü təyin olunur. Həmin vaxt xonçalar tutulur. Oğlanın ana-bacısı, qohumları şirniyyat xonçaları düzəldir. Hər xonçanın da üzərinə bir xalat (hədiyyə) qoyulur. Xalat adətən müxtəlif parça və yaylıqlardan (baş örtüyü) ibarət olardı. Qız evi də süfrə açar, gələn qonaqları gülərüzlə, mehribanlıqla qarşılardı. Yemək yeməzdən əvvəl qızı məclisə dəvət edərdilər. Oğlan evinin ağsaqqalı xeyir-dua verərək, nişan üzüyünü qızın barmağına taxar, oğlanın bacısı və ya anası ağ, ya da qırmızı bir şalı (baş örtüyü) gəlinin başına atardı. Bundan sonra hər iki tərəf toya hazırlaşardı.

Qız evidə cehiz tədarükü görərdi. İlk növbədə yorğan-döşək, yastıq (balış) düzəldilərdi. Qıza əsas əşyalarını yerləşdirmək üçün sandıq alınardı. Sandıq məxsusi ustalar tərəfindən düzəldilərdi. Üzərində gözəl rəngbərəng naxışlar olardı. Əksəriyyətinin üzərində qızılgül və güllərin üstündə bir-birinə baxan iki bülbül şəkili olardı. Qız anaları hələ qızları balaca olanda onun cehiz gəbə, palaz və kilimini toxuyardı. Bacarmayan analar bunları satın alardı. Bundan başqa evdə işlənə biləcək bütün əşyalar alınıb cehizə əlavə edilərdi. Adətən, qız ərə gedəndə onun qohumları da cehiz alınmasına

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yardımçı olurdu. Belə ki, kimin nəyə gücü çatır, onu alıb qıza hədiyyə edərdi.

Oğlan evi də ilk növbədə təzə evlənənlər üçün ən yaxşı otaqlarını ayırar, təmir edərdi. Sonra da gəlinə qızıl əşyaları, pal-paltar, geyiniləcək nə varsa, hamısından alıb çamadanlara (əvvəllər boxçada, sonra sinilərdə) yığardılar. Hər ikisi hazır olduqda toyun günü təyin olunardı. Toya bir neçə gün qalmış oğlan evi qız evinə xərc apardı. İmkanından asılı olaraq, bir və ya bir neçə qoyunun başına qırmızı lent bağlayar, qənd, çay, düyü, yağ və qız evinin əsas üzvlərinə (Ata, ana, bacı, qardaş, nənə, baba, dayı, əmi, bibi üçün) xələt göndərərdi. Xələt kişilərə köynək, qadınlara atrez (2-3m uzunluqda kəsilmiş parça) qoyulardı.

Toy üç gün olardı. Məclisi keçirmək üçün mağar düzələrdi. Mağarı qurmaq üçün kəndin cavanları yığılar, taxtalar yerə basdırılar, üstündən dəmirlər atılar və üzərinə çadır çəkilərdi. İçərisinə üç və ya dörd cərgə stol düzülərdi. Stolların kənarında oturmaq üçün yerə kubik daşlar, onun üzərinə uzun taxtalar qoyulardı. Stulları əvəz edən taxtaların üstünə kilim, palaz və döşəkçələr döşənərdi. Mağar boyu gözəl xalçalar asılar, içərisi əvvəldən qızların rəngli kağızlardan kəsib düzəltdiyi bəzəklər və şarlarla bəzədilərdi. Yuxarı başda musiqiçilər üçün yer ayrılardı. İri, ən gözəl xalça oraya asılar, üzərinə pambıqla “Toyunuz mübarək!”sözləri yazılardı. Qız evində bir mağar (yalnız qadınlar üçün), oğlan evində iki mağar qurulardı. Oğlan evində qurulan mağarın birində bir-iki gün əvvəl qadınlar üçün toy olardı. Toyun sonuncu günü kişilər qadın toyu keçirilən mağarda xörəklərini yeyər, əsas mağarda isə rəqs edərdilər. Əsas mağar bir qədər fərqli qurulurdu. Burada xörək yeyilmirdi. Ancaq oturacaqlar düzülürdü və mağar bəzədilirdi. Oturacaqlar üç tərəfi əhatə edər, baş tərəfdə isə musiqiçilər yerləşdirilərdi.

Toyun birinci günü qız evində olardı. Buna Paltarbiçmə deyilirdi. Paltarbiçmədən iki-üç gün əvvəl iki qadın bir-bir evlərə gedər, kəndin xanımlarını toya dəvət edərdi. Qohum-qonşu qadınları sac asıb çoxlu yuxa və təndirdə çörək bişirərdi. Qırmızı kağız

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

torbalar tikilər, içərisinə konfet, peçeniya, noğul yığılardı. Düyü təmizlənər, qənd doğranar bütün xırda işlər (Qabların toplanıb yuyulması və silinməsi, odun doğranması, xalça-palazın toplanması və s.) bir gün əvvəldən görülərdi. Toy günü səhər saat 600-da toy sahibləri yuxudan durar, hər kəs ona tapşırılan işi vaxtında görməyə tələsərdi. Aşbaz köməkçisi ilə birlikdə axşamdan kəsilib doğranmış əti gətirər, iri qazanlara yığıb ocağın üstünə qoyardı. Bizim qadın toylarımızda aş (plov) ət qara ilə, kişi toylarında isə souz (ət xörəyi) bişərdi. Çayçı samovarını tüstülədər, qızlar yuxa sulayar (yumşaq olsun deyə), stolların üstünə süfrələr sərər, güldanlara bağlardan yığılmış tər güllər qoyar, lazım olan qabları düzər, aşıqların (musiqiçilər) stolunun üstünə mütləq məxmər süfrə sərər, mağar sulanar, qonaqları qarşılamağa hazırlaşardılar. Səhər saat 1100-da aşıqlar xoş musiqi sədaları altında toy evinə yaxınlaşardı. Bununla da toy başlardı. İlk əvvəl qızın anası oynayar, aşıqlara xələt (bu ya pul, ya da corab-dəsmal olardı) verərdi. Sonra dərhal aşıqlara ayrıca stol açılar, xörək verilərdi. Onlar tez xörəklərini yeyib, iş başına keçər, gələn qonaqları musiqi ilə qarşılayardılar.

Qonaqlar gəlməyə başlayanda qız evinin ən etibarlı iki adamı girişdə oturar, qarşısına da bir dəftər qoyardı. Toya gələn hər ailə ya qıza hədiyyə, ya da hədiyyə müqabilində pul verərdi. Əvəzində hərəyə toydan bir neçə gün əvvəl qızlar tərəfindən qablaşdırılmış, içərisinə şirniyyat qoyulmuş iki və ya üç balaca qırmızı torba verilərdi. Bunun da rəmzi mənası o idi ki, gələn qonaqlara da allah toy qismət eləsin, ağızları şirin olsun, həmişə belə xoş günlərdə, məclislərdə şirin münasibətdə olsunlar. Qonaqlar əsasən pula üstünlük verərdilər. Fikirləşirdilər ki, birdən mən aldığım hədiyyə onların ürəyincə olmaz, ən yaxşısı mən pulu verim, hədiyyəni özləri alsın. Bütün bunlar kənd adamlarının, qohumların bir-birinə kömək etməsi məqsədini güdürdü. Ona görə dəftərə də yazırdılar ki, səhərsi gün də digərinin xeyir işi olanda, o da ona necə kömək edəcəyini bilsin.

Bütün qonaqlar yerləşəndən sonra, saat 12-1300-arasında əllərində xonçalar və çamadanlar olan oğlan evi gələrdi. Bundan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra süfrəyə çay, salatlar, plov və xurma, kişmiş, ərik qurusu, gavalı ilə birlikdə qoyun ətindən bişirilmiş aş qarası gətirilərdi. Ocaqda və mis qazanlarda bişdiyi üçün toy xörəkləri həddindən artıq dadlı olardı. Xörəklər yeyilib qurtardıqdan sonra, stolların üstü təmizlənər, məclis təzədən qızışar, qız-gəlinlər yorulana qədər oynayardı. Toyun sonunda saat 1700-da bir nəfər paltargöstərən ortaya qoyulmuş stolun üzərinə çıxar, gəlinə və onun yaxınları üçün oğlan evinin aldığı və ən yaxın qohumların bağışladığı bütün hədiyyələri qonaqlara göstərərdi. Hamı, əsas da biz uşaqlar bu səhnəni maraqla gözləyərdik. Çünki, əsas hədiyyələr deyil, onu göstərən qadının gülməli sözləri və xoş avazla oxuduğu mahnılar olardı. Məsələn; gəlinə alınmış uzun paltarı göstərəndə deyirdi;

-Ay qızlar, təzə gəlinimiz bunu geyinib abırlı-abırlı qaynana, qaynata qabağında iş görəcək.

Qısa paltarı göstərəndə ədalı-ədalı sağa-sola yellənər və deyərdi;

-Ay məclis əhli, gəlinimiz bu paltarı geyinəcək, ərinin qabağında bax beləcə, nazlana-nazlana yeriyəcək, sonra da qaynanasına bir təpik atacaq.

Dağlar başı işıqdı,
Gün dağa yaraşıqdı.
Qaynanam məni sevmir,
Oğlu mənə aşıqdı.

Qadınlar bərkdən gülüşərdi. O da əlinə gəlinin alt paltarını alıb üstünə tutar və deyərdi,

-Bir buna baxın, siz allah, gəlinimiz bunu gecə geyinəcək, yar (sevgilisinin) qoynuna girəcək.

Bu gələn yar olaydı,
Əlində nar olaydı.
İkimiz bir köynəkdə
Yaxası dar olaydı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu gecə göyən gecə,
Yar boyun əyən gecə.
Cəsəddə canmı qalar?
Əl-ələ dəyən gecə.

Gözdərin qarasına,
Xal qoyum arasına.
Yar, baxışın dərmandı
Aşığın yarasına.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər; bir öpüm,
Qız da deyər; baş üstə!

Dalınca da Segah muğamı üstə bir ağız oxuyardı.

Ya rəbb, bəlayi eşq ilə qıl aşina məni!
Bəlayi eşqidən etmə, bir an cüda məni!

Sonra da şirin avazla gülməli jest ilə mahnıya keçərdi;

Çıxdım dağlar başına,

Endim bulaq başına.
Gəlsin, qızlar başına,
Geysin örpək başına.

Örpəyi atdım başa,
Sığalı verdim qaşa.
Keçib oturdum başa,
İndi səni min yaşa
A qaynana, qaynana!

Gündüzlər gəzir obanı,
Axşam ağrıyır dabanı,
Oğlu işdən gələndə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamıdan zirək, qaynana!

Gündüz işimi görərsən,
Axşam dinməz durarsan,
Oğlun evə gələndə
Gedib sakit yatarsan.

Nazlanıb oldum gəlin,
Canına oldum qənim,
İndi dinməz durarsan,
Mənə qulluq edərsən.

Doğdun oğul, qaynana,
Yedim noğul, qaynana,
Oğlunu əlindən aldım
Çatla, boğul, qaynana!

Qaynana da neyləsin, gücü dilinə çatır;

Aman əlindən, ay gəlin,
Fəryad əlindən, ay gəlin
Aşaram Dağıstanı
Sənin əlindən, ay gəlin!

Gəz, dolan bağ arası,
Gəl gözümün qarası,
Arvadın məni sevmir,
Nədir bunun çarası?!

Məclisdə hamı onun sözlərinə və gülməli, komik hərəkətlərinə qəh-qəhə çəkib gülərdi. Axırda da stolun üstündə oynaya-oynaya deyirdi;

Gözəllər sona olsun,
Kipriklər şana olsun,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoy, qızlar təzə gəlin,
Gəlinlər ana olsun!

Qarabağın gözəli,
Ay sözləri məzəli,
Əlini əlimə ver,
Gəl, yaşayaq yüz əlli!

Musiqi sədaları altında toy başa çatardı.

Toyun ikinci günü oğlan evində olardı. Burada da yalnız qadın, qız və uşaqlar olardı. Eyni qayda ilə yemək, içmək və oynamaq davam edərdi. Axşam isə qız evinə xınayaxdıya gedərdilər.

Xınayaxdı

Xınayaxma toyun ən mühüm amillərindən biridi. Adətən, bu məclis gecə olardı. Amma xına (həna da deyilir) yaxşı tutsun deyə, səhər tezdən iri çini kasada (Çini qabda xına yaxşı islanar, keyfiyyətli olardı) dəm çayı ilə isladılardı. Xına təbii boyaq bitkisidir. Onu bütöv şəkildə qurutduqdan sonra un halına salırlar. Əsasən İrandan gətirilərdi. Qadınlar xınadan saç boyası kimi istifadə edərdilər. Xına saçlara adətən gecə yatmazdan əvvəl yaxılar, isti bir şeylə bağlanar, səhərə qədər saçda qalardı. El arasında deyərdilər;

-Xına gərək yuxusunu görə, onda yaxşı tutar.

Xınanın saçların dibinin möhkəmləndirilməsində əvəzsiz rolu var. Eyni zamanda saça həm rəng, həm də parlaqlıq verir. Xınanı dırnaqlara qoyduqda həm gözəl görünür, həm də barmaqların kənarlarının didilməsinin qarşısını alır. Xına xoş günə, səadətə, xoşbəxtliyə gedən yolun müjdəçisidir. El arasında deyərdilər;

-Xına sınaqdı, xınasız gəlin olmaz.

Odur ki, toydan əvvəl mütləq bu mərasim icra olunardı. Üzərinə qırmızı güllü yaylıq çəkilmiş çini qab, şirniyyat xonçasının ortasına qoyular, oğlanın bacısı və yaxud ən yaxın bir qohum qadının əlinə verilərdi. Yaxın qohumların, əsas da subay qız, təzə gəlin və uşaqların müşayəti ilə qız evinə yola düşərdilər. Qız evində onları gəlinin ailə üzvləri, rəfiqələri, qonşu-qohumları qarşılardı. Süfrə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

açılar, çay-çörək ortaya gələrdi. Deyə-gülə hamı çörək yeyərdi. Süfrə yığışdırılar, xınayaxma başlanardı. Gəlini evin ortasında oturdar, əvvəl qaşlarının altı və üstü, üzü sap vasitəsilə tükdən təmizlənərdi. Subay qızlar heç vaxt qaş və üzlərini aldırmazdı. Kənddə buna pis baxardılar. Həm də bununla qız-gəlini bir-birindən fərqləndirmək asan olardı. Qızlar avaz ilə bayatılar deyərdi;

Ayım, ulduzum, ay qız,
İstiotum, duzum, ay qız,
Gəl, alım qardaşıma,
Olum baldızın, ay qız.

Əzizim, qoşa gəlsin,
Sürmə çək, qaşa gəlsin,
Taledən nə istəsən,
Diləyin başa gəlsin.

Qızılgülü dərərələr,
Dərib yerə sərərlər.
Xoş o qızın halına
Sevdiyinə verərlər.

Başında ağ şalı var,
Örtübdü, ağ şalı var.
Gəlin, baxın gəlinə,
Gör nə gözəl halı var.

Oğlanın bacısı, bacısı olmasa qohumlarından xoşbəxt bir gəlin, yəni əri və uşaqları olan, mehriban dolanan, maliyyə cəhətdən imkanı olan bir nəfərə xına yaxmaq həvalə olunardı. Boşanmış, əri ölmüş, uşağı olmayan qadınlara gəlinin əlinə xına yaxmağa icazə verilməzdi. Kəndimizdə boşanmaq qəbahət sayılardı. Ailəyə müqəddəs baxılardı. Ailə bir dəfə qurulmalı və onu qorumaq hər iki tərəfin borcu idi. Qadın ərinə, kişi arvadına və uşaqlarına sahib olmalı, onların qayğısını çəkməli idi. Tək-tək hallarda uşaqları

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

olmayan qadınları boşayardılar. Ona görə fikirləşirdilər ki, xınanı bu cür adamların yaxması yaxşı əlamət deyil. Hesab edirdilər ki, təzə gəlinin də taleyi birdən onun taleyi kimi yaxşı olmaz. Odur ki, nigahı uğurlu olan gəlin də xınanı yaxardı. Xınanı yaxana əli uğurlu, xeyirli olsun deyə, ən yaxın adamlar xələt verərdilər.

Xına ilk əvvəl gəlinin başına yaxılar, qırmızı güllü yaylıq və ya qırmızı balaca şamaxı (kəlağayı) ilə bağlanardı. Sonra gəlin barmaqlarının onunu da ikinci büküyə qədər, eyni vaxtda xına kasasının içinə salardı. Sonralar ovcunun içərisinə xına ilə oğlanın da (bəyin) adını yazardılar.

Axırda gəlinin ayaqlarının altına balaca kətil (stul) qoyular, onun ayaq barmaqları, dabanı və ayaqlarının altına da xına yaxılardı. Əl-ayağı qırmızı güllü dəsmalla bağlanardı ki, xına heç yerə yaxılmasın. Daha sonra, növbə ilə qadın və uşaqlar barmaqlarını xına kasasına salar, ovuclarının içərisinə də dairəvi formada xına yaxardı. Bundan sonra, məclis daha da qızışardı. Gəlinin əl və ayaqlarındakı xına quruyana qədər çalıb-oynayardılar. Oğlan evi geri qayıdanda kasada qalan xınanı aparar, gecə bəyin (toyu olan oğlan belə adlanır) əlinin içinə xına ilə gəlinin adı yazılar, çeçələ barmağına və dabanına da xına yaxılardı.

Səhər tezdən gəlin xınanı yuyub-təmizləyər, baş bəzəyini edər və oğlan evinin gəlməsini gözləyərdi.

Toyun üçüncü-sonuncu günü oğlan evinin işi daha çox olardı. Səhər tezdən evin ortasında xanımlar gəlin gərdəyi qurardı.

Gərdəyi qurdum, gəlin,
Bəzəyin vurdum, gəlin,
Yarınla bu otaqda
Qarıyasan, ay gəlin!

Mən gəlin gərdəyini yalnız bir dəfə görmüşəm, amma yaddaşımda çox aydın qalıbdı. Anamgilin yaşadığı Horadiz qəsəbəsinə getmişdim. Qonşumuz Şəmayıl xalagildə toy idi. Şəmayıl xala mehriban, gülərüz, sadə bir xanım idi. Əri Veysəl dayının da xətrini

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hamı çox istəyirdi. Uşaqları balaca idi. Yəni, bəziləri bizimlə yaşıd idi. Onlar Veysəl dayının kiçik qardaşı Firata toy edirdilər. Şəmayıl xalagilin evinin ikinci mərtəbəsində böyük bir otaq vardı. Otağın ortasında gərdək qurulmuşdu. Gərdək o qədər böyük idı ki, otağı iki yerə ayırmışdı. Gərdəyin pərdəsi məxmər, neylon, atlas və ya imkansız ailələrdə çitdən olardı. Şəmayıl xalagildə gərdəyi al-qırmızı neylon parçadan tikmişdilər. Neylon o qədər nazik idi ki, arxasında olanlar aydın görünürdü. Orada qırmızı ipək parçalardan tikilmiş yorğan-döşək, yastıqlar üst-üstə yığılmışdı. Ağ gəlinlik paltarında, başında örpək, əlləri al qırmızı xınalı, üstündə alışıb yanan qızıl əşyaları olan gəlin başını aşağı salıb stolun arxasında əyləşmişdi. Stolun üstündə aşağısına qırmızı lent bağlanmış çıraq yanırdı. Çırağın yanına yenə ortasına qırmızı lent bağlanmış iri güzgü qoyulmuşdu. Aşağıda çalınan musiqinin səsi-sədası otağı bürümüşdü. O zaman həmin gərdəyə elə həsrətlə baxırdım ki, elə bil nağıllar dünyasına düşmüşdüm. Balaca uşaqları adətən gəlin otağına qoymazdılar, amma biz özümüzə yol tapıb içəriyə soxular, həsrətlə gəlinə baxardıq.

Gərdək qurulduğu müddətdə uşaqlar mağarın içərisini sulayıb, süpürərdi. Çayçı samovarın tüstülədər, aşbaz qazanın altını yandırar, yaxından və uzaqdan gələn qonaqlara xörək hazırlayardı. Xörək hazır olanda aşbaz çığırardı;

-Ay toy sahibi, qazanın qapağı açılmır.

Çayçı da deyərdi;

-Ay toy sahibi, samovarın lüləyi tutulub, çay tökülmür.

Bəyin atası gülə-gülə gəlib hər ikisinə xələt verib gedərdi.

Oğlanlar gəlini gətirməyə gedəcək maşınları bəzəyərdi. Maşın olmayan vaxtlar gəlini piyada, daha sonra at belində, arabada gətirərmişlər. Maşının qarşı hissəsinə al qırmızı ipək, atlas, məxmər, gülməxmər parçadan, ya da kəlağayı, şal bərkidərdilər. Bütün bunları elə edərdilər ki, maşın sürətlə hərəkət edəndə, örtük açılmasın. Son dövrlərdə oraya gül səbətləri, gəlin geyimində olan gəlinciklər də qoyardılar. Digər maşınlara da qırmızı parça və ya kəlağayı bağlayardılar. Amma gəlin maşını xüsusi seçilərdi. Kiçik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

maşınlardan əlavə iki dənə də böyük, üstüaçıq Qaz-51 deyilən maşın olardı. Həmin maşının birinə gəlinin cehizi yığılar, digərinə isə cavanlar, uşaqlar və aşıqlar minərdi. Aşıqlar olan maşının üç tərəfinə kənd qadınlarının əldə toxuduqları gözəl xalçalar sərilərdi.

Elə ki, saat 1100 oldu aşıqlar mahnı çala-çala gəlirdi. Oğlan evində bir canlanma, bir qaça-qaç düşürdü, gəl görəsən. Bəyin ata-anası, nənə-babası, bacı-qardaşı qol götürüb oynaya-oynaya aşıqların qabağına çıxardı. Pul və corab-dəsmaldan hər birinə ayrılıqda xələt verərdi. Sonra aralıq qarışmasın deyə, erkəndən gəlini gətirməyə gedərdilər.

Birinci gəlin maşını olardı. Sürücünün yanında bəyin atası, ya da böyük dayısı, əmisi oturardı. Arxasınca imkandan asılı olaraq, iki və ya üç kiçik maşın, sonra iki böyük maşın gedərdi. Birinci maşının üstünə aşıqlar, 5-6 yaşdan 20-25 yaşa kimi oğlan və qızlar minirdi. Aşıqlar yuxarı başda durardı. Musiqi alətləri əsasən Azərbaycanın ən qədim çalğı aləti olan qara zurna, balaban və nağaradan ibarət olardı. İndi ermənilər işğal etdikləri torpağımız, sərvətimiz kimi, bu alətləri, xalq və müasir bəstəkar mahnılarımızı da öz adlarına çıxırlar. Amma, onların bu fikirləri həqiqətdən çox-çox uzaq, uydurma və boş cəfəngiyatdan ibarətdir.

Zurna və balaban tut ağacdan 30-35sm uzunluğunda ustalıqla yonulub düzəldilmiş nəfəsli musiqi alətidir. Üstündə bir neçə deşiklər olardı. Hər ikisinin məlahətli səsi vardı. Balaban nazik uzun, zurna isə ağız hissədən nazik olub qurtarana yaxın enlənirdi. Zurnanın aşağısından zəncir sallanardı. Aşıq çaldıqca, zəncir aşığın ritminə uyğun yellənərdi. Balabanın işi zurnanı müşayət etmək idi. Nağara 1mm qalınlığında ağacı dairəvi (silindir) formaya salar, hər iki üzünə aşılanmış keçi dərisini tarım pərçim edərdilər. Bu dəri nə qədər bərk tarım çəkilərdisə, ritm o qədər gözəl alınardı. Ona görə nağaranın alt və üst hissəsinə keçirilmiş nazik kəndirlərin arasına nağara çubuğu taxaraq dərini vaxtaşırı dartardılar. Nağara əsasən iki nazik çubuqla və əllə çalınardı. Çubuqla çalınanda səs daha bərk və oynaq olardı. Aşıqlar üçün fərqi yox idi ki, qız evinə neçə saat yol gedəcəklər. Onlar yol boyu çalardılar. Maşının üstündə olanlar əllərini oynadar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəndlərin içərisindən keçəndə “hey, hey!” deyib qışqırardı. Bizi sevindirən ən çox bax bu olardı. Qız evi digər kənddə, ya şəhərdə olanda isə yol uzaq olardı, daha çox şənlənərdik. Maşınlar kəndləri keçəndə və qız evinə yaxınlaşanda siqnallar verərdi. Sanki, bu şad xəbəri hamıya deyir, ellərə xəbər yayırdı. Siqnal və musiqi səsini eşidənlər yola qaçar, əl eləyib xoşbəxtlik diləyərdi. Maşınlar qız evinə çatan kimi hamı yerə tökülür, qız qapısından içəri girənlərdən biri mahnı oxuyardı;

Al almağa gəlmişik,
Şal almağa gəlmişik,
Oğlanın adamıyıq
Aparmağa gəlmişik.

Qızılgüllər koldadır,
Əl çatmayan koldadı.
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadı.

Əlində boxça gəlir,
Su dolur, dolça gəlir.
Qardaşımın toyuna,
Başlarda xonça gəlir

Sonra qız və oğlan adamları bir-birinə qoşulub oynayardı. Oğlanın ən yaxın 2-3 qadın adamı gəlinin toy günü geyinəcəyi əşyalar yığılmış xonçanı başı üzərinə qaldırıb, gəlini geyindirib bəzəmək üçün irəli keçərdi. Amma qız adamları qapını bağlayar, xələt istəyərdi. Xələt pul olardı. Xələt verildikdən sonra qapı açılar, oğlan adamları içəri girərdi. Nənəm deyərdi;

-Keçmişdə gəlinə zərli sap və muncuqlarla zərif naxışla işlənmiş qırmızı (parçanın növü oğlan evinin imkanından asılı olaraq dəyişərdi) parçadan tikilmiş özü və qolları uzun paltar geyindirərdilər. Paltarın bədən hissəsi belə yapışardı. Ətəyi büzməli və enli olardı. Eyni ilə Azərbaycan milli rəqslərini ifa edən qızların

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

paltarına oxşayardı. Başında da ya qırmızı, ya da ağ tirmə şal olardı. Şalı gəlinin başına elə atardılar ki, üzü görünməsin.

Mən uşaq olanda isə gəlinlərə dizdən aşağı, çox uzun olmayan ağ rəngli neylon və ya kapron parçadan paltar tikilərdi. Başına ağ kapron örpək atardılar. O örpək çox xoşuma gəldiyi üçün, hələ də yadımda qalıb. Örpəyin uzunluğu 1,5 metr, eni 80 sm olardı. İki ucunda zərlə həkk olunmuş iri üzüm yarpağı və üzüm salxımı təsvir olunmuşdu. O örpəyə elə həsədlə baxardım. Elə bilirdim ki, həmin örpəyi başına atan gəlin mütləq dünyanın ən xoşbəxti olacaq, bəxtəvər yaşayacaq. Gəlin geyindirilib qurtardıqdan sonra, bəyin qardaşı (Qardaşı olmasa, bəyə ən yaxın cavan bir oğlan onu əvəz edə bilərdi) otağa dəvət olunardı. O, əlində tutduğu qırmızı balaca kəlağayını üç dəfə gəlinin başından endirib ayaqlarının altından keçirdər və bu sözləri deyərdi;

Anam, bacım, qız-gəlin,
Əl-ayağı düz, gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız-gəlin!

Sözləri qurtardıqdan sonra, gəlinin belini bağlayardı. Bu qırmızını toy gecəsi bəy yatağa girməzdən əvvəl özü gəlinin belindən açmalı idi. Gəlinin beli bağlandıqdan sonra, qızın atası, əgər atası rəhmətə gedibsə (Yəni dünyasını dəyişibsə), ya dayısı, ya da əmisi qıza xeyir-dua verərdi. Xeyir-dua verilərkən, gəlini yanan çırağın başına üç dəfə fırladar və bu sözləri deyərdilər;

-Qızım, bu günə kimi səni mən böyütdüm, ananla birgə tərbiyə verdik. Bu gündən getdiyin evdə qaynanan anan, qaynatan atandır. Onların dediyi ilə oturub-duracaq, bir sözlərini iki etməyəcəksən. Sənin ancaq xoş sədan bu evə gələ bilər. Əgər onların üzünə ağ olarsansa, verdiyim çörək, çəkdiyim zəhməti sənə halal etmərəm. Odur ki, həmişə sədaqətli, namuslu, evinə, ocağına bağlı ol. Ərinin və onun ailəsinin qulluğunda dur. Allah yolunu açıq, uğurlu eləsin! O evdə oğul-uşaq sahibi olasan, qocalıb qarıyasan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamı bir ağızdan;

-Amin, amin! Allah xoşbəxt eləsin, oğullu-uşaqlı olsun, bir yastiqda qoşa qarısınlar,-deyərdilər.

Deyilənə görə yanan çıraq od-ocaq rəmzidir. Gəlini çırağın, yanan odun ətrafında hərləməklə ona ailəyə, ərinə odlu məhəbbətlə bağlanmağı tövsiyyə edirlər. Çırağı da mütləq xoşbəxt qadın yandırmalı, eləcə də yana-yana oğlan evinə aparmalı, nefti qurtaranda özü sönməli idi. İnanclara görə, çırağın söndürülməsi, ailəyə bədbəxtlik gətirərdi. Sonralar çırağın yanına qırmızı, üstü güllü iki şam da əlavə edildi.

Xeyir-dua verildikdən sonra, gəlinin yengəsi (Yengə atanın və ya ananın ən xoşbəxt, möhkəm ailə dayaqları olan qadın qohumu olardı. Toy gecəsi-zifaf gecəsi gəlinin bilmədiyi bəzi şeyləri ona başa salar, səhərə qədər oğlan evində qalardı. Səhər isə qız gəlin olduqdan sonra, ona quymaq çalıb yedirdər, qızın namuslu, təmiz olduğu xəbərini ailəsinə çatdırardı. Deyərdilər ki, əgər qız toydan əvvəl öz qızlığına sahib çıxmayıb bakirəliyini pozardısa, onu yengəsi ilə atası evinə yola salardılar. Amma bizim kənddə heç vaxt belə bir hadisə baş verməmişdi. Kəndimizin qızlarının ən müsbət keyfiyyəti elə onların namusu və bakirəliyi idi) gəlinə məxsus güzgünü götürər və qabaqda gedərdi. Güzgünün kənarları cızma üsulu ilə yarpaq və güllərlə işlənərdi. Dördkünc olardı, baş tərəfi gül formasında kəsilərdi. Ortasına qırmızı lent bağlanardı. Çıraq kimi güzgü də çox ehtiyatla aparılmalı idi. Əgər güzgü sınardısa, deməli o gəlinin xoşbəxtliyi getdiyi evdə uzun sürməyəcəkdi.

Elə bu vaxt “Vağzalı” rəqsinin sədaları göyə ucalardı. Deməli, artıq təzə gəlin ata ocağından yeni ocağına yola düşür. Bu günə kimi Azərbaycanda bütün gəlinlər “Vağzalı” sədası altında gəlin köçür. Qız anası göz yaşlarını saxlaya bilməzdi. Əlində xeyir-bərəkət simvolu olan bir çörək və üstündə duz qızına yaxınlaşar, onu qucaqlayıb öpər və xoşbəxtlik, səadət diləyərdi. Gəlin də anasına qoşular, kövrəlib evdən çıxardı. Elə bil ki, ömürlük bu evə, ocağa “əlvida” deyirdi. Qapıda duran qız adamlarından biri oğlan evindən “xələt” almadan qapını açmazdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ay oğlanın adamı,
Alım sənin qadanı,
Xələtimi verərsən,
Məni razı salarsan.

Elə ki, qız evdən çıxdı arxasınca bir qab su atardılar ki, yolu aydınlıq olsun.

Yolun açıq olsun, ay gəlin,
Çıraqban olsun, ay gəlin.
Getdiyin o ocaq da
Üzün ağ olsun, ay gəlin!

Gəlini aparan maşın karvanı siqnallar verə-verə yola düşərdi. Balaca oğlan uşaqları tez yüyürüb maşınların qabağını kəsər, yenə "xələt" istəyərdi. Xələt az miqdarda pul olardı. Amma biz balaca qızlar əllərimizə xına yaxanda necə sevinirdiksə, xələt alan oğlan uşaqları da eləcə sevinərdi.

Gəlini gətirən maşın oğlan qapısına çatanda, hamı ora yığılardı. Sürücü qapını açmaz, oğlan evindən "xələt" alar, sonra maşının qapısını açardı. Gəlin utanaraq başını qaldırmadan maşından düşər, iki nəfərin müşayəti ilə evə yaxınlaşardı. İlk işi üzüquylu qapı ağzına qoyulmuş boşqabı sağ ayağı ilə sındırmaq olardı. Bununla da demək istəyirdi ki, bütün söz-söhbət elə qapı ağzında qırılıb tamamlanacaq, evin içərisinə kənar söz-söhbət daxil olmayacaq. Sonra bəyin anası şirinlik, mehribanlıq olsun deyə, boşqaba doldurulmuş şirniyyatı gəlinin başından tökərdi. Uşaqlarda cəld tərpənib şirniyyatları yerdən yığardı. Gəlin otağa daxil olan kimi oturmazdı. Oğlan anası ona yaxınlaşar, boygörüncəyi (gəlinə xələt) verərdi. Boygörüncəyi ya qızıl əşya, ya gəbə, ya bir inək, ya bir neçə qoyun olardı. Qaynana bunlardan birini gəlinə hədiyyə edəndən sonra, gəlin oturardı. O, oturan kimi tez qucağına balaca bir oğlan uşağı qoyardılar ki, gəlinin ilk uşağı nəslin davamçısı, elin dayağı oğlan doğulsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarabağ ocağında,
Şam yanar bucağında
Allah muradın versin,
Ağ oğlan qucağında.

Ayranın duzlu olsun,
Duz töksün, duzlu olsun.
Gəlin qoşa qarısın,
Oğullu-qızlı olsun!

Gəlin gələnə qədər oğlan evi toya gələn qonaqları mağarda əyləşdirər, musiqiçilər onları şənləndirərdi. Bunlar qarmon, klarnet, tar, kamança və qoşa nağarada ifa edənlər idi. Axşam saat 5-6-arasında naxır gələn vaxtı musiqiçilər oturub çörək yeyərdi. Çünki, birdə toy qurtarana qədər yerlərindən tərpənmirdilər. Kənd adamları da bu müddətdə tez evə gedər, mal-heyvanı, toyuq-cücəni yerbəyer edərdi ki, axıra qədər arxayın oturub toya baxa bilsin.

Toy sahibi digər balaca çadırda gələn qonaqlarına yemək verər, onlar da yeməklərini yeyəndən sonra mağara daxil olardı. 600-dan sonra məclis qızışardı. Hamı təzə paltarını geyinər, evdən altına qoymaq üçün balaca döşəkcələr gətirərdi. Qızlar və oğlanlar gözaltı baxışar, sevənlər bir-birinə göz qoyar, subay oğlanlar özlərinə qız, analar isə özünə gəlin seçərdi. Böyüklər məclisdə olduğu üçün cavanlar öz hərəkətlərinə xüsusi fikir verərdi. Toyda sözükeçən bir adam toybaşı olardı. Onun vəzifəsi toya gələnləri yerləşdirmək, növbə ilə onların arzusunu öyrənmək, hansı havaya rəqs edəcəyini bilmək və musiqiçilərə sifariş vermək idi. Bəzən hərə öz rəqsinin çalınmasını gözləmək üçün növbə gözləyərdi. Daha kim istəyir, ortaya düşüb oynamazdı. Hər şey planlı olardı ki, hamıya oynamağa imkan yaradılsın. Kəndin çoxu qohum olduğuna görə mağarın ortası bəzən oynayanlarla dolu olardı. Bəzən biri çox oynayanda və ya içkili olub ortadan çıxmaq istəməyəndə, toybaşı əlindəki nazik çubuqla bir neçə dəfə mağarın ortasındakı ağaca vurardı. Bu ona

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayrılan vaxtın tamamlanmasına işarə olardı. Oynayana bu işarə çatmasa toybaşı həmin çubuqla oynayanın yumşaq yerinə yüngülcə ilişdirərdi ki, "bəs başqaları da oynamaq istəyir". Rəqs edən başa düşərdi ki, limiti keçib. Odur ki, gülə-gülə ortalıqdan çıxardı.

Aşıqların stolunun yanında bir dənə də balaca stol qoyulardı. Orada etibarlı toy adamı oturardı. Çünki, oynayanların əlinə şabaş (bəxşiş pul) verilərdi. Bu rəqs edənlərə hörmət əlaməti idi. Rəqs edən oynayıb qurtarandan sonra, şabaşı həmin stolda oturan adamın qarşısına qoyardı. Şabaş yığan həmin pulun müəyyən hissəsini saxlamaq şərti ilə qalanın sahibinə qaytarardı. Şabaş sonda toy sahibinə çatardı. Rəqs vaxtı musiqini dəyişdirmək istəyən aşıqlara pul verərdi. Aşıqların və şabaş yığılan stolun üstündə "şax" olardı. Bunu qadınlar əllərində oynaya-oynaya gətirib qoyardı. "Şax" usta tərəfindən taxtadan düzəldilmiş budaqlı ağac idi. Həmin budaqlara sap keçirilmiş rəngli konfetlər və peçeniyalar asılar, budaqların ucuna isə alma, armud, heyva taxılardı. Uşaqlar maraqla "şax"a baxardı.

Toyun qızğın çağında bir qabda yanan üzərlik tüstülənə-tüstülənə məclisə gətirilərdi. Üzərlik bədnəzərdən, pis gözdən qorunmaq məqsədilə yandırılar və bu sözlər deyilərdi;

Üzərrik dənə-dənə,
Ocaqdan götür sana,
Nəzəri bəd olanın,
Gözlərinə od dama.

Üzzəriksən havasan,
Yaman dərdə davasan,
Üzzəriyim çartlasın,
Yaman gözlər partlasın.

Toyda həmişə maraqla baxdığım Dadaş əmi ilə Maarif əminin rəqsi olardı. Onlar özlərinə məxsus məzəli rəqs edərdi. Dadaş əmi üzündə gözəl təbəssüm qabaqda, Maarif əmi qıyıqgöz, kök və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

balacaboy onun ardınca düşərdi. Onlar ortaya çıxan kimi hamının üzü gülərdi. Dadaş əmi qarşıda sərin-sərin özünəməxsus hərəkətlərini ritmə uyğun edər, Maarif əmi də onu təkrarlayardı. Azəri kişilərindən fərqli olaraq, onlar heç vaxt cəld rəqslər ifa etməzdilər. Hərəkətləri, üzlərinin ifadə və mimikaları sanki komediyalı bir film idi.

Bəzən toyda kimsə həddindən çox içib keflənərdi. Onu sakitcə dilə tutub mağardan çıxardardılar ki, dava düşməsin. O da ağsaqqalların sözündən çıxmazdı. Hərdən qonşu Qarğabazar kəndinin cavanları da toya gələr, oynamaq üstündə dava salardılar. Belə olanda onları mağardan çölə çıxardar, bir-iki şillə çəkər və evlərinə yola salardılar.

Toyun sonunda bəy tərifi olardı. Yaxın qohumların müşayəti ilə "Evimizə gəlin gəlir" mahnısının sədaları altında bəy və gəlini rəqsə dəvət edərdilər:

Evimizə gəlin gəlir,
Sığallayıb telin gəlir.
Görüşünə elim gəlir, hey!
Çıraqları gur yandıraq, ay yandıraq.
Təzə bəyi şadlandıraq, şadlandıraq.

Bəzi gəlinlər utandığından nə başını yuxarı qaldırmaz, nə də oynamazdı. Hamı onu dövrəyə alar, əlinə pul verərdi. Sonra da sağdış və soldışın əhatəsində dayanmış bəyi tərif edərdilər. Tərif zamanı aşıqlar bəyin ən yaxınlarını bir-bir "xələt" verməyə çağırardı. Məsələn;

Mixək əkdim ləyəndə,
Mikək boynun əyəndə,
Yeddi qurban demişəm
Sən bu kəndə gələndə.

Ələklər, ay ələklər,
Çırmansın ağ biləklər.
Xəbər getsin dostlara

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hasil oldu diləklər.

Əlində var hənası,
Qızılgülün tanası.
Biz də toya gəlmişik,
Hanı bəyin atası?!

Araz aşdı deyirlər,
Kürə qovuşdu deyirlər,
Bizim bəyin bacısı
Hara qaçdı deyirlər.

Həştərxandan gələn gəmi bənd olar,
İçi dolu nabat olar, qənd olar.
Bəyin bibisinin verdiyi xələt
Bütün çalanların ürəyindən olar.

Dəryada qərq olub Nuhun gəmisi,
Bizə xələt versin bəyin əmisi.
Görüm, a bəy, toyun mübarək olsun,
Xalanın verdiyi xələt bol olsun!

Göydə bir ulduz var, adı Talıbdı.
Dostların da yaddan çıxıb qalıbdı.
Görüm, a bəy, toyun mübarək olsun!
Əmioğluna belə toy qismət olsun!

Armud ağacları haça-haçadır,
Əllərim dolaşan saçlar haçadır.
Qoymayın, dayıoğlu aradan qaça
Gəlib xələt verər, hamı əl çalar.

Bu gələn kişinin adı Hacıdı,
Qardaşa dayaq vallah, bacıdı.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gəlib xələt versin bəyin yeznəsi.
Görüm, a bəy, toyun mübarək olsun!
Bacanağın verdiyi xələt var olsun.

Ay qız, ay qız, denə adım Hürüdü.
Duman gəlib bu dağları bürüdü.
Bəy qardaşı indi gözə göründü
Denə, a bəy, toyun mübarək olsun!
Sağdışına, soldışına borc olsun!

Bununla da toy başa çatardı. Bəzi vaxtlar toyun başa çatmasına işarə olaraq, tüfəngdən göyə atəş açardılar. Hamı piyada evinə yollanardı.

Bəzi gəlinlər utanmazdı. Toyunda qol götürüb oynayardı. Kənd adamları da buna pis baxmazdı. Yadımdadır, kəndimizdə Əsnay xalanın sürücü işləyən oğlu Sevdimin toyu idi. O, gec ailə qurmuşdu. Evləndiyi qız Cəvahir xalanın qızı Rəfiqə bir az diribaş idi. Onların toyu olan gün mən İmişli rayonundan gəlmişdim. Babamla orada yaşayan Fatma mamamgilə (bibim) bir həftə idi ki, qonaq getmişdik. Fatma mamam mənə ayaqqabı, yeri yaşıl, üstündə ağ halqalar olan qolsuz, ətəyi geniş, qısa paltar almışdı. Toya vaxtında çatmaq üçün İmişlidən Füzuliyə kiçik təyyarə ilə uçduq. Həmin təyyarəyə dəqiq yadımda deyil, nəyə görəsə "kukruz" deyərdik. Onda mən ilk dəfə idi ki, təyyarəyə minirdim. Özü də kənddən təkcə mən idim ki, təyyarəyə minmişdim. Yaşıdlarım mənə elə həsədlə baxardılar, elə bil kosmosu səyahət edib gəlmişdim. Mən də çox fərəhlənirdim, fors ilə oturub toya baxırdım. Toy da çox maraqlı keçirdi. Bəy-gəlin ortada oynayırdı. Yavaş-yavaş hamı ortadan çıxdı ki, bəylə gəlin oynasın. Təzə gəlin Rəfiqə elə bil buna bənd idi. Yerini geniş görüb qolların qaldırıb, mağar boyu süzməyə başladı. Hamı təəccüblə gəlinə baxırdı. Gəlin necə ürəklə və sürətlə oynayırdısa, başından örpəyi sürüşüb düşdü. Bizi gülmək tutmuşdu. Babam dedi;

-Rəfiqə elə bil əhd eləmişdi ki, toyum olsun, oynayıb hamını yorum.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların mehriban ailələri və çoxlu övladları oldu. Nuruş əmi zarafatla deyərdi;

-Hər dəfə bağa gedəndə, kolun dalından Sevdimin bir uşağı çıxır. Elə bil uşaq bazarı açıblar.

Toydan düz üç gün sonra üçgünlük mərasimi olardı. Qız evi hədiyyə dolu xonçalar ilə təzə gəlini görməyə gələr, onu gəlin olması münasibətilə təbrik edər, yeyib-içər, deyib-gülərdilər. Bundan sonra hər şey öz axarı ilə davam edərdi.

Bəzi vaxtlar qızla oğlan bir-birini sevər, amma ailələr onların evlənməsinə icazə verməzdi. Ya oğlanın özünü, ya da ailəsini bəyənməzdilər. Yaxud da tərsinə, oğlanın ailəsi qız tərəfi qəbul etməzdi. Belə olanda qız könüllü, öz razılığı ilə oğlana qoşulub gedər, iki sevən gənc birləşərdi. Qızın qoşulub qaçması ailə üçün təhqir, qəbahət sayılardı. Amma sevən gənclər bundan yaxşı çıxış yolu tapmırdı. Ona görə də qovuşmaq üçün bu yolu seçərdi. Necə ki, atamın bacısı Alagöz bibim. Onun həyat yoldaşı Hüseyn əmi atamın bacısını dəlilər kimi sevərmiş. Amma babamgil onların evlənməsinə razı olmayıb. Bunu görən Hüseyn əmi dostları ilə birlikdə gecə ikən bibimi qaçırmış, özü ilə birlikdə Bakıya aparmış və xoşbəxt bir ailənin təməlini qoymuşdular. Bu adət ta qədim zamanlardan bu günə qədər gəlib çatıb. Bəzən də elə olardı ki, oğlan qızı dəlicəsinə sevər, amma qızın ona könlü olmazdı. Belə olan halda oğlan qızdan xəbərsiz onu götürüb qaçardı. Qaçırılmış qızlara da eyni qayda ilə toy edilərdi, ancaq fərqi onda idi ki, toy təkcə oğlan evində olardı. Sonralar zorla qız qaçırılmalar qanun şəklində aradan qaldırıldı, yalnız istisna hallarda bu mümkün olurdu. İndi müasir dövrdə qızlarına cehiz və ya əksinə oğlanın gəlinə bazarlıq və toy etməyə maddi imkanı olmadıqda, övladlarının xoşbəxtliyi naminə ailələrin razılığı ilə oğlan qızı qaçırdır, yüngülvari məclis təşkil edirlər.

Qoşulub qaçan qız ata evinə barışığa olmadan gedə bilməzdi. Barışıq adətən, yeni ailədə uşaq doğulduqdan sonra baş tutardı. Ailədə uşağın doğulması azərbaycanlılar üçün ən vacib və müqəddəs amildir. Uşaqsız ailə suyu sovulmuş dəyirmana bənzədilir. Odur ki, qız tərəfi körpənin xatirinə yeni qohumları ilə barışmağa razılaşardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlan evi qız evinə xərc göndərər, elin tanınmış ağsaqqalları və yaxın adamları ilə gəlini götürüb onun atası evinə gedərdilər. Xərc qoyun, qənd, düyü, çay və qızın yaxın adamlarına alınmış hədiyyələrdən ibarət olardı. Beləliklə, süfrə açılar, yeyib içər, barışardılar. Onlar geri qayıdanda isə qıza hazırlanmış cehizi də özləri ilə aparardı. Bəzi hallarda barışıq tezləşə də bilərdi. Məsələn; qızın qardaşı və ya bacısının toyu olardı. Ailə istərdi ki, qızları da o məclisdə iştirak etsin. Yaxud da qızın ailəsində qəfil ata-anasının ağır xəstələnməsi və ya hüzr (yas) olardı. O zaman qız ağsaqqallarla məclisə gələr, onu qəbul edərdilər.

## Payız

Payızda insanlar dayanmadan qışa tədarük görərdi. Evlərin, tövlələrin, axurun üstünü diqqətlə yoxlayar, uçmuş yerləri düzəldərdi ki, yağış və qardan xəsarət görməsinlər. Heyvanların uzun qış günlərində normal qidalanması üçün yemini toplayardılar. Ot, saman tayası yığılar, pambıq çiyidi, arpa, jımıx alıb anbarda saxlayardılar. Heyvanlar qışda rahat yeyə bilsin deyə, samanı əzərdilər. Möhkəm ağır taxtanın altına timsahın belində olan kimi dik-dik üçkünc formalı iti bıçaqlar qoyardılar. Adına vəl deyərdilər. Onu ata qoşar, biz də üstündə oturub, üstünə bərkidilmiş dördkünc taxtadan tutardıq. At dairəvi hərəkət etdikcə, vəlin altındakı otlar doğranıb yumşalardı. Vəlin üstündə oturmaqdan xoşumuz gələrdi. Elə bil ki, maşın səni sürüb aparırdı. Qışda çörək bişirmək üçün odun alar və ya toplayar, bir neçə kisə unu dəyirmanda üyüdüb gətirərdilər.

Qışda inək və qoyun az süd verdiyindən, azuqə ehtiyatı üçün hamı motal tutardı. İlk öncə motal üçün yaxşı qoyun dərisi seçilərdi. Qoyun kəsilərkən onu elə soymaq lazım idi ki, heç bir yerində deşik olmasın. Dəri duzlanardı. Tutulmuş pendir və şor duzlanaraq, dəriyə doldurular, ağzı bərk-bərk bağlanaraq qışa saxlanılardı. Həmin pendir və şor motalda qaldıqca dəyərdi (yetişərdi) və çox da dadlı olardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Külfətin (Ailədəki adamların) sayına uyğun bir və ya bir neçə qoyun kəsilərdi. Həmin qoyun öz iç piyində yaxşıca sacda qovrular, saxsı küpələrə doldurulub, ağzı da aşılanıb qurudulmuş dəri parçası ilə möhkəm bağlanar, qışa qalardı. Qışda həmin qovurmadan az-az götürülüb ya souz, sup bişirilər, ya eləcə qızdırıb yeyər, ya da əriştəli, lobyalı aşla yeyilərdi.

Meyvə qurudular, tərəvəzlər konservilәşdirilər, mürrəbə və cemlər bişirilərdi.

Ayrıca sərin, qaranlıq otaqda (əl yeri deyərdik) küpə və vedrələrdə yağ, bal, doşab, balonlarda növbənöv mürəbbələr, şorabalar, dolma bişirmək üçün turşuya qoyulmuş üzüm yarpağı, qovurma, motal, kisələrdə qoz-fındıq, kartof, qurudulmuş soğan, bir-bir kağıza bükülüb yeşiklərə doldurulmuş alma və armud, ipə düzülmüş üzüm, torbalarda çətənə, küncüt, zoğal axtası, meyvə və bitki quruları, lavaşa və s. saxlanardı.

Qışda evlərdə kimi odun, kimi də kömür peçi qoyardı. Ona görə də payızda bəziləri bir-iki maşın kömür alar, bəziləri də lazım olduğu qədər odunu doğradıb səliqə ilə həyətin bir tərəfində yığardı. İşğaldan bir neçə il əvvəl isə kəndimizə artiq qaz xətti çəkilmişdi. İnsanlar daha rahat yaşamağa başlamışdı.

Payızın son ayları yağışlar yağmağa başlayardı. Bəzən o qədər yağış yağardı ki, evimizin altındakı yoldan balaca maşınlar keçə bilməz, batıb orada qalardı. Traktor çağırardılar, o da gəlib maşını dartıb oradan çıxardardı. Yaz, yay, payız eyni zəhmət tələb edərdi.

## Kəndin inam yerləri

Kəndimiz kiçik olsa da insanların inandığı, səcdə etdiyi bir neçə müqəddəs yerə malik idi. Bunun ən müqəddəsi Şah ocağı idi. Ona Yel ocağı da deyərdilər. Yel ocağı kəndimizdən xeyli aralıda, dağın başında yerləşirdi. Uzaq olduğuna görə ora piyada getmək olmurdu. Axşamdan hazırlıq görər, sübh tezdən ya araba, ya da maşınla oraya gedərdik. Yadımdadır, bir dəfə Həmayıl nənəm məni də özü ilə oraya aparmışdı. Dağın lap başında bir topa qaratikan kolu vardı, ora

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müqəddəs yer sayılırdı. Aşağısında isə balaca bulaq qaynayırdı. Nənəm balaca cam ilə həmin sudan bir xeyli topladı. Artıq gün qızmışdı. Suyu günün altına qoydu, özü isə ayaqlarını suya salladı. Bir qədərdən sonra, nənəm daşların arasına keçıb, gün düşən yerdə daşların üstündə oturdu. Alt köynəyində həmin sudan üstünə töküb çimməyə başladı. Nənəmdən soruşdum;

-Nənə, su soyuq deyil?

-Yox, mənim balam, yaxşıdı. Həm də bu müqəddəs və müalicəvi sudur. Mənim ayaqlarımda yel xəstəliyi var. İldə iki-üç dəfə gəlib, ayaqlarımı suda saxlayanda və çiməndə ağrılarım keçir,-deyə cavab verdi.

Hələ yaz idi. Havalar o dərəcədə isti deyildi. Amma onun içindəki inam onu üşüməyə qoymurdu. Nənəm çimərdən sonra, həmin suyun çıxdığı yerdən qaba doldurub mənə də içirtdi. Axşamdan hazırladığı çantasını açdı. Naharımızı orada etdik. Nənəm ayaqlarını bir az suya qoydu. Axşama doğru ayağa qalxaraq dedi;

-Ağanı ziyarət edib, gedək.

Biz kolların əhatəsində olan bir qəbirə yaxınlaşdıq. Kollara sayı-hesabı bilinməyən rəngbərəng saplar bağlanmışdı. Bunların mənasını nənəmdən soruşanda;

-Bala, bura müqəddəs yerdi. Bu qəbirdə imamlarımızdan biri dəfn olunub. Kimin arzu, niyyəti olarsa, buraya gəlib, niyyət edər və sap bağlayar. Arzusu həyata keçəndə gətirib nəzir qoyar, bəziləri öz bağladığı sapı açıb gedər. Mən təəccübləndim.

-Bu qədər sapın içindən adam öz bağladığı sapı necə seçə bilir?

-İnam olanda, çox asan, - nənəm dedi.

## Ələm ağacı

Ələm ağacı da müqəddəs sayılardı. Bizim evin arxasında-Seyid Zərif mamanın ocağı deyilən yerin yanında qoyulmuşdu. İki uzun və köhnə ağac idi. Heç kim buranı murdarlamağa cəsarət eləməzdi. Bu ağaclarında gövdəsinə çoxlu sayda saplar, qara parça qırıqları bağlanardı. Dibinə iri daşlar qoyulmuşdu. Nəziri (pul və ya bəzi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ərzaqlar) olanlar oraya qoyar, imkanı olmayan onu götürərdi. Sovet hökuməti tərəfindən qadağan edilməsinə baxmayaraq, xalqın qəlbində islama, allaha böyük inam vardı və xəlvəti hər il islam adətinə görə məhərrəmlik ayında-Aşura günü “qətl” olardı. O zaman Ələm ağacından qara və yaşıl bayraqlar asılardı. Kişilər qol-qola girib Məhəmməd Peyğəmbərin və imamların ruhuna dua edərdilər. Başda Mirzalı dayı durardı. O kəndin ağsaqqallarından biri idi. Beli bükülmüş bu nurani qoca, dua oxunan anlarda elə bil cavanlaşır, cəld və qıvraq olurdu. Hamı ona hörmət və ehtiram göstərərdi. Arvadlar sinələrinə vurub İmam Hüseyn və İmam Həsən üçün ağı deyib ağlayardı. Sonra Mirzalı dayıgilin evində bəzədilmiş “Qasım otagı” deyilən kəcavə gələrdi. Kəcavənin üstünə adi günlərdə qara və yaşıl parça sərilər, kənddə ölənləri onun üzərində qəbristanlığa aparardılar. Aşura günü kəcavənin üstünə yaşıl atlas parçadan üz çəkilər, onun da üstündən müxtəlif rəngli parçalar atılardı. Yezid obrazına girmiş bir kişi iki uşağın(Buna Müslüm uşaqları deyərdilər) yalvarışlarına baxmayaraq, onlara su verməzdi. Bununla da insanlara xatırladırdılar ki, İmam Hüseyn və İmam Həsən din, azadlıq, qardaşlıq yolunda bu cür şəhid olub. Sizlər su istəyənə su, ümid istəyənə ümid verin. Allahın bəndələri bir-birinə əl uzadıb kömək etməlidi. Axşam olanda kənd camaatı Mirzalı dayıgildə yığışar, peyğəmbərin və imamların ruhuna mərsiyə deyərdi.

Bir dəfə də Aşura günü nənəm məni Horadiz kəndində İmam deyilən müqəddəs yerdə keçirilən qətlə aparmışdı. Orada uşaqları atın altından keçirdir, guya müsəlman uşaqlarına yezidlərin necə işgəncə verdiklərini göstərirdilər. Mən bərk qorxmuşdum. Babam dinə elə də inanmazdı. Çox vaxt zarafata salardı. Nənəmə həmişə deyərdi;

-Bu uşağı elə yerlərə aparma.

Mən soruşardım;

-Niyə, təzə ölüləri qoyub, köhnə ölüləri ağlayırlar?

Nənəm deyərdi;

-Bunlar imamlardı, peyğəmbərdi. Böyüyəndə bilərsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ailəmiz dinə aid çox şey bilməzdi. Amma atam dini kitabları, S.Ə.Şirvani və İ.Nəsiminin seçilmiş əsərlərinin sonunda verilmiş dini şərhləri daim mütailə edərdi. Yas məclislərində cavadsız mollalara sual verib onları pərt edərdi. Yəqin bu Molla Usub babanın yanında böyüməsi ilə bağlı idi. Həmişə də bizə deyirdi;

-İslam dini insanları düzlüyə, ədalətə, bir-birinə hörmətlə yanaşmağa çağırır. “Quran” kitabını oxuyan görər ki, o başdan ayağa dünyanın idarə edilməsi barədə bir elmdir. Gərək onu elm kimi oxuyub, dərk edəsən. Daha fırıldaqçı mollalar kimi yox. Elə mollalar var ki, bir-iki “Yasin surəsi” bilir, dayaz düşüncə ilə ağzına gələni danışır. Məhəmməd Peyğəmbər buyurub ki, allah bəndələri bir-birinə yardım əli uzatmalı, imkansıza, kimsəsizə və yetimə əl tutmalı, böyüklərə və qadınlara hörmət etməli, kiçiklərin qayğısını çəkməlidir. İnsan paxıl, yaltaq, ikiüzlü, xəbis, qəddar, yalançı, kələkbaz olmamalıdır. İnsanların ardınca qiybət eləmək (danışmaq), yalan danışmaq, insanları incidib qəlbinə dəymək, oğurluq etmək, başqasının halalına (xanımına) göz dikmək, qadınları zorlamaq, allah bəndəsinə xətər toxundurmaq (yaralamaq, əzab vermək və öldürmək), yetimin mal-mülkünə göz dikib yiyə durmaq və s. günah sayılır. Allah hər şeyi görəndi. Bu gün kimə pislik etsən, səhər o övladlarının və ya sənin qarşına elədiklərinin əvəzini qoyacaq. Quran elmli, savadlı insanlara üstünlük verir. Peyğəmbər buyurub ki, elmə sahib ol, insanlara yardım et, namaz qıl, “Quran” oxu və onun müddəalarına əməl et ki, mükəmməl olasan. Əgər elmlə məşğul olub, namaz qılmağa vaxtın çatmırsa, allah bunu sənə bağışlayar. İndiki mollalar pul alıb, ölünü yerdən götürür. Kasıba, varlıya baxmır. Bunlar günahdı. Quranda yazılanların tam tərsidir. Siz özünüz oxuyun, özünüz nəticə çıxardın. Konstitusiyanı diqqətlə oxusanız görərsiniz ki, orada nə varsa, hamısını Lenin ”Quran” və “İncil”dən götürüb. Ona görə də oxuyun, savadlı olun! Hər şeyi öyrənməyə çalışın, dünyanı gəzin, ürəyi təmiz olun, insanlara kömək əli uzadın. Bu sizin bəsinizdir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Seyid Zərif mamanın ocağı

Kəndimizdə Allah adamı sayılan Seyid Zərif mama da hamının inanc yeri idi. Onun ata yurduna Seyid Zərif ocağı deyərdilər. Nənəm ona əmiqızı deyərdi. Arıq, ucaboylu qadın idi. Həmişə uzun, qara rəngli paltar geyinər, başına kəlağayı bağlardı. Kəlağayının bir ucunu alnından hərləyəb gətirərək arxadan bağlayar, digər ucunu isə sinəsindən aşağı salardı. Ağzında yaşmağı olardı. Çox mehriban və səmimi bir insan idi. Üzündən nur tökülərdi. Kim toy etmək istəsə, mütləq Seyid Zərif mamanın xeyir-duasını alardı. O getdiyi yerdə qan davasına son qoyular, küsülülər barışardı. Başı ağrıyan, müxtəlif xəstəliyi olan insanlar onun ayağına gedər və deyərdi;

-Mama, ocağına, cəddinə qurban olum! Əlini başıma çək. Sənə inamım böyükdü.

O, da sakitcə əlini həmin adamın başına çəkərdi. Xəstə doğrudan da yüngülləşər, ya da tamam sağalardı. Hətta, övladı olmayanlar da Seyid Zərif mamanın yanına ümid yeri kimi müraciət edərdi. Atam deyərdi ki;

-Mən uşaq olanda Seyid Zərif mama məni öz köynəyinin altından keçirib. Yəni oğlu kimi qəbul edib, köynəyin altından keçirməklə onu xəta-bəladan qoruyur.

Seyid Zərif mama oğlu Səyyadla birlikdə şəhərdə yaşayırdı. Səyyad əmi də rayonun sayılıb-seçilən kişilərindən idi. Çox ziyalı, savadlı adam idi. Gözəl şerlər yazardı. Kəndin xeyir-şərində mütləq iştirak edərdi. Hamıya bacardığı köməyi etməyə çalışardı. Ona görə də kəndə gələndə hamı onları hörmətlə qarşılar, Seyid Zərif mamanın əlini öpməyə tələsərdi.

Molla Usub ocağı

Molla Usub babanın ocağı Nuruş dayıgilin evinin altında olan 2 tut ağacının yerində idi. Deyilənə görə, niyyəti düz, qəlbi təmiz adamlar cümə günü oradan keçəndə yaşıl rəngdə alov görürmüş. Zümrüd xalamın əri Mamed dayı həyatda, anam isə yuxuda həmin hadisəni görmüşdü. Nənəm deyirdi ki, sovetlər islam dininə qadağa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qoyan vaxtlarda babam Məkkədən gətirdiyi müqəddəs "Quran" kitabını yandırmasınlar deyə, tövlənin divarındakı taxcaya qoyur və divarı hörür. Bir neçə il keçəndən sonra "Quran"ı götürmək istəyəndə onun qeybə çəkildiyini görür. Babam onu murdar yerdə basdırdığı üçün özünü çox qınayır.

Atamın yadında Molla Usub baba ila bağlı xatirələr çox idi. Bir dəfə mənə onlardan bir neçəsini danışdı;

-Qızı, yadımdadır, biz balaca uşaq idik. Havalar isti keçirdi, yağış yağmırdı, hamı narahat idi. Məhsul məhv olacaqdı. Babam kənddə olan qırx dənə balaca oğlan uşaqlarının hamısını su quyusunun başına topladı. Hamımıza da ağ köynək geyindirmişdilər. Kişilər çoxlu çay daşı yığmışdı. Daşlardan birini əlimizə götürürdük, babamla birlikdə uca səslə avazla dua oxuyur, sonra həmin daşı quyuya atırdıq. Beləcə qırx oğlanın hər biri quyuya 40 dua oxunmuş daş atdı. Bir neçə saat keçmişdi ki, göyün üzünü qara buludlar aldı, yağış yağmağa başladı, hamı sevinirdi. Çox təəssüf ki, dualar yadımda qalmayıb. Bircə ziyillə bağlı oxunan dua yadımdadır. (Bacım Sevilin əlinə üç dənə ziyil çıxmışdı. Atam iki dəfə o duanı oxudu və əlini ziyilin üstünə sürtdü. Səhər baxdıq ki, Sevilin əlləri tər-təmizdir).

Molla Usub babamdan atama "gülləkeçirməz" yadigar qalmışdı. Meşin dəri içərisində olan müharibə dövrü yazılmış bu ovsunlanmış dua onu xətalardan qoruyardı.

## Qış

Qış aylarında təsadüfən külək əsərdi. Soyuq və sakit hava hökm sürərdi. Hər yer ağappaq qarla örtülər, damların üstündən yanan ocaqların tüstüsü çıxardı. Evlərin damının kənarlarından şəffaf buz parçaları sallanardı. 20-30 sm, bəzən də 50 sm qar yağardı. Babam tezdən durub qarı kürüyər, mənə dərsə getmək üçün yol açardı. Səhər tezdən xoruzların səsinə oyanan qadınlar ilk növbədə itə yal bişirib verər (Hava soyuq olduğundan xəmir yeməyi onun bədəninə istilik gətirər, xəstələnməyə qoymazdı), toyuq-cücəyə dən tökərdi. Kişilər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heyvanların altını kürüyər (təmizləyər), yemini, suyunu verərdi. Hərdən soyuq olduğu üçün atımız xəstələnərdi. Belə vaxtlarda babam ata dərman verər, ya da başını buxara verərdi. O, samanı vedrədə yaxşıca qaynadar, qalın torbaya tökər, torbanın bir tərəfini atın başına keçirərdi. At nəfəs aldıqca buxar onun burnuna gedər, xəstəliyi tez keçərdi.

Nənəm növbə ilə səhərlər un xörəkləri -xaşıl, horra, quymaq, umac, əriştə bişirərdi və deyərdi;

-Bunları yeyən adamın bədəninə istilik gələr, soyuqlamaz, dərd-azar ondan uzaq qaçar.

Xaşıl bişirmək xeyli əziyyət tələb edirdi. Səhər sübh tezdən nənəm durar, qazanda su qaynadar, sonra bir ovuc ələnmiş unu az-az qaynar suya əlavə edərdi. Qazanı isə oxlovla (ağacdan yuxa yaymaq üçün düzəldilmiş alət) durmadan qarışdırar, təkrar üstünə qoyar, yenə qarışdırardı. Xəmir qaynayıb paqqıldayanda (Biz deyərdik ki, xəmir xoruldayır) hazır olardı. Qablara çəkilər, üzərində üç çala düzələrdi. Həmin çalanin birinə ərinmiş kərə yağı, birinə bəhməz, birinə də bal tökərdik. Nənəmin bacısı Hürzad xalam xəşil bişirməyin ustası hesab edilirdi.

Qışda əriştə yeməyi də ləzzətli olardı. Yuxa yayılar, nazik-nazik kəsilər, noxud və lobya ayrıca qabda bişər, qazanda soğan yağla birgə qovrular, xeyli su əlavə edilərək qaynadılar. Daha sonra kəsilmiş əriştələr ehtiyatla suya tökülər, noxud, lobya, duz, istiot və kəkotu da qatılar, çox dadlı qış xörəyi olardı. Əriştəni yeyəndə həmişə deyərdik;

-Qaşıqda oturub, ayaqların sallayıb.

Qadınların əsas işi yemək bişirmək, paltar yumaq, corab, jaket və jilet hörmək, yun didib, sap əyirmək, xalça, palaz, kilim toxumaq olardı. Corablar da müxtəlif rəngli yun saplardan incə naxışlarla hörülərdi. Qış girən kimi hana qurulardı. Hananın özünün ağacları və qurulma texnikası olardı. Hana qurulduqdan sonra yun və ya pambıqdan əyrilmiş ağ saplardan əriş və arğacın düzərdilər. Hananın üstündən xalçanın naxışlarına uyğun rəngbərəng ip topaları asılardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sapların hazırlanması, rənglənməsi kənd qadınlarının əl əməyi hesabına olardı.

Qış fəsli mənim heç xoşuma gəlmirdi. Ona görə ki, soyuq olduğu üçün evdə çox olurduq. Həm də mən körpə ikən on yaşım olanda, nənəm soyuq bir qış axşamı qəflətən öldü. Onun qan təzyiqi vardı. Həkim yas məclislərinə getməyi məsləhət görmürdü. Ona görə ki, nənəm nə qədər sərt olsa da, bir o qədər də ürəyi yuxa idi. Yasa gedəndə o qədər ağlayardı ki, evə qayıdanda mütləq təzyiqi qalxardı. Nənəmin əmisi oğlu Rəcəb, əmisi qızları Firəngiz və Səriyyə rəhmətə getmişdi. Nənəm bu üç yas yerində çoxlu “ağı” deyib ağlayır. Oradan çıxıb həmin vaxt rayon xəstəxanasında bərk xəstə yatan Xurşud mamamın yanına yola düşür. Xəstəxanada sakitcə üç dəfə onun çarpayısının başına dolanır və deyir;

-Qızımın ölümü varsa, mənə gəlsin. Onun balaları körpə, özü isə cavandır.

Bir az onunla söhbət etdikdən sonra, şəhərdə yaşayan qızı Alagöz mamamgilə gedir. Alagöz mamam dərzi idi. Əlinin zəhməti ilə pul qazanardı. Həyat yoldaşı Hüseyn əmi isə yanğınsöndürmə idarəsində müdir işləyirdi. Çox ciddi, ailəsinə qəlbən bağlı, təmkinli, hər şeyin yerini bilən, işinə məsuliyyətlə yanaşan, rayon camaatının dərin hörmətini qazanan yaraşıqlı kişi idi. Onlar bir-birini sevib, əl-ələ verərək ailə qurmuşdular. Köməkləri olmadığı üçün əziyyətləri də çox idi. Atam da işi ilə əlaqədar çox vaxt onlarda gecələyərdi. Odur ki, hər şeyi daha yaxşı görürdü və həmişə deyərdi ki;

-Yazıq bacım, iynə ilə gör qazır. Gecə səhərə qədər oturub, gözünü kor edir ki, nə var-nə var ailənin büdcəsinə kömək eləsin. Balalarını min bir əziyyətlə böyüdür. Şəhər yerində dörd uşağı böyütmək elə də asan iş deyil.

Nənəm də o gecə mamamgildə axşam yeməyini yeyib, “İşıq və kölgələr” adlı tacik filmini seyr edir. Filmdə Sovet hakimiyyəti qurulmamışdan əvvəl cavan bir qızı zorla qoca kişiyə ərə verirlər. Film nənəmə çox pis təsir edir. Alagöz mamamın böyük qızı Leyla ilə həyətə düşür. Geri qayıdan da pilləkanın dibində qəflətən özünü pis hiss edir. Leyla qışqırıb anasını çağırır, köməkləşib nənəmi evə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaldırırlar. Təcili həkim çağırırlar. Heç beş dəqiqə keçməmiş nənəm gözlərini əbədi yumur. Həkimlərin rəyinə görə qan təzyiqinin qəflətən çox qalxması ölümə səbəb olub.

Nənəmin ölməyi mənim qədər atama da ağır zərbə oldu. Atam nənəsini həddindən artıq çox sevərdi. Elə bil ki, onun dünyası dağılmışdı. Bundan sonra babamın qulluğunda duran mən oldum. Onun paltarlarını yuyar, çay hazırlayardım. Babam həmişə əsl kənd kişiləri kimi altdan ağ rəngli kətan uzun gecə şalvarı və nazik pambıq köynək geyərdi. Babam altdan geyindiyi şalvarla vannada oturar, mən də su töküb çimməkdə ona kömək edərdim. Qonşumuz iranlı Hüseyn (İrandan mühacirət etdiyi üçün təxəllüsü iranlı qalmışdı) əmi deyərdi;

-Ay Lalazər, Arıfın (Atamında adını heç vaxt düz tələffüz edə bilmirdi) qızı sa yaxşı baxır. Mənim bir çətən qız külfətim var, amma köynəyim səninki kimi tər-təmiz olmur. Elə bil ağappaq qardı.

Kənddə hamı kimi mən də paltarı əllə yuyardım. Nənəm öldükdən sonra, qayğısız günlərimə son qoyuldu. Məsuliyyətim artmışdı. Xurşud mamam və qızları da bizə kömək edərdi. Amma çox işi özüm görürdüm. Buna nə dərəcədə nail olduğumu dəqiq deyə bilmərəm. Babamı razı salmaq üçün gördüyüm işlərin təmiz və səliqəli olmasına çalışırdım. Qışda işimiz çox olmazdı. Hava soyuq olduğu üçün hamı kimi mən də evdə olardım. Tez-tez Xurşud mamam və Həmayıl nənəmgilə gedərdim. Kəndimiz balaca olduğu üçün evləri bizə yaxın idi. Həmayıl nənəm zirək, işgüzar, qabiliyyətli idi. Yayda dayanmadan işlədiyi kimi, qışda da bekar durmazdı. Yun didər, sap əyirər, xalça, palaz, kilim, cejim, corab, toxumağı, tikmə tikməyi sevərdi. Xalça və palaz bir-birindən fərqli toxunardı. Əbülfət dədəm hananı birinci mərtəbədəki otaqda qurardı. Qışda alt evlər isti, yayda isə əksinə sərin olurdu. Dədəm vaxtilə kolxoz sədri, sovet sədri işləsə də, sonralar dülgərlik edərdi.

Qapı ağzında qurulmuş kömürlə yanan peçləri evi yaxşı qızdırardı. Axşamlar dədəm çarpayıda uzanıb dincələr, nənəm də toxumaq və ip əyirməklə məşğul olardı. İy vasitəsilə baramadan ipək sap əyirərdi. Barama qurdunun altına yığılan künalı əvvəl yandırır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sonra onun üzərinə su əlavə edib qarışdırardı. Duruldub içərisində baramaları bişirərdi. Soyuduqdan sonra iy vasitəsilə onu əyirib sap edir və onunla cejim toxuyardı. İpək saplar daha keyfiyyətli olduğundan, onunla tikiş tikər və yorğan sırıyardı Mən də gedib maraqla onun işləməyinə baxardım. Yaz və payız qırxınında qoyunlardan əldə elədikləri ən yaxşı yunu nənəm yayda yuyub-qurudardı. Qışda isə həmin yunu arxayın-arxayın didib zibillərdən təmizləyər, sonra da xüsusi daraqda darıyardı. Daraq üçkünc formada taxtadan düzəldilmişdi. Başında iki cərgə sıra ilə eyni məsafədə düzülmüş uzun mismara bənzər dəmirlər olardı. Nənəm yunu bu daraqda o qədər darayardı ki, yun ağappaq, yumyumşaq olardı. Buna əlçim deyərdi. Sonra da əlçimləri taxta cəhrədə təzədən əyirərdi. Cəhrənin bir tərəfi, biri tərəfi isə iri təkərə bənzəyirdi. Əlçimin ucunu az-az cəhrənin aşağısına qoyar, cəhrəni sağ əllə hərəkətə gətirərədi. Yavaş-yavaş sap əyrilib iri təkərə dolanar və hazır olardı. Sapın topasını nənəm əlimə keçirdər, bir ucunu öz əlinə alar, yumaq şəklinə salardı. Bu sapların yarısını olduğu kimi, ağ rəngdə saxlayar, yarısını da boyayardı. Həyətdə ocağın üstünə iri boyaq qazanın qoyar, hər gün bir rəngdə sapları o qazanda qaynadıb, rəngin tam götürdüyünə əmin olduqda boyaqdan çıxardıb ipə sərərək qurudardı. Nənəm əsasən Qarabağda məhşur olan güllü və göl xalçalar toxuyardı. Xalçaları dədəmlə aparıb bazarda satar, pulun bir qismini saxlar, bir qisminə də özlərinə lazım olan əşyalar alardı. Ən çoxda Bakıda yaşayan oğlu Kamilə pul lazım olanda göndərərdi. Ər-arvad elə hey deyirdilər;

-Şəhər yeridir, pul çatdırmaq olmur. Barı bazarlıqlarını kənddən göndərəndə, bir az da pul göndərək. Əlavə ehtiyacların ödəsinlər.

Nənəm xalça toxuyanda hananın qarşısında yerdən mürtəkkə qoyub oturar, naxışlara uyğun sapları seçər, bir-bir ilmələri düyün edib bağlayar, əlində tutduğu ucu aşağıya doğru əyilmiş bıçaqla ipi kəsərdi. Cərgəni başa vuranda kirkiklə sapları dibindən bərkidər, bir qədər toxuduqdan sonra həvə ilə təkrar döyüb bərkidər, daha sonra qayçı ilə artıq sapların kəsər, yenə təkrar işinə davam edərdi. Palaz toxumaq nisbətən asan idi. Burada sap əllə əriş və arğacın arasından

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçirilir, başa çatanda kirkiklə döyülürdü. Rənglərin arası bəzən 5 sm, bəzən də 10-15 sm-dən bir dəyişirdi. Bu da işi sürətləndirirdi. Mən də hərdən ilmə vurmaq istəyərdim. Amma naxışları qarışdıracağımdan qorxan nənəm, buna icazə vermirdi. O öz işini heç kimə həvalə etməzdi.

Həmayıl nənəmgilə kəsə yolla gedərdim. Bu yol iranlı Hüseyngilin qapısının ağzından keçməklə reallaşırdı. Arazın bu tayına keçən Hüseyn əmi çoxları kimi geri qayıtmağa macal tapmamış, sərhədlər bağlandıqdan sonra İran ərazisində olan qohumlarına həsrət qalaraq, bizim kəndə gəlib çıxmış, bəstəboylu, qarayanız Qaratel xala ilə evlənib ailə qurmuşdu. Dişləri atma (protez) olduğu üçün danışanda ağzını marçıldadardı. İki övladı olmuşdu. O, oğlunun ailəsi ilə birlikdə kasıb yaşayırdı. Ona görə ki, ailələri böyük idi. Səhv etmirəmsə, oğlunun səkkiz, ya doqquz uşağı vardı. Gəlini Qara Səkinə (Qara olduğuna görə belə deyərdilər) bütün günü paltar yuyardı. Nəvəsi Vidadi mənimlə bir sinifdə oxuyurdu. Qarğabazar məktəbinə gedəndə yol yoldaşlarımdan biri də o idi. Onlar bizim çəpərin altında olurdu. Həmayıl nənəmgilin evinə gedən yol və Bala kəhriz onların həyətinin altında, balaca dərədə idi. Çəpərlərinin dibi ilə kiçik çay axardı. Bala kəhrizə gedən cığır çay ilə çəpərin arasında yerləşmişdi. Sel gələndə suyun səviyyəsi onların cəpərlərinə qədər qalxar, bir neçə gün oradan keçmək mümkün olmazdı. Hüseyn əmigilin evinin yanında dayanıb, gurultu ilə axan lilli sel sularının qarşısına qatıb diyirlənə-diyirlənə apardığı iri qaya və ya daş parçlarına, kökündən qopmuş ağaclara dəhşətlə baxardıq.

Qışda azacıq gün olanda qoca kişilər Hüseyn əmigilin qonşusu, bizim həyət qapısı ilə üzbəüz yaşayan Mələk xalanın evinin arxasında toplaşar, təsbeh çevirər, siqaret çəkə-çəkə şirin-şirin kəndin yeniliklərindən söhbət edər, özlərini günə verərdilər. Mələk xalanın üç qızı və bir oğlu vardı. Qızları Nuridə və Ziba lal olsa da, Firuzə ilə Maarif danışırdı. Maarif əminin toy şənliklərindəki məzəli hərəkətlərini yazımın əvvəlində qeyd eləmişəm. Zibanın bizimlə yaşıd oğlu Fazil də anadan lal doğulmuşdu. Amma çox sakit adam idilər. Heç kimə dəyib-dolaşmazdılar. Kəndimiz balaca olsa da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ziyalısı çox idi. İbrahim, Hüseyn, Dünyamalı, İslam, İsi, Maral, Fitat, Məhəmməd müəllim, Ruqiyyə tibb bacısı, Əhliman aqranom, Rəcəb əmi iqtisadçı, Mamed zootexnik, Sovet ferma müdiri, Mehdi rentgenoloq, Qızqayıt və Gülşən mühasib, Qaməddin musiqi müəllimi və s. Onlarla ziyalı isə (adını saymaqla qurtarmaz) kənddən iş dalınca şəhərə getmiş, orada yaşamağa başlamışdı. Buna baxmayaraq, daim kəndə gəlib-gedərdilər.

Evimizin arxasındakı təpənin üstündə birinci ev Xurşud mamamgilə məxsus idi. Qışda onlara qalxmaq bir qədər çətinlik törədirdi, ona görə də kişilər bir tərəfdən pilləkən kimi torpağı qazardı. Onda rahat cixa bilirdik. Xurşud mamamgilin evləri iki mərtəbəliydi. Buradan kəndin hər tərəfi, o cümlədən qonşu kəndlər də ovuc içi kimi görünərdi. Odur ki, bekar olanda eyvanda oturub, aydın görünən kəndin avtobus dayanacağına baxardılar. Avtobus müəyyən saatlarda gələrdi. Kəndə kim gəldi, kim getdi, birinci Xurşud mamagil bilərdi. Xurşud mamam o qədər təmizkar idi ki, evinin, həyətinin bir yerində toz, zibil tapmazdın. Səhər lap tezdən oyanar, çalqu (Xüsusi bitkidən hazırlanan süpürgədi. Arxasına ağac taxardılar ki, həyəti süpürəndə aşağıya çox əyilməsinlər) ilə bütün həyəti süpürüb təmizləyərdi. Qızlarını da elə tərbiyə eləmişdi. Çox və sürətlə danışmağı, məsləhət verməyi sevərdi. Sözünə kim əməl edərdisə, onu çox istəyərdi. Xurşud mamam o qədər arıq idi ki, hərdən atam gülə-gülə bacısına zarafatla deyərdi;

-Ay Xurşud, özünə yazığın gəlsin, az danış. Danışmaqdan yarı canın qalıb. Rəhmətliyin qızı, bu dünya belə gəlib, belə də gedəcək. Danışmaq özünə qalacaq. Ye, iç, canına bax. Nəyə ehtiyacın var, de, verim. Qardaşın hələ ölməyib.

O da qollarını atamın boynuna salar, qucaqlayıb sinəsinə sıxılardı.

-Qağa, (Atama belə deyərdi. Qardaş sözünün qısa forması) vallah, mənə heç nə lazım deyil. Təki, sənin canın sağ olsun. Elə sənin adın, sanın mənim bəsimdir. Sən mənim arxam, dayağımsan. Allah sənə dəyməsin. Sənin başından bir tük əskik olsa, ürəyimin başına od düşər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqətən, o, atama o qədər bağlı idi ki, atam rəhmətə gedəndən sonra, gecə-gündüz “Qardaş!”-deyib ağladı. Qısa bir aradan sonra, dərddən o da atam kimi kəndindən uzaqda, qəriblikdə vəfat etdi.

Xurşud mamam heç vaxt özünü xoşbəxt saymazdı. Həyat yoldaşı İsmayıl əmi Lalazər babamın birinci nigahı Tavat xaladan olan oğlu idi. Babam nənəmin dərdindən dəli-divanə olduğu üçün, Tavat xalanı boşayıb nənəmlə evlənir. Amma uşaqlarını da yadından çıxartmır. Uşaqlar yaxında olsun deyə, Xurşud mamamı oğlu İsmayıla alır. Xurşud mamamın da ən böyük arzusu ali təhsil almaq imiş. Dərslərini əla oxuyarmış. Amma arzusu yarımçıq qalır. Odur ki, elə bil bütün arzuları içində ölmüşdü. Hiss olunurdu ki, həyatından razı deyil. İsmayıl əmi alçaqboy, arıq, baməzə (zarafatcıl) kişi idi. Bənna işləyirdi. Qazancını ağır zəhmət hesabına əldə edirdi. İki oğlu, dörd qızları vardı. Hamısına da təhsil vermişdilər. Tamaşa adlı qızları hazırda kimya elmləri namizədidir. Övladları təhsil aldıqca, Xurşud mamamın fərəhdən sinəsi dağa dönürdü. Gülşən (Əvvəllər adı Şüşə idi. Bu ad xoşuna gəlmədiyi üçün dəyişdirib Gülşən eləmişdi) mənimlə bir sinifdə oxuyurdu. Evdə xətrimə dəyən olanda, ya da uzun qış gecələrində darıxanda onlara gedərdim. İsmayıl əmi lağlağı edər, kefimi açardı. Bir dəfə Soltan əminin onun başına açdığı oyundan danışıb, məni çoxlu güldürmüşdü. Soltan əmi də zarafatcıllıqda ondan geri qalmazdı. Ona görə də bu hekayə mənə lap maraqlı gəlirdi.

Deməli, Soltan əmi bir qış günü gecə dəyirmanda un üyüdən İsmayıl əmini qorxutmaq qərarına gəlir. Dəyirmanın dörd tərəfinə dövrə vuraraq, həzin, uzadılmış səslə deyir;

-İsmayıl, İsmayıl!

Əmim bərk qorxur. Tələm-tələsik evə qayıdır. Səhər açılır. Onu görən Soltan əmi deyir;

-Ə, İsmayıl, nə var, nə yox?

Əmim də əvəzində

-Ə sən öləsən, Soltan, bu gecə dəyirmanda unu üyüdə bilmədim.

Niyə?-deyə Soltan əmi soruşur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Ə, başın haqqı, gecə cinlər, şeytanlar dəyirmanı hər tərəfdən dövrəyə almışdılar. “İsmayıl, İsmayıl!”-deyib haray salmışdılar.

-Hə, indi başa düşdüm ki, cinlər niyə elə bərk qorxub. Dəyirmandan qaçıb bizə gəlmişdilər. Dedilər;- İsmayıl necə qışqırıb dəyirmandan qaçdısa, qorxudan zəhrimiz-bağrımız yarıldı,- deyə Soltan əmi qəhqəhə çəkib gülür.

Elə o vaxtdan da bu söhbət bizim ağzımıza düşmüşdü.

İsmayıl əminin anası Tavat xala da onlarla bir həyətdə yaşayırdı. Arıq, ağ saçları olan qoca arvad idi.

Yadımdadır, altı-yeddi yaşım olardı. Gülşən, mən və Xurşud mamanın dörd yaşlı balaca qızı Təranə birlikdə oynayırdıq. Təranə qıvrımsaçlı, incə, zərif, ailənin ən gözəl qızı idi. Rəssamların əsərlərində yaratdığı körpə mələklərə bənzəyirdi. Üçümüz birlikdə həyətdə ocaq qalayaraq oynayardıq. Təranə qısa qolu olan güllü don geyinmişdi. Necə oldusa, qəflətən qızın paltarı od tutub yandı. Yazıq uşaq qorxudan qışqırıb, həyətdə o baş bu başa qaçırdı. Gülşənlə mən ona necə kömək edəcəyimizi bilmirdik. Biz sadəcə qışqırıb köməyə adam çağırdıq. Camaat tökülüb kömək etməyə gəldi, amma gec idi. Yanıq dərin olduğu üçün yazıq qız yaşamadı. İndiyə qədər o səhnə gözlərimin önündən getmir. Doğrudur, onun ölümündə Xurşud mamam bizi də günahkar hesab edirdi. Həm ocaq yandırdığımıza, həm də onu söndürmədiyimizə görə. Amma biz uşaq idik. Nə bilərdik ki, bu belə faciə ilə nəticələnər? Həm də yanan adamı necə söndürərlər, bunu haradan biləydik?

Bir dəfə də kəndimizdə Suqra xalanın qızı Güldəstə mübahisə zəminində üstünə neft töküb özünü yandırmışdı. Yanmış bədəni hələ də gözümün qabağındadır. Yazıq hamıya yalvarıb kömək istəyirdi;

-Siz allah, qoymayın öləm. Mənə kömək edin.

Xurşud mamagilin evinin yanında anamın əmisi Bahadur əmi həyat yoldaşı Aftab (Abutab) xala ilə birgə yaşayırdı. Anamın o biri əmilərinə baxanda, bunlar məni daha çox istəyirdi. Odur ki, mən də onlara tez-tez gedərdim. Onlarda sevincək məni qarşılayar, içəri dəvət edərdilər. İki otaqlı evləri vardı. Mən qapıdan içəri girən kimi, Aftab xala köhnə sandığını açar, oradan mənə konfet, peçeniya və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

meyvə verərdi. Hər ikisi qocalmışdı. Bahadur əminin beli bükülmüşdü. Aftab xala gödəkboylu, dolu bədənli, göyçək qadın idi. Hiss olunurdu ki, cavanlıqda gözəl olub. Gözləri zəif gördüyü üçün qalın linzalı eynək taxardı. Uşaqları böyüyüb, kənddən uzaqlaşmışdı. Həyətlərinin ortasında iri xar tut ağacı vardı. Məhsulu da bol olardı. Deyilənə görə, qanazlığı olan adamlar hər gün bu tutdan yesə, qanı artardı. Odur ki, qohum uşaqları bir-birinin bəhsinə ağacın üstünə cumar, tutdan doyunca yeyər, bir qab da qocalara dərib verərdik. Ağacdan düşəndə əllərimiz, ağzımız, üst-başımız qapqara olardı.

Yaxın qonşularımızdan biri İbrahim əmi, o birisi də Zərəfşan mama idi. İbrahim əmi məktəbdə uzun illər müəllim işləmişdi. O, savadlı, mədəni, sakit adam olduğu üçün hamı ona hörmət edərdi. Uşaqları təhsil ardınca Bakıya getmiş, daha kəndə qayıtmamışdılar. Arvadı Məryəm xala dünyasını tez dəyişmişdi. O da tək yaşamasın deyə, qonşu kənddən Zəhra adlı bir qadınla evlənmişdi. Zəhra da ağıldan deyəsən bir qədər yüngül idi. Evində olan söhbəti, sirri bütün kənd bilərdi. Buna görə də ona dəli Zəhra deyərdilər. İbrahim əmi qocaldığı üçün artıq dərs demirdi. Dini savadı olduğuna görə tək bizim kəndin deyil, eləcə də qonşu kəndlərin yas məclislərində mollalıq edərdi. İbrahim əmiyə görə də Zəhranın sözünün başına ip salmazdılar. (Yəni dediyi sözlər yersiz olanda üstündən keçərdilər) Zəhra İbrahim sözünü düz tələffüz edə bilməz, həmişə “İrbahım”-deyərdi. Bu da bizi güldürərdi. Zəhra ilə ən çox zarafat edən Zümrüd xalamın oğlu Əyyub olardı. O da Əyyubu çox istədiyindən onun sözlərindən inciməzdi.

Zərəfşan mama isə 95-97 yaşlarında qoca və sağlam bir arvad idi. Bizə də qohumluğu çatırdı. Həmişə təbii şeylərlə qidalanardı. Həyətindən yığdığı quşəppəyi, həmənkömənc və qırxbuğumdan buğlama bişirərdi. Balaca qazanında yağ soğan edib azca su tökər, yuyub doğradığı göyərti, düyü və turşunu ora əlavə edərdi. 15-20 dəqiqəyə ya neft maşınkasında, ya da ocaq üstündə yeməyi bişirərdi. Uçuq evi vardı. Evin ikinci mərtəbəsi çoxdan uçmuşdu. Birinci mərtəbə də bərbad vəziyyətdə idi. Otağın baş tərəfində köhnə dəmir çarpayı, üstündə də bir dəst köhnə mitil (yorğan-döşək) qoyub oturar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dərin xəyallara dalardı. Yağış yağanda yazıq arvad evində olan beş-altı qabını da yağış sularının altına düzərdi. Otağın bir dənə balaca pəncərəsi vardı. Evində elektrik olmadığı üçün çıraq yandırardı. (Sonralar nəvələri oranı təmir elədi, həm də elektrik çəkdilər) Zərəfşan mama iki qızını ərə vermişdi. Yeganə oğlu, ciyərparəsi Səttərxan cavan ölmüşdü. Odur ki, qızlarının təkidinə baxmayaraq, xatirələrlə dolu bu evi tərk etmək istəmirdi. Zərif nənəm yemək yeyəndə həmişə onu da çağırardı. Nahar və şam yeməyində çox vaxt o da bizimlə olardı. Hərdən nədənsə gəlməyə utanar və nənəmə deyərdi;

-Əmiqızı, (nənəmi belə çağırardı) əmioğluya (babama deyərdi) denən inciməsin, sonra gələrəm. İndi bir az dincəlmək istəyirəm.

Çox dəyanətli, məğrur, dözümlü olduğu qədər də, sakit təbiətli, asta və aramla danışan, həyalı, namuslu və utancaq qadın idi. Başındakı yaylığın ucu ilə həmişə ağzını yaşmayardı (yumardı). Dişlərinin hamısı yerində idi. Özü də yaşına nisbətən cavan görünərdi. 60-65 yaş ancaq verərdin. Hamı haqqında müsbət danışar, heç kimin qeybətini etməzdi. Bir dəfə ondan soruşdum.

-Zərəfşan mama, niyə gedib qızlarınla qalmırsan, o cür uçuq evdə yaşayırsan?

-Ay bala, bu ev ikimərtəbə olanda, eyvanda qazanlar asılıb, samovar qaynayanda kənddə beləsi yox idi. Bu evin haylı-küylü, çal-çağırlı vaxtları vardı. İndi tale belə gətirib. Mən də pis, yaxşı bir ömür yaşadım. Bu evdə ərimin, oğlumun nəfəsini, istisini duyuram. Onların ruhu mənə nəfəs, güc-qüvvət verir. Bu evdən heç yerə getmərəm. Getsəm, ölərəm. Ancaq meyidim buradan çıxacaq.

Evinin döşəməsi torpaq idi. Hərdən ora şirə çəkərdi. Döşəmə sığallı və sərin olardı. Qışda odun peçi qoyardı. İçində yaydan qurudub yığdığı təzəyi (Heyvanların nəcisinin içinə saman qarışdırılır və divara vurulur. Quruduqda divardan yerə düşür. Buna təzək deyərdilər. Peçin içinə və yaxud sacın altına qoyub yandırardılar. Yaxşı istisi olardı) yandırardı. Darıxanda kəndin çoxu qohum olduğundan, hərdən birinə qonaq gedərdi. Bir dəfə də qış

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günü Xurşud mamamgilə gedəndə onların itini görməmiş, it də onu qapmışdı (dişləmişdi). Soruşanda

-Əmiqızı, mən iti görmədim, ha. Elə çəpəri keçmişdim ki, it üstümə cumdu. Mən də abrımı gözlədim, qışqırmadım ki, biabır olaram. Ancaq üzümü tutdum ki, üzüm zədələnməsin. İt də məni qoydu qabağına, layıxlı-layıxlı yedi.

Bir dəfə də televiziyanın kəndimizə təzə gəlib çıxan vaxtı, Zərəfşan mama Gülüş xalamgilə gedir. Onlar da televiziyada baletə baxırmış. Zərəfşan mama qızların qısa paltarlarını görüb utanır.

-Buy, abrınız tökülsün. Bu nədi, az, geyiniblər? Siz də utanmaz-utanmaz oturub bunlara baxırsınız.

Bir neçə gün üstündən sonra Xurşud mamagilə gedən Zərəfşan mama görür ki, onlar da televizor alıblar. Təsadüfən həmin saatda televiziyada Azərbaycanın Milli Rəqs ansamblının ifasında rəqs nömrəsi göstərilirmiş. Zərif işləməli, uzun, gözəl milli paltarda rəqs edən qızlara baxan Zərəfşan mama özünü saxlaya bilməyib deyir;

-Ay Xurşud, sizin telvizor Dünyamalıgilinkindən abırlıdı. Onların telvizorunda dar şalvar geyinmiş bir kişi, qızın paçasından (ayaqlarının arası) yapışıb qaldırdı göyə. Bala, qız da geyinib lap qısa paltar. Hər yeri qalıb çöldə. Oğlan da altdan-altdan qıza baxır. Biabır oldum. Dinməzcənə çıxıb gəldim.

Bu söz ağzımıza düşmüşdü. Yazıq arvad elə bilirdi, hərənin öz televizor proqramı var. Tay bilmirdi ki, o vaxt yalnız bir kanal-Az.TV kanalı var. Beləcə Zərəfşan mama sərin-sərin danışar, biz də qulaq asardıq.

Zümrüd xalamın əri Mamed kəndimizin zootexniki idi. Hamı ona mal həkimi deyirdi. Kənd adamlarının toyuq-cücəsini və mal-qarasını iynələmək, dərman vermək ona aid iş idi. Eyni zamanda Mamed əmi nəsildən irsən ona keçmiş “dəllək” peşəsinə də yiyələnmişdi. Müsəlman aləmində kiçik oğlan uşaqlarının sünnət edilməsi mərasimlərini ustalıqla yerinə yetirərdi. Mamed əmi həm də ofsunçu sayılırdı. O, ilan tutmaqda mahir idi. Kimin evində ilan olsa onu çağırardılar. O da beş dəqiqə içərisində qorxu bilmədən ilanı tutardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəndin aşpazı Əntiqə xala idi. Xeyir və yas məclislərində xörəklərin hazırlanması işi ona baxırdı. Gözəl plov dəmləyərdi.

Maral müəllimə kəndin ibtidai sinif müəllimi idi. Amerikada yaşadığım illərdə onu unutmamışdım. Səkkiz ildən sonra Vətənə qayıdanda, ilk növbədə didərgin həyatı yaşayan müəlliməmlə görüşmək istədim. Çünki, o kəndimizin canlı yaddaşı idi. Özündən əvvəlki və özü şahidi olduğu hadisələri yaddaşında yaxşı saxlamışdı. Özü də mütailəni çox sevdiyi üçün geniş bilik dairəsinə malik idi. Ərəb dilini bilirdi. Yas mərasimlərində qadın məclislərini idarə edər, dini və əxlaqi söhbətləri ilə diqqəti cəlb edərdi. Amma ümidlərim boşa çıxdı. O da qəribliyə, vətən həsrətinə dözməyib bu dünyaya "əlvida" demişdi.

Maral müəllimə səbrli, mehriban, həlim və olduqca insanları sevən qadın idi. Hamıya hörmətlə yanaşar, mülayim səslə danışar, bir kimsəni incitməz, insanlara bacardığı qədər kömək əli uzatmağa çalışardı. Əri Rəcəb əmini də yaxşı xatırlayıram. Ucaboylu, ağsaçlı, nurani, olduqca ziyalı bir insan idi. Yadımdadır, 1970-ci ildə o da rəhmətə getdi. Övladları Mehdi və Məhəmməd valideynlərinə layiq olmağa çalışırdı. Mehdi rayon mərkəzi xəstəxanasında rentgenoloq işləyidi. Kəndçimiz Qara Səkinənin qızı Nubarla ailə qurdu. Məhəmməd isə Rəssamlıq texnikumunu bitirmişdi. Bir də görürdün rəssam taxtasını yalın (təpənin) başına qoyub, əlində fırçası kəndin mənzərəsini çəkir. Eyni zamanda kəndimizin fotoqrafı olmuşdu. Toy və ad günü məclislərini, sonralar isə səngər dostlarının fotolarını obyektivin yaddaşına köçürərdi. Onun bir əlində avtomat, bir əlində fotoaparat, bir əlində də qarmon olardı. Çünki yaxşı qarmon çalardı. Ağır və gərgin döyüşlərdən qayıdan Məhəmməd, qarmonu sinəsinə sıxar, döyüş dostlarına ruh yüksəkliyi verərdi. O da Almaz adlı bir qızla evlənmişdi. Hər iki qardaşın həyat yoldaşı qaynanaları kimi müəllimə idi.

Əvvəllər kəndimizin həkimi heç bir tibbi təhsili olmayan Səriyyə mama idi. O təbii otlarla müalicə üsuluna üstünlük verər, onları toplayar (Hər gülün, çiçəyin dərilmə vaxtın yaxşı bilirdi), müxtəlif dərmanlar düzəldər və yeri gəldikdə istifadə edərdi. Mədə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sallanmasını geri çəkməklə götürər, qulunc batması, bel boşalması, duzlaşması və s. kimi xəstəlikləri müalicə edər, hətta uşağı olmayanlara da dərman verər və əli düşərli olardı. Yanına gələnlər şəfa tapardı. Yadımdadır, bir dəfə barmağıma nə isə yara çıxmışdı. Elə hey qaşınırdı. Elə ağrıyırdı ki, nəfəsimi çəkə bilmirdim. Nənəm məni Səriyyə mamanın yanına apardı. Evdə yox idi. Gəlini Ətlaz xala dedi;

-Ay Zərif xala, xoş gəlmisən, keç içəri. Nə yaxşı, sən allah?

-Az (Ay qız sözünün qısa forması) Ətlaz, Səriyyə əmiqızı hardadı?

-Zərif xala, çayın qırağında oturub.

Nənəmlə həyətlərinin aşağısına, çayın qırağına getdik. Görüşüb, öpüşdülər. Səriyyə xala;

-Əmiqızı, xeyirdi, belə dar vaxtı gəlməkdə?

-Hə, əmiqızı, uşağın barmağını göstərmək istəyirəm. Nə isə yara çıxıb, neçə gündür yazıq uşağı yaman incidir, yata da bilmir,- dedi.

O heç oturduğu yerdən durmadı. Barmağıma baxdı, sonra ətrafa göz gəzdirdi. Enli yarpaqlı bitkini (Bağayarpağı deyən bu bitki çox dərdin dərmanı kimi istifadə edilir) qırdı, əzib yaramın üstünə qoydu və bağladı.

-Mənim balam, bu gecə də yaran səni bir az incidəcək. Amma sarğını açma. Azca dözsən, barmağındakı çirkin hamısı gəlib töküləcək,- dedi.

Evə gəldik. Bir-iki saatdan sonra, barmağım bərk ağrımağa başladı. Üç-dörd saatdan sonra ağrı kəsdi. Mən də elə dərin yuxuya getdim ki, gəl görəsən. Axı, neçə gün idi yata bilmirdim. Səhər ağrısız yuxudan oyandım. Nənəm tez sarğını açdı. Sarğı bütöv çirk olmuşdu. Amma barmağımın şişi tamam çəkilmişdi. İki gündən sonra isə yaram tamam sağalmışdı.

Əvvəllər bütün qohumlar üç ay yayı bizdə keçirdərdi. İmişli rayonu isti olduğuna görə Fatma mamam uşaqları ilə kəndə gələrdi. Evimiz musiqi sədaları, gülüş və qəhqəhələrlə dolardı. Nənəmin ölümündən sonra evimizin dadı, duzu qalmadı. Ev suyu sovulmuş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəyirmana döndü. Nənəm öləndə vəsiyyət etmişdi ki, məni yerdən musiqi ilə götürün. Qohumlar nənəmin meyidini evdən çıxartmamış, atamın gətirdiyi musiqiçilər “Segah” muğamı, daha sonra molla Yasin surəsini oxudu. Nənəmin məzarı indi erməni işğalı altındadır. Atam nənəmin qəbrini ziyarət edə bilmədiyi üçün həmişə fikir edirdi.

Nənəmin ölümündən bir neçə il keçəndən sonra, babam Aşağı Əbdürrəhmanlı kəndindən Leylan adlı ortayaşlı bir qadınla evləndi. Qohumlar bundan sonra bizə nadir hallarda gəlməyə başladı. Evimiz elə darıxdırıcı olmuşdu ki…

Leylanın əvvəlki ərlərindən övladı olmamış, bacısı qızını övladlığa götürmüşdü. Çox pisniyyət arvad idi. Nənəm kimi xanım-xatın arvaddan sonra, mənim ona heç ürəyim yatmadı. Ona görə ki, bütün hərəkətləri süni idi. Doğrudur, sifəti yaraşıqlı idi. Üzünün cizgilərindən hiss olunurdu ki, cavanlıqda lap gözəl olub. Amma qəlbi təmiz deyildi. Güləndə gözləri qıyılırdı. Gecələr yatanda altıma balaca bir döşəkcə salırdı. Əvvəllər nənəmin altıma saldığı iri döşəyi götürmüşdü. Yayda çox vaxt pamidor yumurta bişirərdi. Bunu nənəm səhərlər bişirdiyi halda, bu həmişə nahara bişirər, üstünə də nədənsə şəkər tozu əlavə edərdi. Şirin olduğu üçün mən bu yeməyi sevməzdim. O, həmişə babama məni pisləyərdi. İstəmirdi ki, babamla qalım. Babam onunla evlənəndə nənəmin daim barmağında gəzdirdiyi gül üzüyünü ona hədiyyə etmişdi. Bu məni qəlbən incitmişdi. Üzüyün ortası qırmızı yaqut, kənarları ağ qaşlardan ibarət idi. Bir gün Leylan hay saldı ki, bəs üzük yoxa çıxıb. Yəqin Gülbəniz götürüb. Həqiqətən, mənim o üzükdən xəbərim yox idi. Bu Leylanın məni qovmaq üçün növbəti kələyi idi. Mən ağlaya-ağlaya Xurşud mamamgilə getdim. Onun da Leylanın xasiyyətlərindən xoşu gəlmirdi. Nənəsinin yerini tutduğu ilə də barışmırdı. Atamla anam Leylanın hərəkətlərini eşidəndə bərk qəzəbləndilər və dedilər;

-Biz uşağı nənəmə, dədəmə görə vermişdik. Dedik ki, qocadılar, başları qarışsın, buyruqlarına baxsın. Day demədik ki, Leylan gəlib ona oğru desin, gün verməsin.

Orta məktəbi bir qədər Horadiz qəsəbə orta məktəbində, İX-X sinifləri isə Füzuli şəhərinin mərkəzinə köçdüyümüzə görə, Bünyad

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sərdarov adına şəhər orta məktəbində davam etdirməli oldum. Bu illərdə bizimlə paralel sinifdə oxuyan Camal adlı oğlan atalar demişkən; “ Mənə göz verib, işıq vermədi”. Onun iri qara gözləri vardı. Rəngi də qara idi. Adını “Qara Camal” qoymuşdum. Bəzi dərslərdə siniflərimiz birləşərdi. O da dərsə deyil, elə hey mənə baxardı. Dərsdən çıxandan sonra da, evə qədər arxamca düşüb izləyərdi. Bu məni olduqca çox narahat edər, əsəbləşdirərdi. Amma onun heç vecinə də deyildi. Artıq məktəbdə hamı, o cümlədən, müəllimlər də Camalın məni sevdiyini bilirdi. Yavaş-yavaş özümü ələ alırdım ki, onsuz da orta məktəbi bitirdikdən sonra yadından çıxaram. Amma əksinə oldu. Ali məktəbə qəbul oluna bilmədik. Mən Mənzil-kommunal təsərrüfatı idarəsində işləməyə başladım. Camal da iki illik hərbi xidmətini başa vurub geri qayıtdı. İki gündən bir elçi göndərirdi. Tanıdıqlarımızı atama minnətçi salırdılar. Onun sevgisi normal sevgidən çox, Məcnunun sevdasına bənzəyirdi. Anası bir dəfə mənə dedi;

-Ay qızım, Camal beş bacının bir qardaşıdır, nə olar, oğlumu incitmə. Nə desən, onu sənə alaram. Təki, oğlum üzülməsin.

Onu da qeyd edim ki, məni sevənlərin içərisində təkcə o, vəfalı oldu. Düz 21 il inadından dönmədi. Anası iki dəfə onu evləndirsə də, o tezliklə ayrıldı. Yalnız mən Amerikaya gedəndən sonra, ailə həyatı qurdu. Onun bu ülvi, təmiz hisslərinə həsəd aparırdım. Onu sevə bilmədiyim və incitdiyim üçün özümü narahat hiss edirdim.

Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və Mülkü Tikinti fakültəsinə qəbul olundum. Beş il şən və maraqlı, bir-birindən rəngarəng, eyni zamanda çətin tələbəlik illərini yaşadım. İlk gün dərsə girəndə otaqda 24 oğlan gördüm. Qız təkcə mən idim. Texniki institut olduğu üçün, həm çoxlu çertyoj çəkərdik, həm də dərslərimiz ağır idi. Ona görə də buraya qızlar az sənəd verərdi. Məndən fərqli olaraq, düşünərdilər ki, bu kişi işidir. Əsl qadın sənəti müəllimə və ya həkimdir.

Mühazirələri üç qrup birləşib keçərdik. Yetmiş iki oğlan və üç qız. Qızlardan Təranə və Lalə Bakıdan idi. Bəzi mühazirələrimiz yorucu olardı. Darıxanda şəkil çəkməyi sevərdim. Şəkillərimin də

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövzusu buludlar arasında körpə mələklər, ağlayan qadın və ilanla dost olan qızdan ibarət idi. Qrup yoldaşım Allahyar bu şəkillərin altından şer yazardı. Təranə isə tələbəlik illərinin xatirəsi kimi bunların hamısının altından tarixini və çəkildiyi mühazirə dərsinin adını qeyd edərək yığıb saxlardı. Oğlanlarımızın çoxu şer yazardı.

Bakının Yasamal deyilən yerində kirayədə qalırdıq. Beş illik otaq yoldaşım həm yerlim, həm də tələbə yoldaşım Xanım idi. Ümumiyyətlə, fakültə üzrə 10-13 qız vardı. Ən yaxın tələbə dostum Lətafət, Lalə, Xanım və Təranə idi. Lətafət kiçik cüssəli, arıq, çəlimsiz qız idi. Adına “çəpər serçəsi” deyərdim. Təranə isə əksinə. Ortaboylu, qarayanız, mehriban idi. Ancaq mənimlə gəzərdi. Hərdən şənbə və bazar günlərində onlara gedərdik. Ailəsi Ələtdə yaşayırdı. Atası Məhəmməd dayı və anası Ballı xala yolumuzu səbirsizliklə gözləyərdi. Elə ki, oraya çatdıq, bacıları Rəna və Yeganə bizə qoşulardı. Pünhan kiçik olduğu üçün öz işində olar, bizə qoşulmazdı. Gecə hamımız bir otaqda yatar, gecəyarısına kimi söhbət edərdik. Yay tətillərində tələbə inşaat dəstələrinin tərkibində Rusiyanin şəhərlərində işləyər, institutdan xarici ölkələrə və Azərbaycanın dilbər guşələrinə səyahət edər və dincələrdim. Məhəmməd dayı ilə Ballı xala Tərişi (Təranəni mən belə çağırardım) gözdən uzağa qoymazdılar. Mən də onun üçün darıxardım. (Təranə ailə qura bilmədi. İnstitutda oxuduğu vaxtlardan başlayaraq, hərdən sağlamlığında problemləri olurdu. Amerikadan daim onunla əlaqə saxlayırdım. Lazım olan dərmanlardan kömək etməyə çalışırdım. 2005-ci ildə mənim vətənə gəlməyimə və onun görüşünə getməyimə az qalmış bir vaxtda uzun sürən xəstəlikdən vəfat etmişdi. Göz yaşları içərisində valideynlərinə başsağlığı verdim). Səfər təəssüratlarımı 20-25 səhifəlik məktubla ona çatdırardım. Həmişə deyərdi;

-Ay Gülbəniz, kaş ali məktəbi bitirənə qədər sən ərə getməyəsən. Sən ərə getsən, mən tək qalacağam.

Mənə çox bağlı idi. Mən də gözəl geyinməyi, deyib-gülməyi xoşlayırdım. Nədənsə məni sevənlərin də sayı çox idi. Bəziləri dərdimdən dəli-divanə olmuşdu. Odur ki, qızlar deyirdi;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Gülbəniz hamımızdan tez ərə gedəcək.

Amma, tərsinə oldu. Qızların hamısından gec ailə quran elə mən oldum. Oğlanlar çox olduğuna görə oturub-durmağımıza, hərəkətlərimizə və özümüzə fikir verərdik. Ad günlərinə, bulvara sahil parkına, kinoya birlikdə gedərdik. İmtahanlara bir ay qalmış işimiz gərginləşərdi. Kağız və karandaş əlimizdə gecə-gündüz layihələrin üzərində işləyər, hesabatına oğlanlarımız kömək edərdi. Bəzən gecəni səhərə qədər dirigözlü açar, yatmazdıq. Amma arada zarafat və deyib-gülməyimizdən də qalmazdıq. Mən daha şən idim. Bikef olmağı heç sevmirdim. Tələbə dostlarımızdan Qurban, Allahyar, Ərəstun, Zirəddin mənə hətta şer də həsr eləmişdi.

Mənim Gülbəniz bacım

Sözləri; Qurban Qurbanov
Mətni; Əflatun Baxış

Lalələr açılar yanaqlarında,
Nəğmə yuva qurar dodaqlarında,
Kədər sevinc olar hər bir çağında,
Qoymaz rəfiqələrin heç darda bacım,
Ay mənim mehriban, Gülbəniz bacım!

Qızlar da gözündən həya diləyər,
Günəş bənizindən ziya diləyər,
Çəmənlər, çiçəklər boya diləyər,
Bircə an görünsə yollarda bacım,
Ay mənim mehriban, Gülbəniz bacım!

Sevinc bulaq olub axar gözündə,
Şimşəyə çevrilib çaxar gözündə,
Min şer yaşayar bircə sözündə,
Toy-bayram olacaq gələndə bacım,
Ay mənim mehriban, Gülbəniz bacım!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün dost-tanışdan bircə söz umar,
Dodaqda təbəssüm, bircə söz umar,
Qurbanla Laləyə səadət umar,
Həmişə düz olar ilqarda bacım,
Ay mənim mehriban, Gülbəniz bacım!

İnstitutda oxuyan vaxtlarda bəzən dərsə məsuliyyətlə yanaşmır, zəif oxuyardıq. Atam belə şeyləri sevməzdi. Deyərdi;

-Sən oxu, mən də nə qədər desən pul verərəm. Gedib ürəyin istəyən şeyləri alarsan, gəzərsən və görərsən ki, dünyada nələr var.

İmtahanlara hazırlaşıb qiymət alardım. Ona görə də atam mənə yaxşı pul verərdi. Mən də həm yaxşı geyinər, həm də səyahət edərdim. Macarıstan, Rumuniya, Özbəkistan, Rusiyanı və Azərbaycan rayonlarının əksəriyyətini gəzmişdim. Yaxşı da geyinərdim. Hər gün paltarı dəyişərdim. Ona da uyğun əl çantamı, ayaqqabımı, bər-bəzəyimi seçərdim. Əlabbas deyirdi;

-Gülbəniz, oğlanlar öz aramızda danışırıq. Görəsən, bu gün Gülbəniz hansı rəngdə geyinib gələcək.

Beləcə, beş illik qayğısız və mənalı tələbəlik həyatım su kimi necə axıb keçdi, heç özüm də bilmədim. Amma nə sevənlər kimi sevdim, nə də sevgi həyatı yaşadım. İnstitutda oxuduğum illərdə qəlbimdə birini gizli-gizli sevirdim. Hiss edirdim ki, o da mənə biganə deyil. Amma var gücümlə bunu gizlətməyə çalışırdım. 1982-ci ildə təyinatla Azərbaycanın ən böyük layihə institutlarından biri olan və Bakıda yerləşən Azərbaycan Dövlət Baş Layihə institutuna göndərildim. Təcrübəli və istedadlı memar Tələt Əhmədovun rəhbərlik etdiyi emalatxanada mühəndis kimi işə başladım. İnstitutun direktoru həddindən artıq tələbkar adam idi. Hər gün səhər saat 900-da aşağı düşər, qapıda dayanıb işə kecikənləri qeyd edərdi.

İşimiz ağır idi. Yorulmadan bütün günü layihələrin üzərində işləyərdik. Baş mühəndis Arif müəllim başda olmaqla, Almaz, Zümrüd, Elmira, Fəridə, Nailə və Larisa xanım mənə yardımçı olurdu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilmədiklərimi həvəslə mənə öyrədir, yol göstərirdilər. Tələbə yoldaşlarımla da əlaqəmi kəsmirdim. Vaxtaşırı görüşürdük. Günlərin bir günü ürəyimdə gizli saxladığım tələbəlik illərinin nişanəsi olan sevgimə onun evlənmək xəbəri ilə zərbə vuruldu. Sanki dünyam yıxıldı. Çox stressli anlar yaşadım. Uzun müddət özümə gələ bilmədim. Bu az imiş kimi, bir tərəfdən də respublikada siyasi gərginlik yaşanır, hadisələr tez-tez dəyişirdi.

Erməni terroru

İnstitutda bizimlə birgə Vladimir adlı bir erməni və Davud adlı bir tatarda çalışırdı. Bir ailənin üzvü kimi hamı mehriban dolanırdı. Günlərin bir günü, 1988-ci ildə qəflətən Vladimir ərizə ilə işdən getdi. Əvvəlcə onun bu hərəkətini adi hal hesab elədik. Elə bildik ki, özünə başqa yerdə iş tapıb. Amma sonradan hadisələrin gedişi göstərdi ki, bu heç də belə deyilmiş. Demə, bu bir siyasi gediş imiş. 1988-ci ilin fevral ayından başlayaraq, ermənilər Stepanakertdə (Ermənilər 1923-cü ildə Mərkəzi Komitəyə müraciət etmiş, qardaşlığın və dostluğun rəmzi olaraq, 1923-cü il 7 iyulda Azərbaycan Mərkəzi Komitəsinin qərarı ilə Xankəndinin adını məhz bu cür dəyişdirmişlər) mitinqlər etməyə başladılar. Ermənistan ərazisindəki bütün kənd və qəsəbələrinadınızaman-zaman dəyişdirib erməniləşdirdilər. Azərilər dillənmədi. Səlahiyyətli orqanlar buna dostluq, qardaşlıq donu geyindirdi. Sonra isə Moskvadakı havadarlarına arxayın olub, azərbaycanlıları kütləvi surətdə əsrlər boyu yaşadıqları doğma yurd-yuvalarından təhdid və silah gücünə qovuldular. Təkcə, 1988-ci ildə 40897 azərbaycanlı ailə, yəni 185519 nəfər azərbaycanlı deportasiya olundu. Bütövlükdə 1988-1992-ci illər arasında Ermənistan ərazisində yaşayan 250 min azərbaycanlı tamamilə ata-baba yurdundan qovuldu. Bütün var-dövləti ermənilər tərəfindən əlindən alınan xalq, göz yaşları içərisində soyuq qış gecəsində bəziləri dağları aşaraq, bəziləri də ayaqyalın, paltosuz vaqonlara doldurulub Azərbaycana göndərildi. Dost-qardaş dediyimiz ermənilərin bu hərəkəti qarşısında donub qalmışdıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yavaş-yavaş Xankəndində yaşayan qabaqdan gəlmişlik edən ermənilər, işğalçılıq siyasətlərinin bir hissəsi olan torpaqlarımızı azadlıq, müstəqillik adı altında ələ keçirmək istəyirdi. Yenə də təəccüblənirdik. Axı, qədim tarixə malik Dağlıq Qarabağ 1747-ci ildə Qarabağ xanı Pənah xan tərəfindən tikilmiş Pənahabad şəhərinin tərkibində olmuş, 1826-cı ildə Rusiyaya birləşdirilmişdi. 1890-cı ildə Osmanlı dövlətinin zəifləməsindən istifadə edən ermənilər 1905-1906-cı illərdə Azərbaycanda qırğınlar törətməyə başlamışdı. Nənəmin biz uşaq olanda dedikləri yadıma düşürdü. O deyirdi;

-Bala, biz uşaq idik. Ermənilər arvad-uşağa baxmırdılar. Kim gəldi öldürürdülər, evləri yandırırdılar. Axırda azərbaycanlılar ayağa qalxıb, onları öz yerlərində oturtdu. Biz səbəbini soruşanda;

-Ay bala, insanların gözü torpaqdan doymur. Ona görə də öləndə üstlərinə bir ovuc torpaq atırlar. Əlbəttə, torpaq davası edirdilər. Bizə deyirdilər ki, siz həmişə onlara yaxşı olun. Onlar görəndə ki, biz onlarla dostuq, utanacaqlar. İndi, şükür allaha sakitlikdi, hamı bir-birinə dost, kivrədi.Erməni –müsəlman bir-birinə “can” deyib, “can” eşidir. C.Cabbarlı “1905-ci ildə” əsərini bax o vaxtların hadisələri əsasında yazıb.

Amma çox təəssüflər olsun ki, tarixi saxtalaşdıran ermənilər yenə də sakit dayanmadılar. Təzədən hər yerdə insanlar qan-qada ilə üz-üzə, göz-gözə qaldı. Tarixin bircə anına nəzər salaq.

1639-1723-cü illər, 1804-cü il, 1805-ci il, 1808-ci il, 1827-ci il, 1828-ci il rus qoşunlarının saysız-hesabsız hücum və mühasirələri qarşısında qorxu bilmədən mübarizə aparan İrəvan xanlığı sonda məğlub oldu və bədnam Türkmənçay müqaviləsinin şərtlərinə görə Rusiya imperiyasının tam mülkiyyətinə çevrildi. İrəvanda, eləcə də Qarabağda azərbaycanlılarla yanaşı bir çox millət yaşayıb, o cumlədən ermənilər də. Amma onlar çox az olub.

İlk dəfə ermənilərin Qarabağa köçürülməsi 1830-cu ildə baş verib. 1911-ci ildə Rusiyanın Zaqafqaziyadakı siyasəti haqqında N. Şavrov yazırdı; - “Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyadakı rusları deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq...1826-1828-ci illər müharibəsinin qurtarmasından sonrakı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

iki il ərzində, 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənisi köçürmüş və onların Yelizavetpol(Gəncə) və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra, 90-cı illərdə 400 minə yaxın erməni yenə də Qafqaza köçüb gəlmişdi. XX əsrin əvvəllərində Qarabağdakı 1,3 milyon ermənininin 1 milyondan çoxu köçürülmə idi.” (mənbə “Новая угроза русскому делу в Закавказье» 1911. ст. 59-63)

Rusiyanın İrandakı səfiri Qriboyedovun təşəbbüsü ilə 1828-ci il fevralın 26-da İran erməniləri işğal edilmiş ərazilərə köçürüldü. Martın 9-da Xoydan 4500 ailə, iyunun 11-dək 100 aysor ailəsi, 6149 erməni ailəsi köçürüldü. Qriboyedovun ermənilərin köçürülməsi ilə bağlı İ.F. Raskeviçə yazdığı təliqəsində isə 1928-30-cu illər arasında İrandan 40 min ermənninin Naxçıvan, İrəvan və Qarabağa köçürülməsi barədə məlumat bildirilir. Ermənilərin ən böyük dayaqları isə Rusiya və İran dövləti idi. Yenə həmin dövrdə Ədirnə müqaviləsinə əsasən, Osmanlı imperiyasından 90 min erməni Qarabağa köçürülür.

Şopen yazırdı; 1829-1832-ci illərdə İrandan köçürülən ermənilər 366 ailə tərkibində 1715 nəfər İrəvan, 265 ailə tərkibində 1110 nəfər Naxçıvan və 36 ailə tərkibində 182 nəfər Ordubad şəhərində yerləşdirildi. Qısa müddət ərzində İrəvan əyalətində 2137 ailə tərkibində 10.652 nəfər yerləşdirilmişdir.Hətta Qarabağa və Zəngəzura da 1300 ailə köçürülmüşdür. İrandan 25131 nəfər ( 4428 ailə) köçürüldükdən sonra, İrəvan xanlığı ərazisində onlar 24 faizdən 43 faizə çatmışlar. Bundan əlavə, İrəvan və Naxçıvan xanlıqları ərazisinə 324 nəfər (67 ailə) yezidi kürdü də köçürülmüşdü.

Daşnaklar 1918-ci il may ayının 28-də Tiflisdə erməni (Ararat) respublikasının yaranmasını elan etdilər. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasının qərarına əsasən, İrəvan şəhəri siyasi mərkəz kimi ermənilərə verildi. 1917-ci ildən 1918-ci ilin martına kimi 135 min azərbaycanlı doğma torpaqlarından qovuldu. Amerika alimləri Casrin və Karolin Makkertinnlərin məlumatına görə, 1920-ci ildə 180 min müsəlman İrəvan quberniyasından

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qovuldu. 1930-cu ildə isə İrəvan quberniyası anlayışı ləğv edildi. 1948-1950-ci illərdə SSRİ Nazirlər Sovetinin qərarı ilə 150 min azərbaycanlı (1500 ailə) İrəvandan Azərbaycana köçürüldü. 1946-1948-ci illərdə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumuniyadan 100 min erməni Ermənistana köçürüldü. 1960- 1990-cı illərdə də bu ənənə davam etmiş, Ermənistan ərazisində bir dənə də olsa azərbaycanlı qalmamış, evləri talan edilmiş, özləri zorla qovulmuşdur.

Qafqazdakı rus qoşunlarının komandanı A.P.Yermolovun göstərişi ilə (1816-1827-ci illər arası) hazırlanmış "Təsvir"ə görə Qarabağda köçürmədən sonra yaranmış vəziyyətə nəzər salaq. 20.095 ailədən 15.729 nəfəri (71%) azərbaycanlı (1.111 nəfəri şəhərdə, 14.618 nəfəri kənddə), 4.366 (21,7%) erməni (421 nəfər şəhərdə, 3.945 nəfər kənddə) olmuşdur.

Hətta, 1872-ci ildə neft sahələrinin hərracı prosesində 167 neft şirkətindən 55-ni ermənilər ələ keçirdi.

1918-ci ildə Azərbaycanda cümhuriyyətin yaranmasından sonra, 1919-1920-ci illərdə ermənilər Zəngəzur, Cəbrayıl, Şuşa, Füzuli qəzalarında təkrar iğtişaşlar törətməyə başlayır. 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə ermənilər gizli fəaliyyətə keçir.

Hadisələr başlayan vaxtlarda isə Dağlıq Qarabağ Muxtar Vilayətində vəzifədə işləyənlərin 80%-ini artıq ermənilər təşkil edirdi. Azəriləri sıxışdırmışdılar. Bizlərdən fərqli olaraq, Moskvaya arxalanan ermənilərə dövlət tərəfindən daha artıq diqqət və qayğı vardı. Evlərində qaz, isti su, rahat asvalt yolları, əmək haqları da bizlərdən yüksək. Bizim Füzuli rayonu Ağbulaq (Ermənilər onun da adını dəyişib Hadrut qoymuşdu) rayonu ilə qonşu idi. Ermənilər kənd təsərrüfatı ilə məşgul olsun deyə, rayonumuzun əkin və bağ sahələrindən ayırıb onlara vermişdilər. Asvalt yolun bir kənarını ermənilər, digər kənarını isə azərilər əkib-becərərdi. İnanmazsınız, əmək haqqı hesablananda, onların əmək gününə düşən məvacib bizlərdən 2 dəfə artıq hesablanırdı. Ona görə də bəzi azərbaycanlılar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gedib erməni yerində işləyirdi ki, yaxşı maaş ala bilsin. İnanmayanlar istədiyi vaxt o dövrün arxiv sənədlərini qaldırıb baxa bilər.

Odur ki, hamı təəccüb içərisində baş verən hadisələri izləyirdi. Xankəndi (Stepanakert), Ağdərə (Martuni), Ağbulaq (Hadrut), Xocavənd (Mardakert) rayonlarına getmək müşkülə dönürdü. Ermənilər sərnişinlərlə dolu avtobusa od vurub yandırır, günahsız insanları güllələyirdilər. Xankəndində yaşayan azərilərə təzyiqlər olunmağa başlandı. Hüquq-mühafizə orqanlarında çalışanlar və vəzifədə işləyənlər iş yerlərindən kənarlaşdırıldı. Öldürülən azərilərin erməni qatillərinə gözün üstə qaşın var deyən tapılmırdı. Azərilər dövlət strukturlarına şikayət edəndə

-Hadisələri böyütməyin, təxribat yaratmayın. Biz ermənilərlə dost və qardaşıq. Müvəqqəti haldır, keçib gedəcək,-deyə camaatı geri qaytarırdılar.

Ermənistandan azərilərin kütləvi axını zamanı insanlar artıq əsəblərini cilovlaya bilmirdi. Özlərini təhqir olunmuş, alçaldılmış hesab edərək, nümayişə çıxdılar. Öz etiraz səslərini ucaltdılar. Əvəzində isə, ermənilər bundan öz xeyirlərinə səmərəli istifadə etdilər. Belə ki, sentyabr ayından başlayaraq, Bakıdakı mənzillərini altdan-altdan sataraq, Azərbaycanı tərk elədilər.

1988-ci ilin yanvar ayının 14-də səhər tezdən radioda eşitdik ki, Sumqayıtdakı erməniləri yanvarın 13-ü gecəsi azərilər qırıblar. Bizim Bakıda heç nədən xəbərimiz olmadığı halda, bütün xarici kanallar öldürülmüş erməniləri göstərirdi. Sonralar Rusiya xüsusi xidmət orqanlarının apardığı istintaq sübut etdi ki, həmin erməniləri öldürən bir-iki azərbaycanlını qızışdırıb arxasınca aparan erməni Eduard Qriqoryandır. Üzləşdirmə zamanı iki erməni bacıları onları zorlayıb vəhşicəsinə döyən adamın Eduard olduğunu (üzləşdirmə zamanı bir neçə nəfərin içərisindən) göstərmişdi. Erməniləri də amansızlıqla qətlə yetirən məhz, o olmuşdur. (Sonrakı araşdırmalar zamanı bir daha faktlarla sübut olundu ki, məhz ermənilərin fonduna pul köçürməkdən imtina edən ermənilər həmin gün qətlə yetirilib) Amma əvəzində ruslar qismən günahkar olan azərbaycanlı Əhməd Əhmədova ölüm cəzası verdilər. Vəzifəsini özündən artıq sevən, o

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zamankı Azərbaycan hökumətini idarə edənlər isə susdu. Dərhal hökm yerinə yetirildi. Rusiya hökuməti faktlar əsasında sübuta yetirilmiş hadisələrin təşkilatçısı olan erməni Eduardı 15 il həbs cəzası verdi və bir neçə ildən sonra isə tam azadlığa buraxdı.İstintaq sənədlərinin çoxunu məhv elədilər. Bütün bu faktlar hadisələrin müəyyən ssenari əsasında, planlı və düşünülmüş şəkildə ermənilərin və o dövrdə fəaliyyət göstərən Rusiya təhlükəsizlik xidməti əməkdaşlarının birgə həyata keçirdiyini təsdiqlədi.

1990-cı il 20 yanvar gecəsi rus qoşunları insanlıqdan kənar üsullara əl atdılar. Ehtiraz səsini ucaldan silahsız dinc insanları tankların altına atdı. Qoca, cavan, hətta uşaqlar güllə-boran edildi. Yenə faktlar əsasında məlum oldu ki, Bakıya göndərilən həmin polkun əksəriyyəti ermənilərdən ibarət xüsusi təyinatlılardı. Ona görə də, vəhşiliyin həddi-hüdudu olmayıb. Bir gecədə şəhid olmuş 130 azərbaycanlı və 1 rus Şəhidlər Xiyabanında dəfn olundu. Onlarla insan yaralanıb əlil oldu. Yüzlərlə insan itkin düşdü. Şahidlərin dediyinə görə, həmin gecə izi itirmək üçün çoxlu sayda meyidləri gəmilərə doldurub Xəzər dənizinə tökdülər. Səhər tezdən Bakının küçələrinə çıxanda dəhşətə gəlmişdim. Küçə və səkilər, divarlar, bir sözlə hər tərəf alqırmızı qana boyanmışdı. İçərisində insanlar olan maşınların üstündən tank keçmişdi. Xəstəxanalar meyid və yaralılarla dolmuşdu. Hüzn və kədər içərisində olan xalq, əllərində qırmızı qan rəngli qərənfilləri küçələrə düzür, yaralılara qan verməyə tələsir, əzizlərini axtarırdılar.

Ürəyi soyumayan ermənilər terror aktı törədərək, Bakıda 20 Yanvar metro stansiyasında iki dəfə partlayış təşkil edərək, onlarla adamın ölümünə bais oldular.

Bundan sonra hadısələr məcrasından çıxmağa başladı. Ermənilər daha da azğınlaşdı. Rusiyanın Xankəndində olan 366-cı moto-atıcı polkunun köməyi ilə Dağlıq Qarabağ ərazisində yaşayan bütün azərbaycanlılara açıq-aydın hücumlar olunmağa başladı. Azərbaycan kəndlərinin əksəriyyəti erməni kəndləri ilə qonşu idi. Azərbaycanın Rusiyadan ayrılmaq istəyi bu dövlətin maraqlarına zidd olduğuna görə, erməniləri daha da qızışdırıb qabağa verdilər. Rus ordusu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

komendant saatı elan elədi, azərbaycanlıların əlində olan bütün növ silahları, o cümlədən ov tüfənglərini də zorla aldılar. Əvəzində erməniləri hərbi bazalarındakı minamyot, pulemyot, top, avtomat, tank, BMP, "Qrad" və "Alazan" qurğuları ilə tam təchiz elədilər. Haqsız başlanan bu müharibə azəri millətinə ağır zərbə oldu.

Qəribə idi. Ali məktəbdə təhsil aldığım müddətdə həmişə gözü yaşlı qadın şəkilləri çəkməyi çox sevərdim. Tale elə gətirdi ki, göz yaşları həyatda ən yaxın həmdəmim oldu. Ürəyimdəki gizli məhəbbətin daşa dəyməsi məni onsuz da yerlə-yeksan etmişdi. Kədəri özümdən uzaq etməyə çalışsam da heç cür bacarmırdım. Müharibənin başlaması, hər gün tökülən qanlar, şəhid olmuş igidlər bu dərdin üstünə yeni bir dərd gətirirdi. Tez-tez cəbhə bölgələrində olur, səngərlərdə qorxu bilməyən qoçaq oğullarla görüşür, müsahibələr alır və çox çətinliklə respublikanın o dövrdə fəaliyyət göstərən mətbu orqanlarında dərc etdirirdim. Evdə otura bilmirdim. Gecələr yuxum elə bil ki, ərşə çəkilirdi.

1991-ci ilin noyabr ayında rayonumuza növbəti səfərim zamanı OMON-çuların yerli komandiri Mehdi Abbasovla qarşılaşdım. İlk andan onun igidliyi və qorxmazlığı diqqətimi cəlb elədi. Az danışırdı, amma onun adı əsgərlərin dilindən düşmürdü. Öyrəndim ki, bu yaraşıqlı oğlan ailəsi ilə birlikdə 1977-ci ildə doğma yurd-yuvası Ermənistanın Amasiya rayonunun Yeniyol kəndindən zorla qovulmuş azərilərdən biridir. Onlar bir müddət Qazaxıstan respublikasında yaşamışdı. Azərbaycanda məlum hadisələrin başlamasından sonra, Rusiyada milis kapitanı işləyən Mehdi, əvvəl özü, sonra isə onu tək qoymaq istəməyən ailəsini buraya-Azərbaycana gətirmişdir. O bir neçə idman növü üzrə respublika və ittifaq çempionu, hərbiçi, ali təhsilli mütəxəssis idi. Qısa zaman kəsiyində bacarıq və qabiliyyəti ilə bu zonada da sözünü deyə bilmişdi, "Qara canavar" və "Mixaylo" ləqəbini qazanmışdı. Onun mənə biganə olmadığını hiss edirdim. Açığı mənim də ondan çox xoşum gəlirdi. Qəlbimin dərinliyində bir işartı közərməyə başladı. Ancaq vaxtsız ölüm onu da alovlanmağa qoymadı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1992-ci ilin yanvar ayının 13-də Füzuli rayonunun Cuvarlı kəndində silahsız kəndlilərin müdafiəsinə gedən zaman ermənilər tərəfindən güllələndi. Yalnız ölümündən 3 gün sonra, bundan xəbər tuta bildim. Ancaq olanlara heç cür inana bilmirdim. Həyat eşqi ilə çırpınan bir ürək necə sönə bilərdi? Yenicə kimə isə bağlanmaq istədiyim anda, təkrar onu da allah mənə çox gördü. Dəfn olunduğu qəbristanlığın yerini öyrəndim və oraya getdim. Gördüklərimdən qəhr oldum. Onun dəfn olunduğu Yasamal qəbristanlığının bir tərəfində müsəlman, digər tərəfində isə xristianların dəfn olunduğu məzarlar vardı. Təsadüfən onun qəbrindən sonra erməni qəbirləri başlayırdı. Ermənilərin təzyiqi nəticəsində iki dəfə köçkünlük həyatı yaşayıb və erməni snayperinin gülləsindən şəhid olasan, igidlikdə ad çıxarasan, sonra da Şəhidlər məzarlığında dəfn olunmaqdansa, erməni qəbri ilə yanaşı dəfn olunasan. Bu ağlasığmaz bir iş idi. Odur ki, Mehdinin ailəsi ilə görüşdüm. Qəbrin Şəhidlər Xiyabanına (Əvvəllər burada qəbristanlıq üzərində sovetlərin dövründə inşa edilmiş İstirahət parkı olmuşdu. 1990-cı ildə Rus imperiyasının qanına qəltan etdiyi 20 Yanvar şəhidləri, daha sonra isə Qarabağ şəhidləri bir-birinin ardınca burada dəfn olundu) köçürülməsi üçün onların razılığını aldım və əlaqədar təşkilatların qapılarını döydüm, onlarla dövlət məmurunun qəbuluna getdim, böyük çətinliklərdən sonra, nəhayət ölümünün 40-cı günü məzarının Şəhidlər Xiyabanına köçürülməsinə nail oldum.

Həmin gün indiki kimi yadımdadır. Bir gün əvvəl xiyabanda qəbir qazıldı. Səhər məzarın köçürülməsi üçün hazırlığa başladılar. Bizdən asılı nə olduğunu soruşdum.

-Plastik paket və odekalon,- deyə cavab verdilər.

Mən gizli məhəbbət rəmzi olan inciçiçəyini çox sevərdim. Bunu bilən rəfiqəm Səkinə Çexslovakiyaya səfəri zamanı mənə oradan inciçiçəyi ətri gətirmişdi. Heç açmamışdım da. Mehdinin də bu çiçəyi sevdiyini eşitmişdim.Həmin gün ilk ağlıma gələn də həmin ətri və bir dəstə inciçiçəyini qardaşına vermək oldu ki, səhər gülü məzarın üstünə, ətri isə məzarın üstündəki güllərin üzərinə səpsin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhər yuxudan erkən qalxdım. Özümü pis hiss edirdim. Geyinib küçəyə çıxdım, gül mağazasının qarşısında dayandım, çoxlu qırmızı qırınfil aldım. Taksiyə əyləşdim və sürücüdən Şəhidlər Xiyabanına sürməsini xahiş etdim. Yolda sürücüradionu işə saldı. Birdən Azərbaycanın Xalq artisti Rübabə Muradovanın yanıqlı səslə oxuduğu və Mehdinin də ən çox sevdiyi "Qaragilə" mahnısının sədaları ətrafı bürüdü. İxtiyarsız gözümdən yaş axmağa başladı. Güzgüdən bunu görən taksi sürücüsü dedi;
-Ay bacı, səhər hələ indi açılır, niyə ağlayırsan?
Dillənmədim. Amma göz yaşlarıma da hakim ola bilmədim.
Gəlib parka çatdım. Bir vaxtlar tələbə yoldaşlarımızla deyib-güldüyümüz bu parkda indi neçə-neçə şəhid uyuyurdu. Elə bil çiyinlərimdə ağır bir yük vardı. Yavaş-yavaş Mehdi üçün ayrılmış qəbirə yaxınlaşırdım. Heç kəs gözümə dəymirdi. Niyə gecikiblər? – deyə düşündüm. Demə, Mehdinin atası Yusif əminin tapşırığı ilə meyidi bir saat əvvəl gətirib basdırıblar ki, Gülbəniz onu bu vəziyyətdə görməsin. Mən ora çatanda artıq dəfn mərasimi başa çatmışdı. Qəbrin üstü bütöv tər qərənfillərlə örtülmüşdü. Qəlbində mənə olan məhəbbəti özü ilə qəbirə aparan igid azəri oğluna olan məhəbbətə minnətdarlıq əlaməti kimi mənim verdiyim inciçiçəyi də onların arasında idi. Sonralar anası Mərcan xala mənə dedi ki;
-Ay qızım, Mehdi axırıncı dəfə evə gələndə boynumu qucaqlayıb dedi ki, "Ana, bu dəfə gələndə sarısaçlı Qarabağ gözəlini sənə gəlin gətirəcəyəm." (Mən o vaxtlar saçımı saraldırdım) Oğlumun arzusu ürəyində qaldı. Amma, sən bizə tez-tez gəl. Onun iyini barı səndən alım. O gündən mən də onların bir qızlarına çevrildim. Düzü, övlad dərdinə dözməyən Mərcan xala tez rəhmətə getdi. Amma Yusif dayı və övladları ilə bu günə kimi daim əlaqə saxlayırıq.
Beləcə, müharibənin gətirdiyi fəlakət hər yerdə açıq-aydın hiss olunurdu. Kəndlər və qəbirstanlıqlar dağıdılıb viran olur, xarabazarlığa çevrilirdi. Qospitallarda yaralı əsgərlər ölümlə mübarizə aparır, erməni əsirliyindən yarımcan qayıtmış insanlar – qoca, uşaq və qadınlar gördüklərini dəhşətlə xatırlayır, yüzlərlə şəhid məzarları yan-yana düzülürdü. Bütün bunlar bir elin, bir xalqın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

faciəsindən xəbər verirdi. Hara baxırdımsa, xalqımın düşdüyü bu dərd-bəla məni sarsıdırdı. Ən yaxın adamlarımın bəzisi şəhid oldu, hamısı yurd-yuvalarını tərk etdi, evsiz-eşiksiz qaldı. O cümlədən, 3 ildən artıq bir müddət ərzində hər gün atılan top və qrad qurğularının mərmiləri altında yaşayan ailəm, bütün ömrü boyu min bir əzab-əziyyətlə qurub-yaratdıqlarını bir günün içində itirdi. Rus moto-atıcı diviziyasının köməyi ilə əli silahsız xalqı öz el-obasından didərgin saldılar. Ermənilər əvvəlcə o evlərin var-yoxunu talan etdi, sonra da od vurub yandırdı. Boranlı, şaxtalı qış günlərində çadırlarda soyuqdan titrəyən körpələr və qocalar min bir fəlakətə düçar oldu. Hara baxırdımsa dərd, kədər, ana naləsi, göz yaşları mənə rahatlıq vermirdi.

Görəsən, əsrlər boyu qonşu yaşadığımız ermənilər bu qədər qan tökməkdən nə üçün zövq alırdı? Niyə hər iki xalqın onlarla ocağı sönməli, körpələr atasız, gəlinlər ərsiz, analar oğulsuz qalmalı idi? Qonşu dövlətin torpaqları hesabına öz ərazilərini genişləndirmək istəyən, "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni daşnakları hər iki xalqın faciəsinə səbəb oldu, erməni uşaqların beyinlərini sərsəm fikirlərlə doldurdular. Dünya xalqlarının xoşbəxt, firavan yaşadığı bir dövrdə bizi müharibəyə sürüklədilər. Günü-gündən fikir çəkməkdən tamam arıqlamışdım. Çörək də yemək istəmirdim. Anam hey deyinirdi;

-Ay bala, ora-bura az qaç. Dünyanı sən düzəltməyəcəksən ki? Qarnına bir tikə şörək ye. Vallah, təzyiqin düşəcək, ayaq  üstə dura bilməyəcəksən, xəstələnəcəksən.

Amma özümlə bacara bilmirdim. Qara xəbərlər bir-birinin ardınca gəlirdi.

1992-ci ilin yanvar ayında Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndi, fevralın 25-dən 26-na keçən gecə isə Xocalı da ermənilər görünməmiş vəhşiliyə əl atdılar. Heç kimə aman vermədilər. 613 ölü, 487 yaralı, 1275 əsir, 6 ailə bütöv məhv oldu. Qospitalda güllə yarası almış, ayaqlarını don atmış qadın, uşaq və qocaları göz yaşları içərisində danışdırdım. Dərdlər müxtəlif idi. Kimi bütöv ailəsini, kimi 3 oğlunu, kimi qızını ailəsi ilə, kimi üç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

körpəsini və ərini, kimi valideynlərini, kimi cavan gəlinini, saymaqla qurtarmayan dərdlər. Valideynlərini itirmiş körpələr, körpəsini itirmiş analar dəhşətdən özlərinə gələ bilmirdilər. İnanmıram ki, onlar gələcəkdə də o gecənin dəhşətini unuda bilsinlər.

Ölmüş insanların qulaqları, döşləri kəsilmiş, dəriləri soyulmuş, gözləri çıxarılmışdı. Bütün bunlar xarici jurnalistlər tərəfindən foto plyonka və video-kameraların lentinə köçürülsə də, özlərini əzabkeş millət kimi qələmə verən ermənilərə sübut etmək müşkülə dönüb. Sonrakı günlərdə əsirlikdən qurtarıb vətənə dönən Xocalı sakinləri gözləri önündə əsirlərə verilmiş dəhşətli işgəncələrdən ürəkağrısı ilə danışırdılar. Hərbiçi oğlanların başlarını kəsmiş (bəzilərini valideynlərinin gözü qarşısında), hamilə qadınların qarnını bıçaqla kəsib körpəni çıxarmış "türk küçüyü"- deyə süngüyə keçirmiş, bir qadının qarnından uşağını çıxarmış yerinə ərinin başını kəsib qoymuş, qadın və qızların döşlərini kəsmiş, əsirləri qışın günü soyundurub açıq havada üstlərinə soyuq su tökmüş, dırnaqların və dişlərin çıxarmış, bədənlərini siqaret və közərmiş dəmirlə dağlamış, bədənin müxtəlif yerlərin sındırmış, qaynar suya salmış, yanan odun üstünə çıxarmış, tankın arxasına bağlayıb sürümüş, körpələrin daxili orqanların çıxarmış, diri-diri insanları torpağa basdırmış, körpələri borunun içinə qoyub iki tərəfini də qaynaq etmiş, tərkibi bilinməyən iynələr vurulmuş, armatur parçaları ilə döyə-döyə öldürmüşlər.

Azəri kəndlərindən fərqli olaraq, yüksəklikdə yerləşən ermənilər evləri, həyətdə, tarlada iş görən, toy edən, qəbristanlıqda ölüsünü dəfn edən, əhalini asanlıqla atəşə tuturdu. Əliyalın qalmış xalq necə müdafiə olunacağını şaşırıb qalmışdı. Hər gün kimsə ya ölür, ya da yaralanırdı. Bəzən elə olurdu ki, qrad qurğusundan atılan mərmilərdən bir ailə bütövlükdə məhv olurdu. Füzuli şəhərində toy etməyə hazırlaşan bir evin üstünə atılan mərmidən altı nəfər həlak oldu. Rayonun Görazıllı kəndində toy evinə basqın edən saqqalı ermənilər, gəlin də daxil olmaqla 26 nəfəri girov götürdü. Girovların bəzilərinin əvəzinə pul və benzin alıb dəyişdilər. Bəzilərini isə geri almaq mümkün olmadı. Tanklarla Xələfşə kəndinə girən erməni və rus əsgərləri iki qoca qarını zorlamış, sonra da döşlərini kəsmişdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köşbək, Tuğ və b. kəndlərdə yaşayan bəzi yerli ermənilər gecələr çəpər başından çörək almaq bəhanəsi ilə qonşusu azərbaycanlını çağırır və yavaşca deyirdi;

-Qonşu, vallah biz istəmirik ki, isti ocağımıza qaynar su tökülsün. Bunun hamısını edən Yerevandan gələn saqqallılardı. Onlardan qorxuruq. Dediklərini eləməsək, ərimizi, uşaqlarımızı gözümüzün qarşısında işgəncə ilə öldürürlər. Bax, yenə gəliblər. Hamıya xəbər eləyin, gecə ehtiyatlı olsunlar.

Silahsız olan kişilər ailələrinin təhlükəsizliyini, namusunu qorumaq məqsədilə arvad-uşağını müvəqqəti kənddən çıxarıb, bir qədər aralıda yaşayan qohumlarıgilə aparardı. Ermənilər bir-birinin ardınca evləri xaraba qoyurdu. Hər gün müxtəlif bölgələrdən Bakıya qara xəbər gəlirdi. Bütün bu hadisələri gözlərimlə görmək, həqiqəti olduğu kimi əks etdirmək, insanlara çatdırmaq istəyi məni bir dəqiqə də olsa rahat buraxmırdı. Tədricən mühəndis işimi könüllü surətdə müxbir vəzifəsi ilə əvəz etməyə başladım. Yaşadığım Füzuli rayonu erməni kəndlərinin əhatəsində idi. Uşaqlığım keçən Yal Pirəhmədli kəndinin bir kilometrliyində isə iki balaca erməni kəndi-Bulutan və Xırmancıq vardı. Bu iki kənddə üst-üstə heç altmış ev yox idi. Ərgünəş dağının ətəyindəki yüksəkliklərdə məskən saldıqları üçün, başdan-ayağa silahlanmış erməni rus əsgərləri ilə birləşərək, təkcə bizim kəndi yox, eyni zamanda qonşu Sərdərli, Arış, Qoçəhmədli kəndlərini də pulemyot və toplardan atəşə tuturdular. Qəbirstanlığı dağıdır, mərmərdən olan bahalı qəbir daşlarını aparırdılar. Gecənin qaranlığında işıqsaçan güllələri izləyən kənd adamları qorxu içində hadisələrin axırını gözləyirdi. Əldə silah yox, onları müdafiə edən yox. Sakit və qayğısız həyatları birdən birə alt-üst olmuşdu. Kəndimiz beləcə darmadağın dağıldı. Tez-tez kəndimizdə olurdum. Demək olar ki, iki həftədə bir, bəzən də ayda bir. Həmişə də birbaşa səngərə qalxar, döyüşçülərlə görüşürdüm. Uşaqların hamısını tanıyırdım. Onlarla döyüşün canlı şahidi olmuşdum. Kənd əhalisi səksəkə içərisində yaşayırdı.

Babamı qonaq getmək bəhanəsilə, İmişlidə yaşayan qızıgilə apardılar. Amma kənddən ayrı yaşaya bilmirdi. Hara qonaq getsə, üç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

günə geri dönərdi. Odur ki, kənddən ayrı yaşamaq onu havalandırmışdı. Doğrudur, qohumlarımızın əksəriyyəti Xurşud mamam, Hürzad xalam, Hidayət əmim, Fitat xalanın oğul və qızları ailələri ilə birlikdə Fatma mamagilə yığışsa da, babam özünü tək-tənha hiss edərdi. Fatma mamam və həyat yoldaşı Valı əmi, o qədər ürəyiyuxa, əliaçıq, insanlara yardıma qaçan adamlar idi ki, aylar və illərlə evlərində xeyli (altmışa yaxın) qaçqın qohumu yerləşdirdi. Hər dəfə süfrələrinin arxasında əlavə 20-30 nəfər çörək yeyərdi. Gecələr otaqların hamısında yer salınar, bir otaqda 5-6 nəfər yatardı. Babam gecələr durub qaçardı. Ona görə də hamı səksəkəli yatırdı. Kimsə qabağını kəsəndə yalvarardı;

-Sən allah, qoyun evimə gedim. Kəndi ürəyim istəyir. Gedim öz evimdə, öz qapımda ölüm.

-Ay dədə, indi ora təhlükəlidir. Sən getsən, başına bir iş gəlsə, ermənilər səni öldürsə, bunu biz özümüzə bağışlaya bilmərik,-deyə hərə bir tərəfdən yazıq kişini qınayırdı. O da zülüm-zülüm ağlayırdı.

Axırıncı dəfə kəndimizdə 1993-cü ilin may ayında oldum. Ora getməzdən əvvəl Gülüş xalamın oğlu Ramizə bildirdim ki, Cuvarlı kəndində olan səngərlərə getmək istəyirəm. O hirsləndi;

-Xalaqızı, başın xarab olub? Səngərə qalxanda ermənilər snayperlə vurarlar. Sonra mən xalama nə cavab verərəm? Elə qərargahdakı əsgərlərdən müsahibə götür, geri qayıdaq.

Mənim təkid etdiyimi görüb, yazıq şəxsi maşını “Zaporojes”ə oturub sükan arxasına keçdi. Kənd yolunda atılan güllələrin altından maşını məharətlə sürərək məni səngərə çatdırdı. Bir neçə dəfə də məni Zümrüd xalamın böyük oğlu Əyyub, Hürzad xalamın oğlu Bəyindik məni səngərlərə aparmışdı. Maşından düşəndə dedim;

-Xalaoğlu, vallah sənə halaldır. Bu güllə yağışından məharətlə çıxdın.

O da gülə-gülə;

-Hə, geriyə də səni sağ-salamat apara bilsəm, onda dediklərin doğru olar.

Beləcə, hər dəqiqə ağır günlərin şahidi olurdum. Səngərlərə hər gedişimdə igid oğullarımızdan kiminsə ölüm xəbərini eşidirdim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunları gözlərimin qarşısına gətirib fikirləşə-fikirləşə səngərləri gəzirdim. Doğrudur, mülkü şəxslərə ön cəbhəyə getməyə icazə vermirdilər. Amma mən istədiyim vaxt generallardan xahiş edib, icazə ala bilirdim. Onlar məni artıq cəbhə bölgəsində görməyə alışmışdılar. Tanıdıqları üçün heç vaxt rədd cavabı vermirdilər. Xalam oğlu son da məni gətirib şəhərə qoydu. Əvvəlcə şəhəri gəzdim. Haylı-küylü şəhərdən əsər-əlamət qalmamışdı. Dinc sakinlərin əksəriyyəti şəhəri tərk eləmişdi. Sükut məni dəhşətə gətirir, qəlbimi göynədirdi. Dağılmış və yandırılmış evlərə baxdıqca, elə bil qəlbimə neştər soxurdular. İçim sızıldayır, ürəyimdə bir ağrı hiss eləyirdim. Sakitliyi düşmənin atdığı topların səsi pozurdu. Gözlərimdən üzü aşağı yaş axırdı. Axı, bu şəhərin, burada yaşayan insanların günahı nə idi? Qollarını açıb qucaqlarında yer verdikləri ermənilər niyə belə vəhşiləşmişdi? Məgər, yaxşılığa yamanlıqla cavab verilər? Bir süfrə arxasında “dost”-deyib çörək yediyimiz, “qardaş, kivrə”-deyib inandığımız ermənilər o gözəl günlərin hamısına haram qatdılar. Erməni separatçılarının qonşu ölkənin ərazisi hesabına öz sərhədlərini genişləndirmək iddiaları hər iki xalqın, erməni və azəri xalqının minlərlə sadə əhalisinin ölümünə, faciəsinə səbəb oldu, minlərlə ocaq söndü. Bizə qarşı bu qədər kin, nifrət görəsən nədəndir? Ədalətsiz müharibələr indiyə kimi hansı dövlətə uğur gətirib ki, ermənilər bundan bəhrələnə.

Oradan qərargaha gəldim. Elə təzə çatmışdım ki, 20 yaşlı Elçinin ermənilər tərəfindən öldürüldüyü xəbərini eşitdim. Bildirdilər ki, hamı kədər içərisindədir.

Bir neçə gün bundan əvvəl döyüş bölgələrini gəzərkən, Elçindən də müsahibə götürmüşdüm. Həm də onu əvvəldən tanıyırdım. Qardaşım Adil ilə kəşfiyyat rotasında xidmət edən vaxt bir günlük Bakıya ezamiyyətə gələrkən, qonağım da olmuşdu. Odur ki, oradakı sürücüdən xahiş elədim ki, məni ora aparsın.

-Ay bacı, həm qərargahdan icazə verməzlər, həm də ora olduqca təhlükəlidir. Bizimkilər dərədə, düşmən də dağ başında üç tərəfdən kəndi əhatə edib. Mühasirədə olan kəndə girmək təhlükəlidir. Sizə görə bu riski etmərəm,-deyə sürücü cavab verdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Amma mənim gözümə heç nə görünmürdü. Elə bil ki, ürəyimdə qorxu deyilən şey məndə yox idi. İstədiyim Elçinin şəhid olduğu kəndə tez çatım. İnadımdan dönmədiyimi görən sürücü, naəlac qalıb razılaşdı. Qərargahdan xəlvəti çıxıb şimal istiqamətinə yol aldıq. Hər ikimiz susurduq. Qarşıda nələr olacağı barədə heç düşünmürdük, 2 km. yol getdikdən sonra, tozlu kənd yoluna daxil olduq. Gəlişimizi təpədən görən ermənilər avtomat silahlardan maşını atəşə tutmağa başladı. Güllə sanki yağış kimi yağırdı.

-Qardaş, əgər ermənilər bizi tutsa, fikir eləmə. Səndən xahiş edirəm, əvvəl gülləni mənim başıma vur. Sonra düşmənlə nə edəcəksən, özün bilərsən. Bilirəm ki, onlar əsir götürdükləri qız-gəlinlərlə necə rəftar edirlər. (Müxtəlif döyüş bölgələrində olmuşdum. Döyüşçülər mənə danışırdılar ki, ermənilər əsir götürdükləri qızlarımızı zorlayır, soyundurub dağ başına çıxardır, bizə göstərib deyirlər;

-Ey türk, hardasan? Bu da sizin qız-gəlinləriniz. Hamımız növbə ilə zorlamışıq. İndi gəlin, sahib çıxın,- deyə azəriləri döyüşə qızışdırırlar)

Bütün bunları bildiyim üçün, döyüş bölgələrinə gedəndə özümlə qumbara götürərdim ki, düşmənə əsir düşməkdənsə özümü öldürüm. Qumbara üstümdə olanda arxayın olurdum. Anam biləndə ki, döyüş bölgəsinə gedirəm, deyinirdi, qoymaq istəmirdi. O, əsli qonşu Qoçəhmədli kənddən olan müxbir Salatın Əsgərovanın ölümündən sonra bərk qorxmuşdu. Körpə balasını anasız qoyan Salatın döyüş bölgəsindən müsahibə götürərkən, ermənilər tərəfindən qətlə yetirilmişdi. Müxbir, özü də ana olan bir qadına güllə atılmışdı. Dövlət səviyyəsində çox çətinliklə onun meyidini ermənilərdən aldılar. Daha sonra, Salatına Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ona görə, mən evdən çıxanda adi paltarda çıxar, içərisində hərbi paltar və qumbara olan çantamı götürər, yolda paltarımı dəyişərdim ki, anam bilib narahat olmasın. Amma, bu dəfə evdən qəfil çıxdığım üçün çantamı götürə bilməmişdim. Bu sözləri eşidən sürücü dedi;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Ay bacı, başımda saçlarım mismar kimi dimdik durdu. Qurd ürəyi yemisən? Birdən, birinci məni vurdular?

-Daha ondan keçib, başqa əlacımız yoxdu. Bura qədər gəlmişik,-dedim.

Çox çətinliklərdən sonra, əsgərlərin yanına çatdıq. Hamısı başını aşağı salıb, dərddən donub qalmışd. Sanki, hamını elektrik vurmuşdu. Bizi görəndə bir kəlmə dillənmədən, sakitcə üzümüzə baxdılar. İrəli yeridim. Hamısı cavan uşaqlar idi. İlahi, onların günahı nədir, axı? İndi bunların sevib-sevilən vaxtlarıdı. Anaları boylarını sevə-sevə, gecələr yuxusuz qalıb min bir əziyyətə qatlaşaraq oğul böyüdüb ki, onun toyunu etsin, nəvə görsün. Amma onlar soyuq səngərlərdə dostlarını itirir, ürəklərinin başına od düşür. Axı, onlar müharibə istəmir. Heç kimin də torpaqlarına hücum edib, qan tökmürlər. Doğma yurd-yuvalarında sakit və müharibəsiz bir ömür sürmək arzusunda olduqları halda, “Böyük Ermənistan” xülyası ilə yaşayan silahlanmış ermənilər bu dincliyə son qoyub. Ədalətsiz müharibəyə başlayıb, özgə torpaqlarına göz tikiblər. Bir anda bütün bunları xəyalımdan keçirərək, üzümü qarşımda dayanıb hirsindən və kədərindən qəhr olan əsgərlərə tutdum.

-Niyə donub qalmısınız? Gözləyirsiniz ki, gəlib sizləri işgəncə ilə öldürsünlər? Siz heç kimin torpaqlarına hücum etməmisiniz. Əksinə, şəhid qanı axan torpaqlarımıza soxulan düşmənin qarşısına alnıaçıq, üzüağ çıxmısınız. Döyüş dostunuza allah rəhmət eləsin. Qəbri nurla dolsun! Ana-bacılarınızın yollara dikilən baxışları sizi gözləyir. Odur ki, mətin və iradəli olun. Ayıq-sayıq dayanın.

Bu sözlərdən sonra əsgərlər bir-birini qucaqlayıb ağladılar, ürəkləri sanki boşaldı. Mən isə əsgər qardaşlarım görməsin deyə, kənara çəkilib xəlvəti ağladım. Yoxsa, az qalırdı, ürəyim partlaya.

Təkrar geri döndük. Səhərisi gün kəndimizə tərəf getdim. Əhali kənddən çıxdıqdan sonra, yolları, cığırları ot basmışdı. Azərbaycan musiqi sənətində öz sözünü demiş, mahir muğam ifaçıları Seyid Şuşunski, Ağabala Abdullayev, İslam Rzayev, Süleyman Abdullayev, onlarla mahnıların müəllifi Bəhram Nəsibovun və başqalarının vətəni olan kəndlərimiz sanki matəm içərisində idi. Heç

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kim heç kimi haylamırdı. Nə atılıb-düşən uşaqların, nə onları evə səsləyən anaların, nə sahibini qoruyan itlərin, nə də mal-heyvanın səsi gəlmirdi. Çal-çağırlı, toylu-büsatlı kəndə çökmüş sükutu silahların səsi pozurdu. Daha düşmən snayperinin nişangahı olan kəklikotulu Qaryağdı dağının başına çıxa bilmədim. Ürəyim susuzluqdan yansa da, Böyük kəhrizə, nə də Bala kəhrizə düşüb su içə bilmədim. Boş qalmış evimizi ziyarət edə bilmədim. Otlar o qədər ucalmışdı ki, arasında itmək olardı. Maşın otların arası ilə irəliləyirdi. Ürəyimdə kəndimi bu günə salanlara lənət yağdıra-yağdıra, Narın xalanın mağazasının yan tərəfində olan keçmiş çayxananın küncündə dayanmış əsgərlərlə görüşdüm. Kəndimin toy-büsatlı, indi suyu sovrulmuş evlərinə bir-bir nəzər salıb, köks ötürdüm. Uşaqlığımın ən gözəl günləri bir lent yazısı kimi bir andaca xəyalımda canlandı. Ürəyimin başı göynədi. İlahi, o günləri indi necə geri qaytarmaq olar? Sahibsiz qalmışdı doğma kəndim. Hər cığırına, hər künc-bucağına bələd olduğum kəndimə girə bilmədim. Kənardan həsrətlə qəbristanlıqda uyuyan nənəmin məzarına baxdım. Göz yaşlarım yanaqlarımdan üzüaşağıaxırdı. Qəbirstanlıq açıqlıqda və təpə başında olduğundan, oraya getmək heç cür mümkün deyildi. O zaman erməni snayperi səni birdəfəlik susdurardı.
Heç bilməzdim ki, bu mənim kəndimizə axırıncı səfərim və onunla son görüşümdü. Heç ağlıma da gətirməzdim ki, hamı kimi birdə o yerlərə addım atmaq mənim üçün müşkülə dönəcək, ürəyimdə daim yanan bir köz daşıyacağam.

**P.S. Amerikada yaşasam da kəndimizə axırıncı dəfə baxdığım mənzərə tez-tez gözlərim önündə canlanır. Elə o xəyallarla 2004-cü ilin oktyabrında şair olmasam da ürəyimin səsini şeirə köçürdüm.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Tanrım, qanad ver mənə

Ulu tanrım, ucaların ucası!
Qoşa qanad ver ki, mənə uçası.
Neçə ildir yanır Vətən torpağı,
Doğma el-obamı görməyə gedim.

Bizsiz darıxıbdı Qaryağdı dağı,
Suyu quruyubdu buz bulaqların,
Həsrətdən çatlayıb bağrı daşların,
Oranı bir daha görməyə gedim.

Görəsən, qalıbmı həyətimizdə
Babamın əkdiyi qızılgül kolu?
O tozlu, palçıqlı kiçik kənd yolun,
Xınalı dağımı görməyə gedim.

Çaxardı şimşəklər, yağardı yağış,
Ötərdi payız, yetişərdi qış,
“Ağ don”un geyərdi “Arabayalı”
Nisgilli kəndimi görməyə gedim.

Həm babam, həm atam kəndindən uzaq,
Göz yumub həyata “Əlvida!”-dedi.
Bir həsrət, bir nisgil dağ olub mənə,
Nənəmin qəbrini görməyə gedim.

Ulu tanrım! Sən qanad ver.
Bir quş kimi uça bilim,
Uca dağlar aşa bilim,
Öz kəndimi görə bilim.

Görüm öz gözümlə yanmış evləri,
Qurumuş çayları, viran yerləri,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoyma, bu həsrətlə köçüm dünyadan,
Möhlət ver, o yerə oğlumla gedim.
Bir daşı daş üstə qoymağa gedim.

Amma illər bir-birini əvəz edir. Tarixi saxtalaşdırmağa çalışan ermənilərin əməllərinə dünya ictimaiyyəti göz yumur, arxiv sənədlərinə, həqiqətlərə məhəl qoymayaraq, ikili standartlardan çıxış edirlər. Haqq yerini alana kimi onlarla insan üzünü göylərə tutub allahdan imdad istəyir, "Vətən"- deyib nalə çəkir.

Ermənilərin atəşi altında dərindən köks ötürüb kənddən çıxdıq. Qonşu Qarğabazar kəndindəki qədim tarixi abidə olan karvansaraya və məscidə baş çəkdim. Hələ ki, ermənilər onu dağıtmamışdı. Bu karvansara Şah Abbas karvansarası adlanırdı. 1684-cü ildə İran hökmdarı Şah Abbas Azərbaycana hücum edərkən, yol üstü bu karvansarada qalmışdı. Lakin o dövrdə Qarabağ xanlığını uzun müddət mühasirədə saxlamasına baxmayaraq, xalqın güclü müqaviməti ilə qarşılaşan şah istəyinə nail ola bilməmişdi. Məscidi isə Hacı Qiyasəddin 1682-ci ildə tikdirmişdi.

Şəhərə doğru üz tutduq. Sürücünün təkidinə baxmayaraq, şəhərin küçələrində bir qədər piyada gəzmək istədim. Kimsəsiz küçələr, məni döyüş meydanlarından çox vahimələndirdi. Tüklərim ürpəndi. Qəhər boğazımda tıxanıb qaldı. Allahım, insan insana necə bu qədər zülm edə bilər?

Bacım Aybənizin həyat yoldaşı Səməd batalyonda həkimdi. Demək olar ki, hər gün yaralılarla üz-üzədir. Bir neçə dəfə o, özü də yaralanmışdı. Səməd neçə-neçə igid oğullarımıza ilk tibbi yardım göstərərək, onları ölümün pəncəsindən xilas etmişdi. Hətta bir neçə döyüşçüyə qan da vermişdi. Hər səfərimdə Səmədin qulluq etdiyi 848 saylı batalyona (Bizim kəndimizin də müdafiəsi məhz bu batalyona həvalə edilmişdi) mütləq baş çəkirdim. Bu səbəbdən də oradakı əsgərlərin 80%-ini yaxşı tanıyırdım. Ona görə də onlar üçün də narahat idim. Bu batalyon onlarla şəhid vermişdi. Həmin şəhidlər və olduğum cəbhə bölgələrində qələmə aldığım yazıları

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Müharibənin yolları ürəyimdən keçir” adlı ilk kitabımda ətraflı qeyd etmişəm.

Oradan qayıdıb yolüstü İmişliyə, babamın məskunlaşdığı mamamgilə döndüm. Onlar mənə bildirdilər ki, artıq üç gündür babamın dili tutulub. Vəziyyəti ağırdır. Mən çarpayıda uzanmış babama yaxınlaşdım.

-Baba, bax indi kəndimizdən gəlirəm. Hər şey qaydasındadır. Qaryağdı dağının başına qalxmışdım. Evimizə baxdım. Olduğu kimi durur. Bu-gün sabah qayıdacağıq.

Əli ilə lap yanında oturmağı işarə elədi. Əvvəl dediklərimə inanmasa da, sonra yavaş-yavaş inanmağa başladı. Gözlərinə sanki işıq gəlmişdi.

-İstəyirsən, kəndimizin şəklini sənə göstərim?

Başı ilə razılıq işarəsi verdi. Mən kəndimizin əlimdə olan şəklini ona göstərəndə gözləri doldu. Hönkürtü ilə ağlamağa başladı. Bir əli ilə şəkildən, o bir əli ilə də mənim əlimdən bərk-bərk yapışdı. Elə bil ki, indi durub kəndə gedəcəyik. Son illər doğma elindən ona xəbər gətirən yalnız mən idim. Şəkili əlindən almaq istəyəndə buraxmadı, ürəyinin üstünə sıxdı. Bunu görəndə nə qədər özümü zorlasam da, artıq dayana bilməyib, ağlamağa başladım. Babam əlləri titrəyə-titrəyə gözlərimin yaşını sildi. Otaqdan çıxdım. Telefona yaxınlaşıb, məni yaxşı tanıyan bizim ərazinin hərbi generalı ilə danışdım. Bir həftədən sonra təkrar kəndimizə qayıtmaq üçün icazə istədim. Fikrim babamı ağır olsa da kəndə aparmaq idi. Ona ömrünün son anlarında el-obasını göstərmək istəyirdim. Nə olarsa eybi yoxdu, qoy orada olsun-deyə fikirləşdim. General razılığını bildirdi. Sevincək babamın yatdığı otağa qayıtdım.

-Baba, generaldan icazə də aldım. Bir həftəyə səni kəndə aparacağam, arxayın ol,-dedim.

Üç gün idi döyüş bölgəsində idim. Heç yatmamışdım. Odur ki, bərk yorulmuşdum. Çünki, ön xətdə olan səngərlərə ancaq gecələr qalxa bilirdik. Gündüz isə qərargaha, şəhərə və qospitala baş çəkirdik. Ona görə də elə bil mənə ilahi güc gəlirdi. Yuxusuz, ac-susuz səngərdən-səngərə qaçırdım. Geri dönəndə isə yorğunluq baş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaldırırdı. Axırıncı gün Beyləqan zonasındakı səngərləri gəzib qayıtdıqdan sonra, qazmada azca yatmaq istəsəm də üstümə atılan əsgər paltosunun altında soyuqdan dişlərim bir-birinə dəyirdi. Beynimdə bir sual azca mürgüləməyə imkan vermirdi.

-Soyuq səngərdə saman üzərində yatan bu oğulların günahı nədir? 19-30 yaş arasında olan bu oğlanların indi sevib sevilən vaxtıdı. Onlar isə yaş torpaq üzərində oturub-yatmaqdan böyrəklərini xəstə salacaqlar. Bunlardan bəziləri yəqin ki, ata-anasının, sevgilisinin, həyat yoldaşının, övladlarının üzünü bir də görə bilməyəcəkdi. Zümrüd xalamın qızı Nəcibənin əri Şahlar kimi. Sakit təbiətli, mehriban, ailəsini bütün varlığı ilə sevən Şahlar, iki gülüzlü körpəsini atasız qoydu. Kəlbəcər rayonunda ermənilər tərəfindən öldürüldü. Meyidini çox çətinliklə 25 gündən sonra, erməni güllə-boranı altında buzun içindən zorla götürə bildilər. Zümrüd xalamın oğlu Mehdixanı, qardaşım Azəri, yeznəmiz Səməd və dayımın yeganə oğlu Azəri də ən qaynar nöqtədə erməni ilə üz-üzə, göz-gözə qoyub gəlmişdim.

Odur ki, başım ağrıyırdı. Babamdan icazə alıb, mənə ayrılmış otaqda yatmağa getdim. Burada məskunlaşan atamın kiçik xalası Hürzad xalam yanıma gəlib dedi.

-Xalan qurban, üstünü möhkəm ört, yat. Səhər tezdən duranda xalan sənə bir yaxşı xaşıl bişirəcək. Yeyərsən, bütün soyuqdəymən o dəqiqə də canından çıxacaq.

Hürzad xalam bilirdi ki, mən xəşili çox sevirəm. O, olduqca zirək, qabiliyyətli, bacarıqlı qadın idi. Hamıya əl atardı. Bacılarının hamısının balasını ürəkdən sevər, can yandırardı. Heç kimin qəlbinə dəyməzdi. Hamımız buna görə onu çox istəyirdik. Özü də dadlı xəşil bişirərdi. Xəşil bişirməyin ustası idi. Hazırda işğal olunmuş Füzuli rayonunun Horadiz qəsəbəsində bərpa olunmuş evində yaşayır. Oğlu Bəyindik dəfələrlə öz maşınında məni cəbhə bölgəsinə aparıb.

Elə yuxuya təzəcə getmişdim ki, Hürzad xalam məni oyatdı.

-Gülən, xalan qurban, dur ayağa evləri yan-yön (yığışdıraq) edək. Can bala, baban elə bil sənin gətirdiyin şəkilə bənd imiş. Kəndin şəklini əlinin içində bərk-bərk sinəsinə sıxıb və eləcə də keçinib

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(dünyasını dəyişib). Bir azdan səhər açılacaq, qohumlar gələcək, işimiz çox olacaq.

Beləcə, babamın kəndini son dəfə görmək ümidi puç oldu, gözlərini əbədi olaraq yumdu və həyata vida etdi. Kəndimizlə, nənəmlə, babamla xatirələrim çox idi. Bir anlıq hamısı kino lenti kimi gözlərimin önündən keçdi. Ürəyimin başı göynədi. “Kənd, kənd!”- deyib nalə çəkən babamın son mənzili kəndindən çox-çox uzaqlarda oldu. Qərib qəbristanlıqda, ömür-gün yoldaşı, əsl məhəbbəti Zərifdən ayrı dəfn olundu. Ancaq mən inanıram. İnanıram ki, onların ruhu o dünyada bir-birinə qovuşub, göylərdən erməni vəhşiliyi nəticəsində dağılmış evlərə baxır, boş qalmış həyətləri gəzir, bizləri səbirsizliklə o torpaqlarda gözləyir. Yuxularımda tez-tez kəndimizə gedirəm. Nənəmlə, babamla keçirdiyim vaxtlara dönürəm. Hamımız bir yerdə deyib-gülürük. Sonra isə ayılıb, bütün bunların yuxudan başqa bir şey olmadığını görürəm və təkrar kədərlənirəm.

Müxbir dostlarım Əntiqə Qonaq, Mətanət Ağamirli, Zemfira Məhərrəmova, Aynur Abbas və başqaları ilə günlərlə cəbhə bölgələrində olduq. Ağır yollar keçdik. Yüzlərlə tanıdığımız el oğullarımızı itirdik. Onların hər birinin ölümü mənim qəlbimdə bir sağalmaz yara qoydu. 1992-ci il mayın 8-də Şuşa, mayın 18-də Laçın, 1993-cü ilin aprelin 2-də Kəlbəcər, iyulun 23-də Ağdam, avqustun 23-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı, oktyabrın 29-da Zəngilan rayonları erməni təcavüzünə məruz qaldı.

Ümumilikdə, 900 yaşayış məntəqəsi, 7 min sənaye və kənd təsərrüfatı obyekti, 700 təhsil, 665 səhiyyə ocağı, 800 km. avtomobil yolu, 160 körpü, 23 min km. su kəməri, 15 min km. elektrik xətləri, 22 muzey, 4 rəsm qalireyası, 9 tarixi saray, 40 min muzey sərvəti, 44 məbəd və məscid, 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazmalar, meşələr, bulaqlar, saysız-hesabsız evlər və qəbristanlıqlar məhv edildi.

1994-cü ilin may ayının 8-dən etibarən Bişkek protokoluna əsasən atəşkəs elan edildi, lakin buna baxmayaraq, yenə də ermənilər daima cəbhə xəttində atəşkəsi pozurlar. BMT Təhlükəsizlik

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şurasının Dağlıq Qarabağ üzrə 4 qətnaməsi (822, 853, 874, 884 saylı qətnamələr) cavabsız qalıb.

Mən, 1993-1996-cı illər arasında ezamiyyətdə olduğum döyüş bölgələrində, qospitallarda, dağılmış kəndlərdə şahidi olub, qələmə aldığım və respublikanın mətbu orqanlarında dərc etdirdiyim həmin məqalələri 2006-cı ildə "Müharibənin yolları ürəyimdən keçir" adı altında nəşr elətdirdim. Faktlara söykənən bu kitabım oxucular tərəfindən böyük sevgi ilə qarşılandı. Azərbaycan Respublikası Jurnalistlər Birliyinin ən yüksək mükafatı- "Qızıl qələm" mükafatına layiq görüldüm. İkinci kitabımda isə kəndimizlə bağlı xatirələr öz əksini tapmışdı. Doğrusunu deyim ki, bu kitabda yaşadıqlarım, gördüklərim öz əksini bütövlükdə tapmamışdır. Amma, qısa da olsa kəndim haqqında sizlərə məlumat verməyi özümə borc bildim. Ümid edirəm ki, bu kitabımı da maraqla oxuyacaqsınız.

Hal-hazırda Amerikanın Kaliforniya ştatında yaşayıram. Ailəliyəm. Həyat yoldaşım Stüart Azərbaycanı çox süvir. Həmin sevginin əsas səbəbi həm mənim vətənim barədə söylədiklərim, həm də internet vasitəsilə əldə etdiyi informasiyalardır. Dəniz adlı bir oğlum da var. O, muğamlarımızın sədaları altında yuxuya gedir. Nə vaxt ağlasa, "Şuşanın dağları" mahnısını səsləndirirəm və hər şey yoluna düşür.

Eyni zamanda Kaliforniyanın Carona şəhərində "Amerika-Azərbaycan Qadınlarının Dostluq cəmiyyəti" ni də yaratmışam. Burada yaşayan azəri xanımlar bir araya gəlmişik. Tez-tez bir yerə toplaşır, Azərbaycan mədəniyyəti, tarixi barədə söhbətlər aparırıq. Amerika və digər millətlərdən olan vətəndaşlara ölkəmiz haqqında ətraflı məlumatlar verir, foto şəkillər və video görüntülər təqdim edirik. Bacardığımız ən cüzi köməyi Vətənimizdən əsirgəmirik.

Biz inanırıq. İnanıram ki, gün gələcək biz o yerlərə bir də dönəcəyik. İqtisadi və siyasi cəhətdən gündən-günə güclənən Azərbaycan sülh yolu ilə torpaqlarını geri qaytaracaq. Qarabağda yenə azərilərlə ermənilər bir yerdə, qonşuluq şəraitində mehriban yaşayacaqlar. Çünki, bizim xalq bağışlamağı bacaran xalqdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnanıram. İnanıram ki, həyat yenidən gözəlləşəcək. Əllərimizdə gül dəstələri məzarlığa gedəndə ölülərimizin ruhu dinclik tapacaq. Sülh, əmin-amanlıq olacaq. O vaxt yazacağım kitab isə həyatımın ən gözəl, ən xoşbəxt anını özündə əks etdirən “Kəndimə qayıdış” olacaqdır.

“Avropa” nəşriyyatı, 2008.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional





Kəndimdə erməni vəhşiliyi





Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional





Erməni vəhşiliyi







Xocalı soyqırımı



Milli qəhrəman
Mehdi Abbasov





Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional





Kəndimdə erməni vəhşiliyi





Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional




Viran olmuş kəndim



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional